Для строительной организации к основным функциям могут быть отнесены не только функции управления закупками, маркетингом, сбытом, производством, определяющие стоимость продукции, но и научно-исследовательские разработки, так как потребителя интересует, какие технические характеристики имеет продукция и насколько эстетично она выглядит [2, с. 132].Очевидно, что основные функции управления определяют движение продукта внутри и вне организации, согласно калькуляции затрат на основе движения продукта составленное автором (рис.2.) Смотри .

Вспомогательные виды деятельности или обслуживающие функции, такие, как закупки сырья и материалов, развитие технологий, управление человеческими ресурсами и другие, не указанные в цепочки ценности Портера, например, компьютерное и информационное обеспечение, обеспечение ремонтом, инструментом, транспортом

и т.д., прямой ценности для потребителя не создают. Они лишь поддерживают способности организации к выполнению основной деятельности. Эти функции часто переплетены с основными, если бы их не было, то движение продукта остановилось бы. Но потребители не видят этого, им не важно, на каком уровне управления осуществляются эти вспомогательные функции, при решении и вопроса делать заказ или не делать заказа в этой организации. Но если функции обслуживания выполняются не эффективно, то это отражается на цене продукта. Воздействие этих функций будет координирующим и изменяющим. То же самое можно отнести к функциям инфраструктуры или общего управления, таким, как бухгалтерский учет, планирование деятельности, финансы, информационное обеспечение и т.п. Основное назначение этих функций - обеспечение не только основных функций, а функционирования всей организации в целом.

Таким образом, управленческие воздействия можно разделить на две группы.

1. Увеличивающие ценность и стоимость продукта для покупателя в результате физического преобразования ресурсов для получения конечного продукта в форме, который желает приобрести покупатель.

2. Не увеличивающие ценности с точки зрения покупателя и служащие для изменения построения самой организации и ее фиксированных ресурсов, координации действий, преобразования и улучшения процесса движения продукта внутри организации и к покупателю. Их называют нулевыми вмешательствами.

В соответствии с калькуляцией затрат на основе движения продукта PFC стоимость продукта будет складываться из затрат функций, увеличивающих ценность, «нулевых» вмешательств и временных затрат, возникающих в результате нахождения продукта в процессе производства, рассчитываемых как стоимость незавершенного производства, дисконтированная по времени. Элементы затрат, относимые на управленческие воздействия, указаны на рис. 3. в соответствии с методикой PFC .



Рис 3. Элементы затрат, относимые на управленческие воздействия

Примечание: Источником рис.3. является [1, с. 189]

Покупатели заплатят организации одну из цен на продукт:

- стоимость, повышающую ценность продукта при заданном наборе ресурсов, с учетом того, что организация избавляет их от необходимости самостоятельного производства продукта;
- затраты на приобретение идентичного продукта в другом месте, на рынке.

Важными следствиями метода калькуляции затрат на основе движения продукта Б. Райана являются следующие выводы.

Управленческие воздействия, не увеличивающие ценности продукта, т.е. «нулевые» вмешательства и временные затраты, не компенсируются рынком.

1. В рамках терминологии метода PFC и теории операционных издержек (концепции деловой операции — транзакции), набор нулевых вмешательств и временных затрат, необходимых для создания продукта или промежуточных продуктов, создает операционные издержки или транзакционные издержки организации.

2. Операционные издержки (транзакционные издержки) можно определить как разность между ценой продукта, изготовленного в организации за минусом затрат, увеличивающих ценность продукта (затраты на физическое преобразование ресурсов с целью получения конечного продукта).

Таким образом, развитие организации следует рассматривать через критерий минимизации операционных издержек.

В последнее время во многих строительных компаниях происходит значительная переориентация стратегических установок в направлении построения целесообразности стратегии. Связано это в первую очередь с ростом конкуренции в области высоких технологий, повышением оперативности использования научно-технических достижений, более активной деятельностью в плане поиска и освоения доли рынка. В результате возникает значительная потребность в новых методах и подходах к управлению национальными процессами.

Основные аспекты инновационной экономики можно анализировать на различных уровнях масштабирования, принятых при описании самих процессов, а именно, на микро уровне – уровне функционирования отдельного предприятия (организации), на мезо уровне – уровне функционирования страны и (или) отрасли; и на макро уровне – экономики в целом. При этом на каждом уровне показатели инновационно-экономических процессов могут быть различными в силу различия решаемых задач.

С точки зрения «типов» инновационной экономики можно условно выделить:

- экономику переходного периода (переход от административно-командной формы хозяйствования к рыночным механизмам, что можно трактовать как экономическую инновацию);
- экономику инновационного развития (прирост показателей ВВП достигается в основном за счет новшеств – нововведений различной природы);
- экономику знаний и прав на них, т.е. экономику интеллектуальной собственности (ИС) и нематериальные активы (НМА).

Тип инновационной экономики характеризуют три основные черты с точки зрения инновационной деятельности:

1. способность субъектов хозяйствования осуществлять инновационную деятельность (ресурсно-проектная предрасположенность и предшествующий опыт);
2. существующие инновационные риски, связанные с созданием нового продукта или процесса (как инновации), а не с масштабированием уже ранее созданного продукта или процесса. Эти риски обусловлены многими факторами, в том числе наличием или отсутствием соответствующей инновационной инфраструктуры;
3. стоимость инвестиций, необходимых для осуществления инновационной деятельности.

Например, исходя из качественных и количественных экономических характеристик, типичных представителей трех типов инновационной экономики можно предположить, что качественное позиционирование США, Китая, России на «плоскости показателей инновационной деятельности»: «инфраструктурные инновационные риски – стоимость инвестиций» будет выглядеть так, как это представлено на рис. 1. [24, с. 308].

Разумеется, эта картина отражает только качественно усредненную характеристику соответствующей страны, где одновременно могут сосуществовать все три типа экономики. Но, тем не менее, даже такая грубая оценка позиционирования России на «инновационном поле» показывает пути повышения инновационной составляющей в ВВП России. Можно выделить необходимость снижения инновационных рисков, за счет создания соответствующей инфраструктуры, (в частности, национальной инновационной системы (НИС).



Рис. 4. Инновационное позиционирование России, Китая, США

Примечание: Источником рис. 4. является [3, с. 309]

И понижения стоимости инвестиций в инновационной сфере, например, путем создания частного государственного партнерства и распределения инновационных рисков между государством и частным капиталом.

Естественным образом возникает вопрос о способности конкретного субъекта хозяйствования так трансформировать собственную хозяйственную деятельность, чтобы она соответствовала инновационной экономике.

Интуитивно ясно, что способность трансформировать хозяйственную деятельность будет определяться многими внешними и внутренними факторами, характеризующими уровень инновационной деятельности, например, таким, как «инновационная активность».

Несомненным критерием, характеризующим успешность инновационной деятельности, являются конкурентоспособность предприятия и его рыночная (биржевая) стоимость: очевидно, что инновационное развитие организации способствует в ряде случаев улучшению этих показателей предприятий, хотя, в общем случае, утверждать это однозначно нельзя. Для анализа этого факта в каждом конкретном случае необходимы показатели инновационной деятельности, пороговые значения которых могли бы однозначно свидетельствовать об этом. [3, с. 309-310].

Стратегия перехода от «Экономики переходного периода» (ЭПП) к «Экономике инновационного развития» (ЭИР) и далее к «Экономике НМА» (ЭНМА) является стратегической, организационно-управленческой, технологической, финансовой инновацией, реализация которой должна вывести Азербайджан на уровень развитых высокотехнологичных стран мира. При этом сам процесс трансформации экономик должен быть управляемым, и, разумеется, трансформация предприятий и рынка также должна быть управляема. Для такого процесса необходимы базовые представления о характеристиках как «внешней среды» (по отношению к предприятиям и рынку), так и «внутренней среды» (на предприятиях и рынке), которые ответственны за количественную процедуру управления трансформацией как «экономик», так и «предприятий и рынка» в рамках каждой «экономики». Поэтому необходимы некоторые модели как «экономик», так и «предприятий и рынка» [3, с. 310].



Рис. 5. Участники процесса коммерциализации технологий

Примечание: Источником рис. 5. является [3, с. 310]

Вся «экономика» как совокупность видов деятельности и показателей этой деятельности представляется набором кластеров разного масштаба и предметной деятельности. Такое кластерное представление «экономики» представляет единообразное описание деятельности всех участников экономической деятельности, а именно: НИИ, завод, рынок конечной продукции, венчурный и проектный инвестор. При этом критерием эффективности является конкурентоспособность, стоимость и инновационное развитие всего кластера.

Чтобы наглядно представить их взаимодействие, необходимо построить определенную экономическую модель взаимодействия участников кластера внутри самого кластера (рис.5.).

Наконец, для практики использования необходимо ввести критерий эффективности кластера в целом (те же критерии – конкурентоспособность, стоимость, инновационное развитие).

Понятно, что для успешной инновационной деятельности, которую можно определить как «управление инновациями», необходима количественная методика измерения всего, что связано с инновацией; поскольку «чтобы управлять, надо уметь измерять». Поэтому разработка количественных методов работы с инновациями является важнейшим шагом на пути реализации инновационной политики.

Понимание количественных методов оценки инновационной деятельности должно определяться пониманием рынка технологий и связанного с ним конечной продукции. Автором разработана, линейная (однонаправленная) и нелинейная (двунаправленная) модель рынка «технологии – производства- продукция», а также нелинейные (двунаправленные) модели работы НИИ и КБ (на рынке технологий) и работы завода (на рынке продукции),(рис. 6.).

Основные отличия данных моделей заключается в том, что линейная (однонаправленная) модель рынка (и технологий, и конечной продукции) соответствует таким отношениям субъектов хозяйствования, когда результаты предшествующего этапа однозначно востребованы на последующем этапе; здесь под востребованностью имеется в виду удовлетворение требованиям. Такая ситуация возможна лишь в планово-административной экономике, например, производственный «продукт» однозначно является «товаром».

В общем случае рыночных отношений (при наличии конкуренции между однотипными субъектами хозяйствования) линейная модель рынка (технологий и конечной продукции) не работает, поскольку покупатель продукции (на рынке конечной продукции) будет приобретать только то, что ему необходимо, а не то, что ему предлагает «продавец», который произвел свою продукцию без предварительного анализа потребности «покупателя». Двум описанным моделям рынка соответствует две схемы работы на рынках технологий и конечной продукции, а именно, схема-«выталкивание» на рынок того, что произведено, и схема – «вытягивания» в рынок того, что необходимо.

Каждая из этих схем имеет очевидные преимущества и недостатки, поэтому на практике используется последовательность из двух схем.

Очевидно, что поскольку НИИ, КБ и завод являются участниками отраслевого кластера, то они связаны цепочкой инновационного процесса.

При этом инновационная активность каждого из участников характеризуется соответствующим показателем инновационной активности. Такие количественные показатели уже позволяют оценивать эффективность участника инновационной цепочки в общем разделении «инновационного труда».



Рис. 6. Модель рынка технологий

Примечание: Источником рис. 6. является [3, с. 312]

Инновационная активность каждого из участников рынка может быть качественно охарактеризована многими показателями инновационной деятельности, отражающими, например, восприимчивость, предрасположенность, ресурсные возможности, эффективность и т.д. в отношении инноваций.

В процессе исследования можно сделать выводы, что в данной главе разработаны концепции управления инновационной и научно-технологической деятельностью. Рассмотрено влияние рационалистической концепции и внешних факторов инновационной и научно-технологической сферы на эффективность управления экономикой.

Рассмотрены ряд необходимых мероприятий для увеличения инновационного и научно-технического уровня страны.

Рассмотрены принципы формирования и реализации государственной программы инновационной и научно-технической стратегии, являющаяся основой возрождения отечественной национальной экономики.

Рассмотрена реалистическая система управления инновационной и научно-технической деятельностью по принципу управления по Тейлору, по Файолью, по Эмерсону, по Форду.

Рассмотрены принципы рационалистической концепции управления на основе «Всеобщего качества управления» по принципу Э.Деминга и Д.Джурана.

Рассмотрены факторы макро изменений внешней среды в новой информационной эре и факторы микро изменений внешней среды по Портеру, стадии конкуренции по Портеру и факторы производства в структуре стоимости товара раскрывающая всю суть инновационной и научно-технической деятельности в экономике страны.

Рассмотрены семь фаз классической стадии инновационного процесса и его формировании на основе знаний.

Исследованы модели инновационных процессов в зависимости от функции управления и модели инновационного толчка первого, второго поколения и третьего поколения, как сопряженной инновационной модели.

Исследована ценная модель инновационного процесса Клайна-Розенберга и четвертое поколение инновационного процесса по Ротуэллу, ставшей моделью интеграции НИОКР с производством, японский подход к инновационному процессу.

На основе проведенных исследований автором была разработана пятая модель взаимодействия внешних и внутренних институтов в процессе внедрения инноваций.

Произведена разработка инновационной стратегии с учетом перспективы развития предприятий на основе теории транзакционных издержек.

Литература:

1. Баранчеев В.П. Управление инновациями: учебник М.: Юриейт, 2012. – 711 с.

2. Портер, М. Конкуренция : учеб. пособие : пер. с англ. — М .: Издательский дом «Вильямс», 2001. — 495 с.

3. Гончаренко Л.П. Инновационная политика: Учебник, 2009. – 352 с.

Xülasə

MAKROİQTİSADİYYATIN TRANSAKSİYA XƏRCLƏRİ NƏZƏRİYYƏSİ ƏSASINDA MÜƏSSİSƏLƏRİN İNKİŞAF PERSPEKTİVLƏRİ NƏZƏRƏ ALINMAQLA İNNOVASİYA STRATEGİYASININ İŞLƏNİB HAZIRLANMASI

Nərgiz FƏTAHOVA

Azərbaycan Memarlıq və İnşaat Universiteti, doktorant

Rəyçi: t.e.d., i.e.d., nəqliyyat doktoru, professor Ədalət Əliyev

Açar sözlər: müəssisə, məhsul, idarəetmə funksiyaları, rəqabətə davamlılıq, resurslar, hesablama, xərclər, məsrəf

Bu məqalədə istehsal proseslərinin təkmilləşdirilməsini, öz məhsulunun satışını, çatdırılmanı və satışdan sonrakı xidməti həyata keçirən müəssisələrin tədqiqi yerinə yetirilmişdir.

B. Rayanın məhsulun hərəkəti əsasında xərclərin hesablanması metodundan istifadə edilmişdir. İnşaat məhsulunun rəqabətə davamlılığını təmin etməklə, istehlakçıların nöqteyi-nəzərindən inşaat təşkilatının məqsədlərinin icrası ilə birbaşa bağlı idarə etmənin əsas funksiyalarına baxılmışdır. Məhsulun hərəkəti prinsipi, mərhələlər, resurslar və idarəetmə təsirləri tədqiq edilmişdir.

Abstract

DEVELOPMENT OF INNOVATIVE STRATEGY TAKING INTO ACCOUNT THE PROSPECT OF DEVELOPMENT OF THE ENTERPRISES ON THE BASIS OF THE THEORY OF TRANSACTION COSTS OF THE MACROECONOMY

Nargiz FATAHOVA

Ph.D student of the Azerbaijan Architecture and Construction University

Reviewer: Ph.D. of Technical, Ph.D. of Economical, Ph.D. of Transportation Adalat Aliyev

Keywords: Enterprise, production, management functions, competitiveness, resources, accounting, expenses, costs

The article researches the enterprises which carry out perfection of productions, sale of their production, delivery and aftersales service. The basic functions of management directly connected with performance of the purposes of the construction organisation from the point of view of consumers are considered, providing competitiveness of construction production. The principle of movement of a product, its stages, resources and administrative influences has been investigated.

AVTOMOBİL VƏ TRAKTORLARDA NƏQLİYYAT YANACAQ NORMASININ SINAQ ÜSULU İLƏ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ METODİKASI

Ceyhun TALIBOV
Azərbaycan Texniki Universiteti, doktorant
Azərbaycan Universiteti, müəllim

Rəyçi: t.e.n.,dosent Rauf Məmmədov
Açar sözlər: Nəqliyyat yanacaq norması, avtomobil, sınaq üsulu , xronometraj

Giriş: Avtomobilin və traktorlarda istismar xərclərinə təsir edən əsas xərc maddələrindən biri yanacaq xərcləridir. Yanacaq xərcləri ümumi istismar xərclərinin 75 – 85 %-ni təşkil edir. Bu səbəbdən nəqliyyat işinin tarifinin hesablanması, effektiv hərəkət tərkibinin seçilməsi nöqteyi nəzərindən yanacaq normalarının dəqiq müəyyənləşdirilməsi ən vacib şərtdir.

Lakin, avtomobil istehsalçıları tərəfindən təqdim edilmiş xüsusi yanacaq sərfi norması çox vaxt real istismar şəraitindəki yanacaq norması arasında xətaların olması ilə müşahidə olunur.Bu xətaların yaranma səbəblərindən biri istehsalçı zavod tərəfindən təqdim edilən xüsusi yanacaq normasının real istismar şəraitinə uyğun olmamasıdır. Belə ki, istehsalçı zavod tərəfindən təqdim edilən xüsusi yanacaq normaları laboratoriya şəraitində müəyyənləşdirilir. Laboratoriyada qaçış barabanları üzərində avtomobilin müxtəlif sürətlərlə hərəkəti müxtəlif tsikllərdə stimulyasiya edilərək xüsusi yanacaq sərfi norması hesablanır. Bu məqsədlə, Avropa avtomobil istehsalçıları NEDC (New European Driving Cycle), Yaponiya avtomobil istehsalçıları JC08 (Japan Cycle) və Amerika avtomobil istehsalçıları FTP-75 (Federal Test Procedure) metodikalarından istifadə edilir [1,2]. Bundan əlavə bu metodikalar laboratoriya şəraitində həyata keçirildiyindən hava müqaviməti qüvvələri, diyirlənmə müqavimət qüvvəsi və s. qüvvələrin təsiri real istismar şəraitindəki müqavimət qüvvələrindən fərqli olur.

Eyni zamanda qeyd etməliyik ki, xüsusi yanacaq sərfi normasına hər bir istismar şəraitində istifadə edilən yanacaq növünün də təsiri böyükdür. Belə ki, laboratoriya şəraitində xüsusi yanacaq sərfinin müəyyənləşdirilməsi üçün istifadə edilən yanacağın özəl xüsusiyyətləri ilə avtomobilin istismar olunduğu ölkədəki yanacağın xüsusiyyətləri arasında fərq yanacaq sərfiyyatına təsirini göstərir. Əgər Azərbaycanda Aİ – 95 benzininə istifadə edilirsə, Avropada daha yüksək ekoloji tələblərə cavab verən 10%-li spirt qatqılı benzindən istifadə edilir ki, belə benzinlərin sərfiyyatı daha çox olur [3].

Problem: Yuxarıda göstərilən səbəb və istehsalat təcrübələrindən belə nəticəyə gəlmək olar ki, avtomobil istehsalçıları tərəfindən təqdim edilən xüsusi yanacaq sərfi normaları Azərbaycanda avtomobillərin istismarı zamanı bir çox hallarda özünü doğrultmur. Bu da öz növbəsində avtomobillərin istismar xərcləri, daşıma tarifinin müəyyənləşdirilməsi və o cümlədən yanacaq xərclərinin müəyyənləşdirilməsi zamanı müxtəlif uyğunsuzluqlar yaradır. Bu uyğunsuzluqların aradan qaldırılması yollarından biri yanacaq sərfinin daha dəqiq

müəyyənləşdirilməsi üçün müəssisələr tərəfindən nəqliyyat yanacaq normasından istifadə edilməsidir. Nəqliyyat yanacaq norması dedikdə, real istismar rejimi və digər faktorların təsiri altında nəqliyyat vasitəsinin istismarı zamanı 100 km yürüşə və ya bir motosaat üçün yanacaq istehlak həcmi nəzərdə tutulur [4]. Qeyd etmək lazımdır ki, nəqliyyat yanacaq normasının müəyyənləşdirilməsi üçün Azərbaycanda və xaricdə vahid metodikanın olmaması eyni zamanda istehsalçı tərəfindən təqdim edilən yanacaq normalarının real istismar şəraitindəki sərfiyyatla fərqli olması respublikamızın avtonəqliyyat müəssisələri üçün müxtəlif maliyyə və texniki xarakterli problemlər yaradır.

Problemin həlli: Bu problemi həll etmək məqsədi ilə aşağıda göstərilən dörd bölümdən və sınağın qeyd olunma aktından ibarət metodikanın tətbiq olunmasını təklif edirəm:

Avtomobil və traktorlarda nəqliyyat yanacaq normasının sınaq üsulu ilə müəyyənləşdirilməsi metodikası

1.Metodikada istifadə edilən anlayışlar

1.1.Nəqliyyat yanacaq norması - real istismar rejimi və digər faktorların təsiri altında nəqliyyat vasitəsinin istismarı zamanı 100 km yürüşə və ya 1 motosaat üçün yanacaq istehlak həcmidir.

1.2.Avtomobilin üfüqi taraz vəziyyəti - nəqliyyat vasitəsinin önə və arxaya, eyni zamanda sağa və sola maililiyi olmayan halı nəzərdə tutulur. Hündür boğazlı yanacaq çəni olan avtomobillərdə 10-12% xətaya yol verilə bilər.

1.3.Yanacaq çəninin tam doldurulması - yanacaq çəninin boğazında yanacaq səviyyəsinin vizual müşahidə olunması və yanacaq səviyyəsinin nişanlanmasına şərait yaradan hal nəzərdə tutulur.

1.4.Marşrut - sınağın başlanğıc və son nöqtələrinin arasındakı hərəkət trayektoriyasıdır. Sınaq zamanı marşurutun qeydiyyatı zamanı başlanğıc və son yanacaq doldurma məntəqələrinin ünvanı və gedilən küçələr, küçə kəsişmələri, qeyri-yaşayış sahələrində magistralın kilometri və digər tanınmış məntəqələrdən istifadə edilir.

1.5.İş rejimi - İşin növbəliliyi, yükləmə boşaltma işlərinin sayı, kolonda hərəkət, magistral qaz, neft kəmərlərinə xidmət, estakadada hərəkət, müşayiətetmə, qeyri standart və təhlükəli yük daşınması və s. nəzərdə tutulur.

1.6.İstismar tsikli - əsasən «Şəhər», «Şəhərkənarı», «Qarışıq» və «Müəssisədaxili» tsikli nəzərdə tutulur.

1.6.1.«Şəhər» tsikli - sürət tez-tez və böyük intervallarda dəyişir (0-60 km/saat), o cümlədən mühərrik işıqforlarda, sıxlıqlarda və dayanacaqlarda boş işləyir, təcili sürətlənmə və yavaşıma ilə xarakterizə olunur; Bu tsikldə şəhər əhalisinin sayından asılı olaraq yanacaq sərfi 5-25% intervalında artır.

1.6.2.«Şəhərkənarı» tsikl - stabil optimal hərəkət sürəti ilə xarakterizə edilir, sürətlənmə və yavaşıma intensivliyi azdır və tədricən həyata keçirilir. Minimal yanacaq sərfi ilə xarakterizə edilir.

1.6.3.«Qarışıq» tsikl - «Şəhər» və «Şəhərkənarı» tsikllərin hər ikisinin istifadə olunduğu istismar rejimidir. Real yanacaq sərfi müşahidə olunur.

1.6.4.«Müəssisədaxili» tsikl - müəssisə daxilində aşağı sürətli və kiçik təcili hərəkətlə xarakterizə edilir.

1.7.Metroloji şərait - havanın hərarəti, yağmur, külək və s. nəzərdə tutulur.

1.8.Dəniz səviyyəsindən hündürlük - nəqliyyat vasitəsinin dəniz səviyyəsindən 0, 300, 800, 2000, 3000 metr hündürlüklərdə istismar rejimi nəzərdə tutulur.

1.9.Mürəkkəb planlı yol - orta hesabla 1 km yolda 5 döngə (radiusu 40 metrdən az olan döngələr) olan hərəkət trayektoriyalı yollar nəzərdə tutulur.

1.10.Yol örtüyü - asfalt, çınqıllı, torpaq, beton, mədənlərarası, estakada, dağ yolu, yumşaq qar və s. yol örtüyü nəzərdə tutulur.

1.11.Əlavə avadanlıq - avtomobildə istifadə edilən kondisioner, avtonom qızdırıcı, soyuducu, projektor və s. nəzərdə tutulur.

1.12.Yükgötürmə əmsalı - avtomobilin yükgötürmə qabiliyyətindən istifadəni xarakterizə edir. Yükgötürmə əmsalı avtomobilin faktiki götürdüyü yükün kütləsinin maksimal yükgötürmə kütləsinə olan nisbətinə bərabərdir.

1.13.Avtomobilin maksimal yükgötürmə kütləsi - istehsalçı zavod tərəfindən müəyyən olunur. Avtomobilin qeydiyyat şəhadətnaməsinin "İcazə verilmiş maksimal kütlə" bəndindəki verilənlə "Yüksüz kütlə" bəndindəki kütlə fərqinə bərabərdir.

1.14.Sürücülük üslubu - sürücünün avtomobili idarəetmə temperamenti və peşəkarlığını xarakterizə edir. Bu parametr yanacaq sərfinin artmasına və ya azalmasına - 25%-dək təsir edə bilir. Sürücülük üslubu əsasən "Aktiv", "Peşəkar", "Passiv" növlərə bölünür.

2.Təşkilati işlər

2.1.Müəssisələrdə nəqliyyat vasitələrinin nəqliyyat (faktiki) yanacaq sərfinin yoxlanması müəssisə rəhbəri tərəfindən yaradılmış komissiya tərəfindən həyata keçirilir.

2.2.Komissiyanın tərkibi 3 nəfərdən az olmamalıdır.

2.3.Komissiya tərkibində 5 ildən çox sürücülük təcrübəsi olan mühəndis, texniki işçilər və sürücülər fəaliyyət göstərə bilər.

2.4.Sınaqların real istismar şəraitinə uyğun və istehsalat prosesini pozmadan aparılması tövsiyə olunur.

2.5.Sınaq zamanı bilavasitə sürücünün işinə vizual və audio nəzarət olmalıdır.

2.6.Yanacaq sərfinin müəyyənləşdirilməsi zamanı mübahisəli hallarda sınağın video çəkilişi aparılmalıdır.

2.7.Sınaq zamanı başlanğıc və son yanacaq doldurma prosesinin eyni yanacaq doldurma məntəqəsinin, eyni doldurma kolonkasında aparılması tövsiyə olunur.

2.8.Mühərrikin dövrlər sayı istehsalçı tərəfindən müəyyən olunmuş orta dövrlər sayında olmalıdır.

2.9.Sınaq zamanı nəqliyyat vasitəsi Cədvəl 1.-də göstərilən sürət məhdudiyyətindən çox olmayan sürətlə sürməlidir.

	Yaşayış məntəqələri daxilində	Avtomagistrallarda	Digər yollarda
Minik avtomobilləri	60	110	90
Şəhərlərarası və kiçik avtobuslar	60	90	90
Digər avtobuslar, yük avtomobilləri	60	90	70

Cədvəl 1. Nəqliyyat vasitələrinin sürət məhdudiyyətləri

2.10. Xüsusi təyinatlı avtomobillər və xüsusi texnikalarda ötürməni eyni mühərrikdən götürən müxtəlif qurğu və mexanizmlər üçün yanacaq norması A K T – ı (əlavə 1) hər biri üçün ayrılıqda tərtib edilir.

2.11.Sınaq zamanı ƏM və TT qaydalarına əməl olunması vacibdir.

3.Sınaq öncəsi texniki işlər

3.1.Sınaq başlamazdan əvvəl nəqliyyat vasitəsinin saz olması yoxlanılmalıdır, o cümlədən:

3.1.1.Hava filtirinin təmizliyi yoxlanılmalıdır;

3.1.2.Turbinli mühərriklərdə turbinin düz işləməsi yoxlanılmalıdır;

3.1.3.İnterkullerin düz işləməsi yoxlanılmalıdır;

3.1.4.Mühərriki Avro – 4, Avro - 5 və Avro - 6 standartlarına cavab verən nəqliyyat vasitələrinin AdBlue çənində reaqentin səviyyəsi və keyfiyyəti yoxlanılmalıdır (AdBlue əvəzinə distilə suyu və ya başqa maye olan halda yanacaq sərfi 30% artır);

3.1.5. Şinlərin təzyiqinin normalara uyğunluğu yoxlanılmalıdır;

3.1.6.İşlənmış qazların xaric olunma sisteminə və səs boğucuya müdaxilənin olmaması yoxlanılmalıdır;

3.1.7.Mühərrikin işləməsi üçün istehsalçı zavod tərəfindən nəzərdə tutulmuş yanacaq markasından istifadə olunmasına nəzarət olunmalıdır;

3.1.8.Qida - yanacaq sistemində axıntıların və müdaxilələrin olmaması yoxlanılmalıdır;

3.1.9.Odometr və ya spidometrin möhürlü olması və düz işləməsi yoxlanılmalıdır.

4. Sınağın aparılması və qeydiyyatı işləri

4.1.Avtomobil yanacaq doldurma məntəqəsində üfüqi taraz vəziyyətdə (bu metodikanın 2.2 yarım bəndi) saxlanılır.

4.2.Yanacaq çəni tam doldurulur (bu metodikanın 2.3 yarım bəndi) və nişanlanır.

4.3.Odometrin göstəricisi sıfırlanır və ya olan göstərici AKT - ın (əlavə - 1) 10 - cu bəndində qeyd edilir.

4.4.Sınağın başlama vaxtı AKT - ın 15 - ci bəndində qeyd edilir.

4.5.Sınağın aparıldığı marşurutun başlanğıc və son nöqtələrinin əsas orientirləri və ya yanacaq doldurma məntəqəsinin ünvanı AKT - ın 1 - ci bəndində qeyd edilir.

4.6.Nəqliyyat vasitəsinin istismar tsikli (bu metodikanın 2.6 yarım bəndi) haqqında AKT - ın 2 - ci bəndində qeydiyyat aparılır.

A K T №

_____şəhəri " " _____. .201 il.

_____
müəssisənin adı

Biz aşağıda imza edənlər;

1._____ _____
vəzifəsi A.A.Familiyası

2._____ _____
vəzifəsi A.A.Familiyası

3._____ _____
vəzifəsi A.A.Familiyası

Iştirakı ilə _____ il istehsal olunan_____markalı_____D.N.N

_____ tipli və _____ qoşqulu

n/vasitəsinin aşağıdakı yol - istismar şəraitində yanacaq sərfi sınaq üsulu ilə yoxlanılmışdır;

1.Marşrut _____

2. Istismar tsikli_____3.İş rejimi_____

4.Dəniz səviyyəsindən hündürlük(m)_____5.Yolun mürəkkəb planlı hissəsi(km)___

6.İşlək mühərriklə boş dayanma müddəti (saat) _____

7.Yol örtüyü _____8.Metroloji şərait _____

9.Yükgötürmə əmsalı _____

10.Gedilən yol(km)_____11.Moto/saat_____

12.Əlavə avadanlıqlar_____13.A.işləmə müddəti,saat_____

14.Baza modelə əlavə konsrtuktiv və ağirliq dəyişikliyi _____

15.Yanacaq növü_____və faktiki sərfi _____

16.Sınağın başlama vaxtı_____ qurtarma vaxtı_____

17.Sürücüluk üslubu _____

Sınaq nəticəsində _____(km/saat) orta sürətlə _____saat istismarı zamanı nəqliyyat yanacaq

norması _____ , ____l /100km və ya_____ l /saat müəyyən olundu.

(yazı ilə)

1._____ _____
Familiya ,ad,ata adı(tam yazılmalı) , imza

2._____ _____
Familiya ,ad,ata adı(tam yazılmalı) , imza

3._____ _____
Familiya ,ad,ata adı(tam yazılmalı) , imza

4.7.Nəqliyyat vasitəsinin istismarının iş rejimi (bu metodikanın 2.5 yarım bəndi) haqqında AKT - ın 3 - cü bəndində qeydiyyat aparılır.

4.8.Dəniz səviyyəsindən hündürlük (bu metodikanın 2.8 yarım bəndi) 0,300, 800, 2000,3000 metr intervalında olması AKT-ın 4-cü bəndində qeyd edilir.

4.9.Hərəkət trayektoriyasının mürəkkəb planlı yollarının (bu metodikanın 2.9 yarım bəndi) uzunluğu AKT - ın 5 - ci bəndində qeyd edilir.

4.10.Sınaq müddətində işlək mühərriklə boş dayanma müddəti AKT -ın 6 - cı bəndində

qeyd edilir.

4.11.Nəqliyyat vasitəsinin hərəkət etdiyi yol örtüyünün (bu metodikanın 2.10 yarım bəndi) tipi haqda məlumat AKT - ın 7 - ci bəndində qeyd edilir.

4.12.Nəqliyyat vasitəsinin yükgötürmə əmsalı (bu metodikanın 2.12 yarım bəndi) AKT - ın 9-cu bəndində qeyd edilir.

4.13.Avtomobillərin sınağı zamanı gedilən yol və ya traktor, xüsusi texnika və sairin mühərrikinin işləmə müddəti uyğun olaraq AKT- ın 10 və 11 - ci bəndində qeyd edilir.

4.14.İstehsalat prosesində işlədilməsi vacib olan və sınaq zamanı işlədilən əlavə avadanlıqların (bu metodikanın 2.11 yarım bəndi) tipi və adları haqda AKT - ın 12 -ci bəndində qeyd edilir.

4.15.Əlavə avadanlıqların işləmə müddəti haqda AKT-ın 13 – cü bəndində qeyd edilir.

4.16.Baza modelə əlavə konstruktiv və ağırlıq dəyişikliyi edilmişdirsə bu haqda AKT-ın 14 - cü bəndində qeyd edilir.

4.17.Sınaq zamanı istifadə edilmiş yanacağın növü və sərfi miqdarı haqda AKT - ın 15-ci bəndində qeyd edilir.

4.18.Sınağın başlama və qurtarma vaxtı haqda məlumat (yalnız mühərrikin işlək vəziyyətdə olduğu zaman müddəti) AKT - ın 16 -cı bəndində qeyd edilir.

4.19. Sürücünün və ya maşinistin nəqliyyat vasitəsini və ya xüsusi texnika, traktor və s. istismar üslubu (sürücülük üslubu) (bu metodikanın 2.14 yarım bəndi) AKT - ın 17 - ci bəndində qeyd edilir.

Nəticə: Təqdim etdiyimiz nəqliyyat yanacaq normasının sınaq üsulu ilə müəyyənləşdirilməsi metodikası bu sahədə fəaliyyət göstərən mühəndis-texniki işçilərin vahid prosedura əsasında işlərinin təşkilinə şərait yaradır. Metodika istehsalçı zavod, müxtəlif müəssisə, institutlar tərəfindən baza yanacaq normaları təqdim olunmamış və ya verilmiş baza normaları real istismar şəraitində özünü doğrultmayan avtomobil və traktorların nəqliyyatı yanacaq normalarının müəyyənləşdirilməsi məqsədi ilə yaradılmışdır.

Ədəbiyyat:

1. Stephen E. Plotkin (December 2007). "Examining Fuel Economy and Carbon Standards for Light Vehicles. Discussion Paper No. 2007-1" (PDF). OECD-ITF Joint Transport Research Centre. Retrieved 27 August 2012.

2. Japan Automobile Manufacturers Association (JAMA) (2009). "From 10•15 to JC08: Japan's new economy formula". News from JAMA. Retrieved 9 April2012. Issue No. 2, 2009.

3. "AUTO.RIA на выходные» 11.07.2014.№28 (75) https://auto.ria.com/news/journal/news75/?0.4462655095849186&utm_source=auto.ria&utm_medium=trafic_214874&utm_campaign=link_news

4. "Ümumi və xüsusi təyinatlı avtomobillər, traktorlar,digər maşın – mexanizm,avadanlıqları üçün yanacaq-sürtkü materialları sərfinin müvəqqəti normaları" Neftqazelmitədqiqatlayihə" İnistitutu,Bakı, 2013.

Abstract

METHODOLOGY OF DETERMINING THE TRANSPORT FUEL CONSUMPTION RATES OF CARS AND TRACTORS WITH CHRONOMETER METHOD

Ceyhun TALIBOV

Azerbaijan Technical University, Ph.D student

Azerbaijan University, teacher

Key words: Transport rate of fuel consumption, automobile, truck, chronometer

This article proposes the methodology determining the transport rate of fuel consumption of trucks and tractors with test (chronometer) method. The absence of unified methodology in this area creates a need developing the methodology of determining vehicle fuel consumption rates. At the same time, this technique may be relevant among the engineering - technical workers of the transport industry.

Резюме

МЕТОДИКА ОПРЕДЕЛЕНИЯ НОРМЫ РАСХОДА ТРАНСПОРТНОГО ТОПЛИВА В АВТОМОБИЛЯХ И ТРАКТОРАХ ИСПЫТАТЕЛЬНЫМ МЕТОДОМ

Джейхун ТАЛЫБОВ

Азербайджанский Технический Университет, докторант Университета "Азербайджан", преподаватель

Ключевые слова: Норма расхода транспортного топлива, автомобиль, хронометраж

В этом статье было предложено методика определения нормы расхода транспортного топлива автомобилей и тракторов испытательным (хронометражным) методом. Из-за отсутствия единой методологии в этой области создается необходимости разработки методики определения нормы расхода транспортного топлива. В тоже время из-за того что базовые нормы предложенные завод – изготовителями не оправдывает себя реальных эксплуатационных условиях, данная методика может быть актуальным среди инженерно – технических работников транспортной отрасли.

EKOLOJİ TƏHLÜKƏSİZLİYİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTİNDƏ GÖRÜLƏN TƏDBİRLƏR

Günel YUSİFOVA
Azərbaycan Universiteti, dissertant

Rəyçi: i.e.n., dos. E.Ə. Qəhrəmanov
Açar sözlər: ekoloji təhlükəsizlik, ekoloji böhran, ekoloji qiymətləndirmə, iqtisadi səmərəlilik,ekoloji siyasət, ISO 14001, ekoloji monitorinq

Giriş. Ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində müəssisə, təşkilat, dövlət səviyyəsində çox əhəmiyyətli işlər görülür. Bu sahədə beynəlxalq təşkilatlarla mühüm əməkdaşlıqlar aparılır.

İnsanın süni yaşayış mühitinə keçidi məskunlaşdığı mühitin təbiiliyinin məhvi ilə nəticələndi. Bəşəriyyətin inkişaf tarixi bütünlüklə insanın təbiət üzərində qələbəsi ilə bağlıdır, belə ki, ətraf mühitin bu və ya digər hissələrinin məhv edilməsi ilə müşayiət olunmuşdur [1]. Yalnız ekoloji təhlükəsizliklə bağlı kompleks tədbirlər həyata keçirməklə müasir ekoloji böhranla əlaqədar bəşəriyyətin başı üzərini alan təhlükənin qarşısını almaq mümkündür. Ekoloji təhlükəsizlik sosial, iqtisadi, demoqrafik məsələlərdən təcrid olunaraq yalnız ətraf mühitin qorunması fəaliyyəti ilə təmin edilə bilməz [2, 14].

Bütün zamanlarda bəşəriyyətin iqtisadi fəaliyyəti mövcud geosistem və ümumi ətraf mühit çərçivəsində baş vermişdir. Başlanğıc dövrlərdə insanların hər bir fəaliyyəti, o cümlədən də iqtisadi fəaliyyəti həm əlverişli, həm də əlverişsiz təbiət qüvvələrindən köklü şəkildə asılı idi.Tarixən insanın iqtisadi fəaliyyəti ekoloji böhrana bais olmuşdur. Qədim insanlar öz mövcudluğunun təbiət qüvvələrindən asılılığını hər zaman azaltmağa can atırdı. Bu asılılığın azaldılmasının əsas istiqaməti kənd təsərrüfatının, ardınca isə istehsalın inkişafı oldu. İqtisadi fəaliyyətin nəticəsində ksenobiotik, hətta toksiki halda tullantı və çirklənmələr toplanaraq təbiətə qayıdır. Trofik zəncir ilə həmin zərərli maddələr insana qayıdır, çox vaxt xəstəliklərin, ölümün sayını artırır. Demək olar ki, müasir dövrdə bəşəriyyətin sağ qalması üçün iqtisadi fəaliyyət bir tərəfdən yeganə üsuldursa, digər tərəfdən ziddiyyətli xüsusiyyət daşıyır və iqtisadi, ekoloji xassəyə malik əhəmiyyətli itkilərə gətirə bilər. Bir tərəfdən iqtisadi fəaliyyəti ekoloji qanunvericiliyə uyğun aparmağı, digər tərəfdən isə təbiət hadisələri, texnogen fəlakətlər, ekosistemin istismarı, məhvi, habelə təbii mühitin korlanması ilə bağlı itkiləri azaltmaqla iqtisadi fəaliyyəti optimallaşdırmağı öyrənmək zəruridir. İqtisadi zərərləri azaltmaq üçün ilk növbədə bu zərərlərin müxtəlif mənbələrini nəzərdən keçirmək vacibdir. Zərərlərin mənbəyini təhlükə olaraq adlandırırlar. "İnsan - texniki sistem -ətraf mühit" sistemi təhlükənin təhlil obyektidir [3, 8-11]. Təhlükəsizlik nəzəriyəsi elmin müasir istiqamətlərindəndir və təbii, texnogen xarakterli fövqəladə hallardan qorunmasının vəziyyətini araşdırır. Əsas istiqamətlərdən biri zərər və risk kimi anlayışların müəyyən edilməsinə əsaslanır. Hesab edilir ki, risk - bu və ya digər təhlükəli faktorun təsiri ilə vurulmuş ziyanın

dəyərini, araşdırılan təhlükəli faktorun başvermə ehtimalını, zərərin və ehtimalların miqdarındakı qeyri-müəyyənliyi özündə birləşdirən vektorial kəmiyyətlərlə ifadə olunan təhlükənin miqdarını ölçmək üçün ölçüdür. Bir sıra işlər insanların zərbə alması və fövqəladə hallar zamanı mümkün zərərin risk dərəcəsinin azaldılmasına yönələn tədbirlərin səmərəliliyinin qiymətləndirilməsinə əsaslanır [4, 30-51].

Ətraf mühitin mühafizəsində, ekolji təhlükəsizliyin təmin edilməsində düzgün ekoloji qiymətləndirmə çox vacibdir. Ekoloji qiymətləndirmə-nəzərdə tutulan fəaliyyətin ekoloji nəticəsinin sistemli təhlili və qiymətləndirilməsi prosesi, maraqlı tərəflərlə konsultasiya, həmçinin bu fəaliyyətin planlaşdırılması, layihəsinin hazırlanması, təsdiqi, həyata keçirilməsində təhlil və konsultasiyaların nəticəsinin hesabatıdır. Bu tərifə görə ekoloji qiymətləndirmə prosesinə aşağıdakı əsas komponentlər daxildir:

- nəzərdə tutulan fəaliyyətin ətraf mühitə potensial təsiri və əhəmiyyətinin qiymətləndirilməsinin təhlili (proqnozlaşdırılması);
- qarşılıqlı münasib həlləri tapmaq üçün maraqlı tərəflərlə məsləhətləşmələr.

Ekoloji qiymətləndirmənin predmeti yerinə yetirilməsi nəzərdə tutulan fəaliyyətin ətraf mühitə təsiridir. Ekoloji qiymətləndirmə ayrı-ayrı mühit və təsir mənbələri - birinci növbədə dolayı və kumulyativ təsirlər üçün təyin edilmiş standartlara görə qeyri-adekvat hesab edilən təsirləri aşkar etməyə imkan verir. Ekoloji qiymətləndirmə prosesi layihənin ilkin hazırlanma mərhələsində başlamalı və layihə ilə paralel aparılmalıdır. Bütün hallarda layihəni reallaşdırmadan əvvəl aparılmış ekoloji qiymətləndirmənin nəticəsi ekoloji ekspertizadan keçirilməlidir [5, 125 -128].

İqtisadiyyatda layihələrin arasından ən yaxşısını seçməyə "iqtisadi səmərəlik" anlayışı xidmət edir. Əlbəttə ki, ekoloji funksiyaların, təbiət obyektlərinin və sairin iqtisadi qiymətləndirilməsi çətin və bəzən mümkünsüz iş olur. İqtisadi səmərəliliyin təyin edilməsinin əsas mexanizmi layihə və proqramın reallaşmasına gərəkən xərc və mənfəətin pulla ifadəsinin müqayisə olunmasıdır [6, 33].

Təbiətin mühafizəsi, ekoloji təhlükəsizlik ölkənin bu sahədə qəbul etdiyi qanun və qərarlar, ekoloji siyasət, tətbiq olunan standartlarla tənzimlənir.

Ekoloji siyasət mövzusuna toxunarkən müəssisənin fəaliyyətində ətraf mühitin mühafizəsinə olan münasibətinin səviyyəsini əks edən ekoloji siyasətin əsas alətlərini qeyd etmək gərəkir. Bu alətlər müəssisə və təşkilatların ətraf mühitin mühafizəsi, resurslardan səmərəli istifadəsi, istehsal prosesi və onlar tərəfindən göstərilən xidmət, istehsal olunan məhsulun istehlakı zamanı ekoloji təhlükəsizliyə münasibətinin xarakterini əhəmiyyətli dərəcədə təyin edir. Beləliklə müəssisənin müasir iqtisadiyyatdakı rolu və yeri hesabına ekoloji siyasətin alətləri əsasən ekoloji problemlərin effektiv həllini, müasir istehsala xas olan ekoloji risklərin minimum həddə çatdırılmasını, hazırkı və gələcək nəsillər üçün təbii ətraf mühitin keyfiyyətini determinə edir [7, 188]. Eyni zamanda periodik olaraq təhlil olunmalı, dəyişilmiş şərtlərin və yeni məlumatların əks olunması məqsədi ilə ekoloji siyasətə yenidən baxılmalıdır. Buna görə təşkilatın rəhbərliyinin ən yüksək səviyyəsi, yəni müəssisənin fəaliyyətinə cavabdeh olan ayrı-ayrı şəxs və ya qruplar tərəfindən ekoloji siyasət işlənib hazırlanmalı, vaxtlı-vaxtında yenidən baxılmalıdır [8, 19].

Ümumi halda ekoloji-iqtisadi riskləri ətraf mühitin vəziyyətinin pisləşməsi nəticəsində müxtəlif səviyyəli ictimai müəssisələrin iqtisadi itki, zərərlərinin riski kimi təyin etmək olar. Bu pisləşmələr müxtəlif xarakterə malik ola bilər: nisbətən yavaş (təkamüllü) və sürətli (fəlakətli). Əhali və onun ayrı-ayrı fərdləri, müəssisə və təşkilatlar, territorial-ekoloji komplekslər (təbii) və müxtəlif səviyyəli territorial-istehsal sistemləri, region, ölkə və dünya birliyi bütövlükdə ekoloji-iqtisadi risklərə məruz qalır. Ətraf mühitin keyfiyyəti adətən onun fiziki- kimyəvi, bioloji və digər parametrlərinin normal vəziyyətini xarakterizə edən etalondan kənarlaşma dərəcəsi ilə qiymətləndirilir. Atmosferin çirklənməsinin qatılığının artması material resursların sürətli aşınması, fauna və floranın müxtəlif nümayəndələrinin məhvi, əhalinin sağlamlığının pisləşməsi və sair bu kimi hallarda özünü göstərərək cəmiyyətin zərərinə səbəb ola bilər [9, 13-14]. Qanunverici, inzibati, mühəndisi tədbirlər məcmusu ilə ifadə olunan risklərin idarə edilməsi üsulu hazırlanarsa son dərəcə güclü təhlükədən müdafiə sistemi qurmaq olar. Ona görə ekoloji təhlükəsizlik təbiətdən istifadə prossesi zamanı insanları mənfi təsirin minimum həddini təmin etməyə zəmanət verən tədbirlər sistemi ilə təmin edilir. Ekoloji təhlükəsizliyin əsas prinsipləri:

- insan, şəxsiyyətin prioriteti, genofondun qorunması və sonrakı nəsillərin həyat və sağlamlığına zəmanəti təmin etmək;
- davamlı inkişafı təmin etmək üçün cəmiyyətin sosial, iqtisadi və ekoloji maraqlarının harmoniyası;
- təbii ekosistemlərə texnogen təsirlərin minimalizasiyası, davamlılığının qorunması;
- hər hansı təsərrüfat və digər fəaliyyətinin potensial ekoloji təhlükəsinin fərziyyəsi;
- hüquqi, inzibati metodların ahəngi, ekoloji təhlükəsizliyin iqtisadi idarə edilməsinin alətləri;
- istehsalın optimal səviyyəsinin təmin edilməsi, təbii resursların bütün kompleksinin tükənməzliyi, səmərəli, tarazlaşdırılmış istifadəsi, onların qorunması [10, 68-69].

Torpaq və süxurların çirklənməsinin nəticələrinin ləğvi, neft tərkibli tullantıların emalı, utilizasiyası son dərəcə aktual problemdir, çünki ətraf mühitin ən geniş yayılmış və təhlükəli çirklənməsinə aiddir. Bu problem həm neft emalı və neft məhsullarını təmin edən texnoloji obyektlərin, həm də neft və neft məhsullarının tədavülündən asılı digər müəssisələrinin böyük əksəriyyətinə toxunur. Göstərilən çirklənmə və bununla bağlı problemlər hər bir ərazidə ekoloji böhranın baş verməsinin əsas səbəblərindən biri ola bilər, çox sayı ekoloji nəticələrin inkişafına təhrik edə bilər.

Son zamanlar dünyanın hər yerində müəssisələr ekoloji təhlükəsizliyin təmin edilməsi üçün öz fəaliyyətində ekoloji siyasətin, beynəlxalq standartların tətbiqinə önəm verirlər. Ekoloji təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərin təkminləşdirilməsi yolunda davamlı işlər aparılır. Beynəlxalq Standartlaşdırma Təşkilatı – ISO (International Organization for Standardization) tərəfindən 1996-cı ildə yaradılan ISO 14001 "Ekologiya İdarəetmə Sistemi" standartının məqsədi müəssisələrdə ekoloji idarəetmə sisteminin səmərəliliyini təmin etməklə ekoloji təhlükəsizliyə zəmanət verməkdir.

Ekoloji təhlükəsizliyi təmin etmək, ekoloji çirklənmənin qarşısını almaq üçün fasiləsiz

olaraq ekoloji monitorinqlər aparılır. Hal-hazırda "ekoloji monitorinq" termini dedikdə ətraf təbii mühitin vəziyyətinin müşahidə, nəzarət, qiymətləndirilmə sistemi, proqnozu və idarəedici məsələlərin həllinin hazırlığı və qəbulun informasiya təminatı başa düşülür. Ekoloji monitorinqin məqsədi – təbiəti mühafizə fəaliyyətinin idarə edilməsinin və ekoloji təhlükəsizliyin informasiya təminatının təmin edilməsidir. Ekoloji monitorinqi müşahidə obyektlərinə görə geofiziki və bioloji monitorinqə bölmək olar. Ekoloji monitorinqin müəssisə xidməti ətraf mühitin çirklənməsinin bütün əsas parametrlərini nəzarət etmək üçün lazım olan bütün texniki vasitələrin tam komplektinə malik olmalıdır. Adətən havanın, suyun, torpağın çirkləndiricilərinin tərkibi kifayət qədər dəqiqliklə proqnoz edilir (azot oksidlər, karbohidrogenlər və s.), ona görə də ekoloji nəzarət məsələsi məlum çirkləndiricilərin konsentrasiyalarının miqdarca təyin edilməsindən ibarət olur. Bunun üçün ekoloji nəzarətin müəssisə xidmətlərini havanın, suyun, torpağın keyfiyyətinin analizi məqsədi ilə kompleks səyyar laboratoriyalarla təchiz etmək kifayətdir. Ekoloji xidmətin təşkili, onun texniki təchizatı hər hansı bir müəyyən ərazinin, onun üzərindəki texnogenez mənbələrinin nəzarətindən əvvəl mümkün çirklənmələrin tədqiqi və proqnoz edilməsindən ötrü elmi-tədqiqat işləri tərkibinin analizi və konsentrasiyasını təyin edən texniki vasitələrlə komplektləşdirilməsi üçün əsas sayılır [11, 5-7]. Ekoloji monitorinq – ətraf mühitin mühafizəsi qanunun müvafiq maddəsinə uyğun olaraq, ətraf mühitdə baş verən fiziki, kimyəvi, bioloji prosesləri, atmosfer havasının, torpağın və su obyektlərinin çirklənməsini, onun bitki və heyvanat aləminə, insan sağlamlığına təsirinin nəticələrini müşahidə etməkdən, habelə, əlaqədar təşkilatlara və əhaliyə təbii ətraf mühitdə baş verən dəyişikliklər haqqında məlumat və proqnoz verməkdən ibarətdir.

Ekoloji monitorinqin aparılması idarə və müəssisələrin fəaliyyəti nəticəsində ətraf mühitə mənfi təsir edən amillərin müəyyən edilməsindən başlayır. Bunun üçün monitorinq aparılan müəssisələrdə aşağıda göstərilən məlumatları toplamaq lazımdır:

- müəssisənin fəaliyyəti haqqında;
- əsas istehsal sahələri və texnoloji proseslər haqqında;
- istehsal olunan məhsulun həcmi və növü;
- ərazidə ətraf mühitə zərərli təsir göstərən maddələrin və ya tullantıların həcminin azaldılması istifadə olunan qurğu və avadanlıqlar;
- istehsal prosesində əmələ gələn ümumi tullantılar və onların idarə olunması;
- qanunvericiliyə uyğun ekoloji normativ sənədlər toplusu;
- texniki tapşırıqlar və monitorinq layihələrindən asılı olaraq digər məlumatlar.

ARDNŞ-ın müəssisələrinin fəaliyyət zonaları Xəzər dənizi hövzəsi və quru əraziləri olduğu üçün ekoloji monitorinq işləri də əsas etibarilə iki sahədə - su hövzələrində və quruda aparılır [12, 196-197].

İstehsalatın bütün sferalarında TS EN ISO 9001 "Keyfiyyət İdarəetmə Sistemi", TS EN ISO 14001 "Ekologiya İdarəetmə Sistemi" və TS 18001 OHSAS "Əməyin mühafizəsi və təhlükəsizliyi" beynəlxalq standartlarının tətbiqi, düzgün tərtib edilmiş ekoloji siyasət, iqtisadi səmərilliyin təmin edilməsi üçün aparılan ekoloji qiymətləndirmə, ekoloji çirklənmənin qarşısını almaq məqsədi ilə daima həyata keçirilən ekoloji monitorinq, təsərrüfat fəaliyyətinin

ekoloji auditi kimi tədbirlərin məcmusunu icra etməklə böyük fəlakətlərin, ekoloji böhranların qarşısını almaq, ekoloji təhlükəsizliyi təmin etmək mümkündür.

Ədəbiyyat:

1. http://www.aup.ru/books/m151/

Орлов А.И. Менеджмент. Учебник. М.: Издательство "Изумруд", 2003. - 298 с.

2. Боков В.А., Лущик А.В. Основы экологической безопасности: Учебное пособие Симферополь: СОНАТ, 1998. — 224 с, ил.

3. Л.Н. Карлин, В.М. Абрамов Управление энвиронментальными и экологическими рисками. - СПб.: РГГМУ, 2006 - 332 с.

4. Бурков В.Н., Щепкин А.В. Экологическая безопасность. М.: ИПУ РАН, 2003. – 92 с.

5. Масленникова И.С., Кузнецов Л.М., Пшенин В.Н. Экологический менеджмент:Учебное пособие/ Санкт-Петербург, —2005, —200с,

6. Бобылев С.Н., Грицевич И.Г. Глобальное изменение климата и экономическое развитие. Учебное пособие для курса экономики природопользования высших специальных учебных заведений. М.: ЮНЕП, WWF(Россия. 2005. 64 с.

7. Н.В.Пахомова ,А.Эндрес, К.Рихтер. Экологический менеджмент . СПб.: Питер, 2003. – 544с.

8. Коныk О.А. Экологический менеджмент и экологическое аудирование. Учебное пособие. – Сыктывкар: СЛИ, 2013. – 107с

9. Тихомиров Н.П. Методы анализа и управления эколого-экономическими рисками. Учебное пособие. М.: ЮНИТИ-ДАНА, 2003. - 350 с.

10. Черняховский Э.Р. Управление экологической безопасность. Учебно-практическое пособие. — М.: Издательство ≪Альфа-Пресс≫, 2007. - 248 с.

11. Ş.Ə.Əhmədov, Ş.İ.Məmmədova. Ekoloji monitorinq. Ali məktəblər üçün dərs vəsaiti.Bakı, 2012, 120 s.

12.A.B.Mirzəyev, F.B.Şıxəliyev. Abşeron yarımadası və Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən neft-mədən ərazilərinin ekolji problemləri və onların aradan qaldırılması yolları. Bakı, “Elm”, 2012-368s

Abstract

ACTIVITIES UNDERTAKEN FOR IMPROVEMENT OF ENVIRONMENTAL SAFETY

Gunel YUSIFOVA

Ph.D. student of Azerbaijan University

Key words: environmental safety, ecological crisis, environmental assessment, economic efficiency, environmental policy, ISO 14001, Environmental monitoring

The article addresses issues on the prevention of one of the global problems of the world - environmental problems, its protection, and activities taken to ensure environmental safety.

The goals and objectives of environmental policy, environmental assessment, environmental monitoring, as well as regulations and international standards on environmental safety are discussed in the article. Applying these regulations and standards makes it possible to ensure environmental safety and prevent environmental losses as well as possible large damages.

Резюме

МЕРЫ ПРЕДПРИНИМАЕМЫЕ ДЛЯ ПОВЫШЕНИЯ ЭКОЛОГИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Гюнель ЮСИФОВА

Университет "Азербайджан", диссертант

Ключевые слова: экологическая безопасность, экологический кризис, экологическая оценка, экономическая эффективность, экологическая политика, ISO 14001, экологический мониторинг

Данная статья об одной из глобальных мировых проблем - о работе по предотвращению экологической проблемы, охране окружающей среды. Экологическая политика, экологическая оценка, цели и задачи экологического мониторинга, принятые законы об обеспечении экологической безопасности, создание и внедрение международных стандартов – все эти важные вопросы нашли свое отражение в этой статье. Исполняя все эти меры мы обеспечим экологическую безопасность, застрахуемся от экономических убытков, убережем человечество от экологической катастрофы.

TİKİNTİ ŞİRKƏTLƏRİNDƏ İNNOVASİYA POTENSİALINI QİYMƏTLƏNDİRƏN METODİK YANAŞMALAR

Kəmalə MƏMMƏDOVA
AZMİU-nun baş müəllimi

Rəyçi: iqtisad üzrə fəlsəfə doktoru, Xosrov Kərimov
Açar sözlər: tikinti, strateji menecment, iqtisadiyyat, dövlət, sektor, bazar iqtisadiyyatı, inkişaf

Giriş. Tikinti şirkətlərinin potensialının istifadəsi əsasında inkişaf strategiyasının formalaşması və reallaşması, yalnız yeniliyin artırılması şəraitində mümkündür. Müasir bazar iqtisadiyyatı şəraitində məhz bu xüsusiyyət, yeni məhsulun, texnoloji, təşkilati və idarəetmə proseslərinin yaradılması və ya mövcud olanların təkmilləşdirilməsi müəssisənin rəqabətədavamlılığını formalaşdıran bir amil kimi ortaya çıxır. Buna görə də, bu gün yeniliyin qiymətləndirilməsi, tikinti şirkətlərinin fəaliyyətinin təhlilində menecmentin əsas alətidir. Fəal tikinti şirkətləri yeni məhsul və texnalogiyalar şəklində (məhsul və proses ilə əlaqədar yeniliklər) öz şəxsi məhsul və texnoloji yenilikləri ilə tanınan, onların geniş yayılmasını təşkil edən, uğurlu kommersiya nəticəsi əldə edən, nəhayət onları həyata keçirən müəssisələrdir. Fəal tikinti şirkətləri patent və ya lisenziya alınması yolu ilə əldə olunan yeniliyi tətbiq edən şirkətlərdir. Yenilik, yanlız ixtiralar, texniki qərarlar vasitəsi ilə deyil, həmçinin sosial dəyişikliklər ilə müəyyənləşir. Buraya qeyri-mühəndislik ilə məşğul olan, heyət ilə mütərəqqi iş sistemində çalışan, bazara yeni texnalogiyaya əsaslanan mal çıxaran və başqa bu kimi fəaliyyətləri həyata keçirən müəssisələri də aid etmək olar.

Sosial-iqtisadi sahədə olan yeniliklər öz səmərəliliyinə görə, texnoloji yeniliklərlə ölçülə bilər. Bu, tikinti şirkətlərinin daxilindəki proseslərin (sosial və idarəetmə yenilikləri) və ya son istehlakçılara istiqamətlənən istehsal məhsulunun (məhsul və proses ilə əlaqədar yeniliklər) təkmilləşməsinə yönəldilə bilər. Bu fəallığın qiymətləndirilməsi probleminə yönələn mövcud yanaşmaların təhlili belə bir nəticəyə gətirir ki, araşdırılan xarakteristika çoxcəhətlidir. Bunun üçün problemin bütün tərəflərini əhatə edən göstəricinin inteqral modelləşdirilməsi zəruridir [1, 55].

Tikinti şirkətlərində yenilik fəallığının qiymətləndirilməsi, onun intellektuallıq, innovasiyalılıq və innovativlik ilə səciyyələnən üç meyarının ölçülməsi yolu ilə həyata keçirilir. Yenilik fəallığının etalon əhəmiyyətini hesab yolu ilə əsaslandırmaq olar. Bu fəallığın bütün meyarları yüksək həddə çatanda, yenilik fəallığının mümkün maksimal əhəmiyyətinin yekunu 1-dir. Hər bir müəssisənin çatması məqsədəuyğun olan yenilik fəallığının etalonu da 1-dir. Etalon və faktik əhəmiyyəti müqayisə edərək, müəssisənin yenilik fəaliyyətinin intensivlik səviyyəsinin dəyişkənlik dinamikasını qiymətləndirmək və izləmək mümkündür [2, 88].

Bu gün tikinti komplekslərinə yatırılan sərmayələrin əsas hədəfi TŞSİ-nin təmin olunmasına və inkişafına, həmçinin əhalinin sosial-iqtisadi tələbatlarının ödənilməsinə

yönəlmişdir. Dövlətlər bu sahədə olan rəqabəti nəzərə alaraq, tikinti komplekslərinin rəqabətədavamlılığını təmin etmək üçün, istehsalın texnoloji strukturunda müəyyən dəyişikliklər edərək bazar tələblərinə uyğunlaşdırmağa, investisiyaları artıraraq tikinti sahəsində və onun idarə olunmasında yeniliklərin tətbiq olunmasına səy göstərirlər. Bu özünü adətən dövlətin xüsusi sosial-iqtisadi siyasət proqramlarında büruzə verir. Lakin, tikinti şirkətlərinin istehlakçılarla olan münasibətləri əsas iqtisadi nəticələrin əldə olunmasına və qarşıya qoyulan funksional vəzifələrin yerinə yetirilməsinə şərait yaradır. Biznes prosesləri məsrəflərə, alıcılar gəlirlərə səbəb olduğu üçün, onlar arasında əlaqəni tikinti şirkəti səviyyəsində deyil, istehlakçı səviyyəsində anlamaq daha düzgün olardı. Alıcı əsas gəlir mənbəyi olduğu üçün, əsas iqtisadi təhlil obyekti olmalıdır.

TŞSİ-nin yenilik fəaliyyətini, müxtəlif investisiya layihələrinin səmərəliliyinin təhlilini, zəruri investisiyaların cəlb olunmasını və onların daimi rəqabət mübarizəsi şəraitində rasional bölüşdürülməsini tənzimləmək üçün, tikinti şirkətlərinin yenilik-investisiya proseslərinin idarəedilməsinin təşkilati-iqtisadi mexanizminin formalaşması tələb olunur. Bu özünü yenilik-investisiya prosesləri və onlara qoyulan investisiya qoyuluşuna cavab verən maliyyə menecmenti blokunda bölmələrin ayrılması və bu sahədə təşkilati strukturun formalaşması yolu ilə yenilik və investisiya potensialının idarə olunmasında büruzə verir. TŞSİ-nin təşkilati-iqtisadi mexanizminin formalaşması, yenilik-investisiya fəaliyyətinin səmərəli, ardıcıl, rasional, nizamlı olmasına, həmçinin TŞ-nin rəqabətədavamlılığının artırılmasına imkan verir.

Sİ-də uğur əldə etmək üçün şirkətin strategiyasının həyata keçməsinin təməl daxili və xarici şərtlərini, həmçinin şirkətin imkan və resurslara malik olmasını təmin edən uğurun böhran amilləri və bazis imkanlarının əhəmiyyətini vurğulayan P. Censter və D. Hassi şirkətin uğurunu standart tələblərə, makromühitə, sahələrin səciyyələndirilməsinə, təhcizatçı, rəqabətçi və istehlakçıların mövqeyinə, resurs imkanlarına, şirkətin rəqabət mövqeyini müəyyənləşdirən xüsusiyyətlərə, böyük aksionerlərin və əsas idarəedici heyətin fərdi dəyərlərinə bağlayırlar [3, 88].

TŞSİ-nin əsas məqsədlərindən biri istehsal olunan məhsulun reallaşması üçün yeni bazarlara çıxış yolunu əldə etmək və bu bazarların tələblərinə uyğun məhsulun ortaya qoyulmasını təmin etməkdir. Hər hansı bir TŞ beynəlxalq tenderlərdə qələbə qazanmaq üçün cəhd göstərir. Tikinti xidmətlərinin zəif olduğu ənənəvi bazarlarda buna nail olmaq olar. Lakin, kifayət qədər kapital, maddi-texniki baza, kadr potensialı və innovativ Sİ prinsiplərinə yiyələnmədən bu sahədə uzunmüddətli uğur qazanmaq mümkün deyildir. Çünki bir tərəfdən bazarın zəifliyi zəif rəqabətə görə müxtəlif TŞ-nin bazarda yer tutmasına şərait yaradırsa, digər tərəfdən bazarda məhsul qıtlığı, alıcılıq qabiliyyətinin, tələbin aşağı olması TŞ-nin inkişafına mane olur. Buna görə də TŞSİ-nin əsas məqsədi güclü rəqabətin hökm sürdüyü bazarlarda yer tutmaq və onun tələblərinə uyğunlaşmaqdır. Bunun da əsas şərtlərindən biri qeyd etdiyimiz kimi, yüksək keyfiyyətli məhsul və məqbul qiymətlərdir. Bunların tənzimlənməsi isə, TŞSİ-də innovasiyalara və onun resurslarına bağlıdır. Bütün araşdırmalar göstərir ki, TŞ-nin qarşısında böyük risq və qeyri-müəyyənliklər mövcuddur. Bu isə, TŞSİ-nin for-

malaşmasında planlaşdırma və ya proqnozlaşdırma metodlarının əhəmiyyətini bir daha vurğulayır.

TŞSİ-nin inkişafının təməlində dayanan əsas məsələ tikintidə yenilik potensialını qiymətləndirən metodik yanaşmalardır. Bu yanaşmaları nəzərə alaraq, qərarların bir hissəsində kadr, istehsal, struktur potensialının təhlili və reytinq qiymətləndirilməsi həyata keçirilir. Sİ-nin metodoloji inkişafı bir çox mərhələdən keçmişdir [4, 42]:

1. İcraya nəzarət əsasında idarəetmə - hadisənin baş verməsindən sonra şirkətin dəyişikliyə münasibəti;
2. Ekstrapolyasiya əsasında idarəetmə - dəyişikliklərin ardıcıllığı sürətləndikcə əvvəlki tendensiyaların ekstrapolyasiyası yolu ilə (uzunmüddətli planlaşdırma) gələcəyin proqnozlaşdırılması;
3. Dəyişikliyi öncədəngörmə əsasında idarəetmə - gözlənilməz hallarda və dəyişikliklərin ardıcıllığı sürətlənəndə, müvafiq strategiyanın (strateji planlaşdırmanın) hazırlanması yoluyla gələcək tendensiyaları nəzərdən keçirmək və onlara münasibət bildirmək;
4. Öncədəngörmə və təşəbbüskarlıq əsasında idarəetmə - Təhlil, planlaşdırma və strategiyanın reallaşması mexanizmlərindən ibarət olan strateji planlaşdırmanın gələcək məntiqi inkişafının şirkətin strateji imkanlarının idarəedilməsi (mütəmadi Sİ) ilə bağlılığı;
5. Təcili qərarların əsasında idarəetmə - sürətlə yaranan mühüm çoxsaylı məsələlərin vaxtında nəzərdən keçirilməsi mümkün olmadığı bir şəraitdə ortaya çıxan "real zaman çərçivəsində Sİ" metodu [5, 49].

TŞ-də yenilik potensialını tənzimləmək üçün, mal və xidmət sahəsində bazarın tələblərini təmin etmək, müəyyənləşdirmək və formalaşdırmaqla bağlı TŞ-nin imkanlarına nəzər yetirmək vacibdir. TŞ-nin yenilik potensialı kəmiyyət baxımından ölçülə bilən, yəni mövcud şəraitdə real əldə olunan səviyyəni faktiki şəkildə əks etdirmək imkanına malikdir və onu əks etdirməlidir. Onu qiymətləndirmə metodikası potensialın səviyyəsini səciyyələndirir və TŞ-nin rəhbərliyinə mövcud durumu təhlil etməyə, artım ehtiyatlarının ortaya çıxarılmasına və inkişafında üstün istiqamətləri seçməyə yardım edir.

TŞSİ-də əsas məsələlərdən biri proqnozlaşdırma (planlaşdırma) metodlarıdır. D. Şim, D. Siqel bu metodları aşağıdakı kimi sistemləşdirmişdir [6, 122]:

1. Kəmiyyət (statistik) yanaşması – reqressiv təhlil (sadə, cəm və ekonometrik) və müvəqqəti sıralar (müvəqqəti sıraların təhlili, sürüşən orta metodu, trendlərin təhlili, klassik dekompozisiya);
2. Keyfiyyət (ekspert) yanaşması – ekspert sorğusu, ticarət agentlərinin rəyi, alıcıların rəyi və Delfi metodu;
3. Dolayı yanaşma – statistik göstəricilər metodu, "giriş-çıxış" təhlili, bazarlara baxış;
4. Markov (bazarın gedişatı) analizi;

Bu metodlar araşdırılıb tətbiq olunmadan TŞSİ mümkün deyildir. Proqnozlaşdırma (planlaşdırma) metodlarının tətbiqi üçün TŞ-nin biznes planı, illik planı, investisiya layihələri işlənib hazırlanmalı, bazarda rəqabət, biznesin qiymətləndirilməsi, TŞ-nin resurs imkanları

müəyyənləşdirilib həll olunmalıdır. Bu məsələlərin həllində mövcud metodlardan yararlanmaq olar. Lakin, bu metodların da öz mənfi və müsbət cəhətləri vardır. TŞ-nin menecerləri mövcud durumu dəyərləndirərək, ondan ən optimal çıxış yolunu tapmaq üçün müxtəlif metodlardan istifadə edə bilər. Çünki onların yararlılığı, mövcud durum və zamana görə dəyişir.

Bunun nəticəsi olaraq bazarda TŞ arasında tikinti sahəsində fərqli rəqabət strategiyaları meydana çıxır. Bazarda böyük pay əldə edən və ya liderlik etməyə yönələn TŞ-nin tətbiq etdikləri güclü (violent) strategiya, onlara əsas vasitələrin mütəşəkkilliyinə və növbəli iş rejiminə əsaslanaraq müxtəlif ərazilərdə eynitipli yaşayış obyektlərinin tikilməsinə şərait yaradır. Yalnız diversifikasiya və innovasiyaya əsaslanan eksplerent strategiya isə, istehlakçıların konservativliyi və tələbinin aşağı olmasıyla əlaqədar olaraq geniş tətbiq olunmaq imkanları məhduddur. Bazarın konkret seqmentinə əsaslanan strategiya isə, bazarın dolması ilə əlaqədar olaraq tikinti-inşaat işlərinin aparılmasının cəlbediciliyini azaldır. Mal differensiasiyası və tələbə ani reaksiyaya yönələn (kommutant) strategiya isə, müxtəlif hazırlıq səviyyəsi ilə obyektlərin təklifi hesabına gəlir əldə etmək imkanlarını təmin edir. Kəmiyyət metodları ətraf mühit sistem dəyişikliyinə məruz qalmasa, dəqiq nəticələr əldə etməyə şərait yaradır. Əks təqdirdə, kəmiyyət metodları əhəmiyyətini itirərək keyfiyyət metodları ilə əvəz olunur. Bütün bunlar proqnozlaşdırmanın nə qədər mürəkkəb bir proses olduğunu və menecerlərdən nə qədər böyük təcrübə və bilik tələb etdiyini göstərir. Çünki menecerlər TŞ-nin biznes planını hazırlamaq üçün, proqnozlaşdırmanın əsas göstəricilərini (gəlir, tikintidə əsas ehtiyat növlərinə edilən xərclər, natural və pul vahidi ilə tikinti işlərinin həcmi və s.) müəyyənləşdirməlidirlər. Bütün bunların vahid bir sistemdə sintez etmək mümkün deyildir. Çünki mövcud sistemlərin hər biri durumuna və mövqeyinə görə bazarda daima dəyişməkdədir. Bu dinamikanı yalnız elmi biliklərlə əhatə etmək mümkün olmadığı üçün, əsasən iş təcrübəsinə əsaslanan intuitiv metodlar da öz əhəmiyyətini artırmaqdadır. İntuitiv metodlar nə statistik təhlilə, nə də səbəb-nəticə əlaqələrinə əsaslanmır. Ancaq strategiyanın səmərəliliyinin ölçülməsinin ideal sistemi mövcud deyildir [2, 144].

U. Ekkersonun təklif etdiyi indikator metodu proseslərin və insan resurslarının yüksək səviyyədə idarə olunmasına, təhlil nəticəsində və əldə olunan aktual məlumatlar vasitəsilə problemin ilk səbəbinin müəyyənləşdirilməsinə, zəruri biznes prosesləri və fəaliyyət formalarını nəzarətdə saxlamağa imkan verir [4, 66]. İndikator metodu əsasında yenilik potensialının qiymətləndirilməsi, üstün cəhətlərə malikdir. Çünki indikatorun hazırlanmış sistemi, TŞ-nin fəaliyyətinin əsas texniki, təşkilati, iqtisadi və sosial xüsusiyyətlərini bir araya gətirir. Təhlil metodu əsasında yenilik potensialının qiymətləndirmə indikatorları potensialın bütün əsas aspektlərini əhatə edən yeddi qrupda birləşirlər. Ekspert qrupunun müəyyənləşdirilməsindən sonra, onların hər biri Harrinqtonun şkalasına uyğun olaraq, indikatorların qiymətlənmə əhəmiyyətini müəyyənləşdirir. Bu metod biznes-təhlil portal, interaktiv hesabat, vizuallığın yeni metodları, onlayn analitik layihə, ssenarilərin modelləşdirilməsi kimi məsələlərin nəticələrinin təhlilində və standart hesabat, müvəqqəti sıraların təhlili, tənzim-

lənmiş göstəricilər sistemi ilə bağlı strateji məqsədə çatmaq üçün mühüm rol oynayır. Tənzimlənmiş göstəricilər sistemi maliyyə (layihənin və kapitalın rentabelliyi, maliyyə və digər gəlirlər, sifarişlər portfeli), müştəriləri razı salmaq (birinci dərəcəli müştərilərin bazar payı, ikinci dərəcəli müştərilər üçün qiymətlər indeksi, müştərilərin məmnunluğu indeksi), daxili proseslərin (zay məhsulların həcm göstəricisi, layihənin gəlir indeksi, udulan tenderlərin faiz göstəricisi, layihənin davamlı həyata keçirmə müddəti, yeni layihənin müştərilərlə müzakirəsinə sərf olunan vaxt), yenilənmə və öyrənmə (bir işçiyə nəzərdə tutulan gəlir, yeni xidmətlərdən gələn gəlirlərdən əldə edilən faiz, işçilər tərəfindən TŞ-nin fəaliyyətinin təkmilləşməsi istiqamətində verilən təkliflər, təkmilləşmə mərhələləri) kimi göstəricilərdən ibarətdir.

TŞSİ-nin formalaşması metodlarından biri də yeni marketinq metodudur. Bu işlənmiş strategiya əsasında bütün funksional bölmələri idarə edərək, birləşdirən idarəetmə alətidir. Tikinti sahəsində yeniliklərin kommersiyalaşmasının maliyyə planının işlənməsi, işlənmiş planın tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi, istehlakçıların tələblərini müəyyənləşdirmək və yeni məhsula üstünlük vermək, bazarın kompleks araşdırılması, ortaya çıxan iqtisadi durumun təhlili, yeni məhsulun istehlak xassəsinin planlaşdırılması və proqnozu, TŞ-nin istehsal və maliyyə imkanları baxımından yeniliklərinin qiymətləndirilməsi, keçirilən tədbirlərin səmərəliliyinin təhlili, zəruri hallarda marketinq planının dəqiqləşdirilməsi və məhdudiyyətlərin üzə çıxarılması kimi funksiyalar TŞSİ-nin formalaşmasında mühüm rol oynayan marketinq yeniliyi funksiyalarına aiddir.

TŞSİ-də yeni marketinq strategiyasının formalaşması prosesində yeni məhsulun rolunu üzə çıxarmaq üçün, TŞ-nin missiya və məqsədlərini formalaşdırmaq zəruridir. Bunun tətbiqi üçün zəruri olan yeni tikinti məhsulunun və TŞ-nin potensialının perspektiv strateji marketinq təhlili aparılmalıdır. İnformasiya təhlili əsasında, mövcud istehsalı saxlamaq və ya rəqabət aparmaq iqtidarında olan yeni tikinti məhsulunun sahələrinin müəyyənləşdirilməsi məqsədi ilə yeni məhsulun irəliləməsinin strateji alternativləri ayrılır və qiymətləndirilir. Marketinq strategiyasının reallaşmasının audit və nəzarəti, ilk növbədə TŞ-nin kooperativ səviyyəsinə aid olan son mərhələdə gerçəkləşir. Marketinq strategiyası, adətən marketinq-mikst ilə, özəlliklə, strategiyanın məhsul, qiymətləndirmə, bazara irəliləmə və yerləşmə sahələriylə bağlı müxtəlif növləri ilə müəyyənləşir.

Müasir iqtisadi şəraitdə müasir internet - marketinq texnalogiyalarının yardımı ilə tikinti xidmət və mallarının səmərəli irəliləməsində kompleks tədbirlər böyük əhəmiyyət kəsb edir. TŞ-nin inkişafında böyük uğur əldə edilməsi üçün, ənənəvi marketinq və internet – marketinqin qarşılıqlı əlaqə şəraitində istifadəsi nəzərə alınmalıdır.

Nəticə. Beləliklə TŞSİ-də axtarış metodu və yeni ideyaların hazırlanması ilə səciyyələnən lateral marketinq böyük rol oynayır. Lateral marketinq şaquli (marketinqin) əksinə olaraq, məlum tikinti bazarının bir hissəsini zəbt etməyə deyil, yeni istehlakçı və bazarların yaradılmasına istiqamətlənmişdir. «Lateral marketinq» termini, yeni məhsulların marketinqi və hazırlanmasında tətbiq olunan yeni ideyaların irəli sürülməsinə müəyyən yanaşmanı sə-

ciyyələndirir. TŞ-nin inkişaf prosesinin uğurlu inkişafı, müəyyən nominal şəraitə bağlıdır. Bu prosesin müəyyən mərhələlərinin reallaşmasına hazırlıq səviyyəsi, TŞSİ-nin müəyyənləşdirdiyi maddi, əmək, maliyyə və digər resursların varlığından və keyfiyyətindən çox asılıdır. Çünki bu sahədə inkişaf, TŞ-nin yenilik potensialının istifadəsi və inkişafı vasitəsi ilə yeni məhsulların, malların, texnalogiyaların, təşkilati-idarəetmə yeniliklərinin hazırlanması və satışını şərtləndirir. TŞSİ-də yenilik potensialının formalaşması, yeni layihə (onun diaqnostikası, hazırlanması, planlaşdırılması, nəzarəti və qiymətləndirilməsi) ilə bağlı bütün idarəetmə proseslərini ardıcıl, bəzən paralel yerinə yetirilməsini nəzərdə tutur.

Ədəbiyyat:

1. Виханский О.С. Стратегическое управление: учебник - 2-е издание, перераб. и допол. - М.: Экономистъ -2005 - 296 стр

2. Дженстер П., Хасси Д. Анализ сильных и слабых сторон компании. – Москва. Вильямс, 2003. 368 с

3. Задумкин К.А. Стратегическое управление строительным предприятием. Вологда ВНКЦ ЦЕМИ РАН, 2004, 207 с.

4. Лапыгин Ю.Н. Стратегическое развитие организации: учебное пособие / Ю.Н.Лапыгин; Д.Ю. Лапыгин, Т.А. Лагина, под ред. Ю.Н.Лапыгина -М.: КНОРУС, 2005 -288 стр

5. Управление организацией: учебник – под ред. А.Г. Поршнева, З. П. Румянцевой, Н.А. Саломатина. 2-е изд. Москва ИНФРА-М 2000.

6. Аркатов А. Я. Стратегическое управление на предприятии промышленности строительных материалов: учебное пособие / А.Я. Аркатов, С.Н. Глаголев - Белгород: Издательство БГТУ, 2010 -159 стр.

Abstract

THE METHODICAL APPROACH TO THE ASSESSMENT OF THE INNOVATIVE CAPACITY OF CONSTRUCTION COMPANIES

Kamala MAMMADOVA

Senior lecturer, Azerbaijan State University of Architecture and Construction

Keywords: construction, strategic management, economics, government, industry, market economy, development

The construction companies, using a methodical approach, carried out assessment of the innovation potential. This complex analyze of human, production, marketing potential held their rating evaluation. The application of these techniques contributes to more efficient management of human resources. Current information obtained through the analysis identifies the root cause of the problem and allows you to keep control of business processes and forms of organization.

Резюме

МЕТОДИЧЕСКИЙ ПОДХОД К ОЦЕНКЕ ИННОВАЦИОННОГО ПОТЕНЦИАЛА СТРОИТЕЛЬНЫХ КОМПАНИЙ

Кямаля МАМЕДОВА

ст. преподаватель АзАСУ

Ключевые слова: строительство, стратегический менеджмент, экономика, государство, сектор, рыночная экономика, развитие

В строительных компаниях, используя методический подход, проводится оценка инновационного потенциала. При этом комплексно анализируется человеческий, производственный, маркетинговый потенциал, проводится их рейтинговая оценка. Применение этих методов, способствует более эффективному управлению человеческими ресурсами. Текущая информация, полученная путем анализа выявляет первопричины проблемы и позволяет держать под контролем бизнес-процессы и формы деятельности организации.

MÜƏSSİSƏLƏRİN MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABATI VƏ MƏNFƏƏTİN FORMALAŞMASI

Taleh MƏMMƏDOV
Azərbaycan Universiteti, dissertant

Rəyçi: i.e.n., dos Fəridə Əmirova
Açar sözlər: mənfəət və zərər haqqında hesabat, satılan məhsulun maya dəyəri, hesablama metodu, dolayı xərclər, dividend

Giriş.Təşkilati hüquqi formasından asılı olmayaraq hər bir müəssisənin fəaliyyətinin əsas məqsədi mənfəət əldə etməkdir. Bu baxımdan maliyyə hesabatlarının tərkib hissəsi olan mənfəət və zərər haqqında hesabat, onun strukturu və formalaşması, həmçinin mənfəətin formalaşması, bölüşdürülməsi və təhlili məqalənin əsas tədqiqat obyektidir. Məqalədə toxunduğumuz problemlərlə bağlı istehsal müəssisənin timsalında praktiki nümunələr verilmiş, mənfəət və zərər haqqında hesabatın tərkibi və mənfəətin formalaşması nümunələr əsasında daha ətraflı izah edilmiş və tövsiyə xarakterli fikirlər qeyd edilmişdir.

Hər bir şirkətin fəaliyyətinin nəticələri onun maliyyə hesabatlarında öz əksini tapır. Şirkətdaxili və xarici çoxsaylı qrupların, menecerlərin, səhmdarların, təsisçilərin, dövlətin, təchizatçıların, müştərilərin, işçilərin şirkət haqqında maliyyə informasiya ehtiyaclarının təmin edilməsində maliyyə hesabatları əsas mənbə rolunu oynayır. Maliyyə hesabatlarının beynəlxalq standartlarına əsasən qəbul edilmiş əsas Maliyyə hesabatları aşağıdakılardır:

1. Maliyyə vəziyyəti haqqında hesabat (Balans hesabatı);
2. Maliyyə nəticələri haqqında hesabat (Mənfəət və zərər haqqında hesabat);
3. Pul vəsaitlərinin hərəkəti haqqında hesabat;
4. Kapitalda dəyişikliklər haqqında hesabat.

Maliyyə hesabatları aylıq, rüblük və illik hazırlanır; bir - biri ilə əlaqələndirilərək bir sistem təşkil edir və müəssisənin maliyyə vəziyyətini, maliyyə nəticələrini, nağd pul axınlarını, xüsusi kapitalda dəyişiklikləri özlərində əks etdirir. Maliyyə hesabatları içində mühüm yeri mənfəət və zərər haqqında hesabat tutur. Daha sadə yanaşsaq maliyyə nəticələri haqqında hesabat müəyyən dövrə müəssisənin gəlirlərlə xərclərini göstərir və bütövlükdə fəaliyyətin effektivliyinə ən ümumi qiymət verir [1, səh-67]. Hər bir şəxs, o cümlədən müəssisələr öz gəlirləri və xərclərini müəyyən dövrə müqayisə edib, həmin dövrə xeyirlə və yaxud da ziyanla çıxdığını müəyyən edir. Məsələn, ay ərzində aldığımız maaşdan aylıq xərclərimizi (vergi, kommunal, ərzaq, kirayə, nəqliyyat və s.) çıxdıqdan sonra qalan məbləğ bizim mənfəətimizi əks etdirir və yığımımızı formalaşdırır. Əlbətdə, bizim xərclərimiz gəlirlərimizdən də çox ola bilər, bu zaman biz ziyanla üzləşəcəyik; ya yığımımızdan istifadə edəcək və yaxud da borclu qalacayıq.

Hər bir kommersiya müəssisənin əsas məqsədi qanunvericiliklə qadağan olmayan fəaliyyətlə məşğul olmaqla məhsul istehsal edib, xidmət göstərmək, işlər görmək və mənfəət

əldə etməkdir. Mənfəət öz əksini müəssisənin hər ay hazırlanan mənfəət və zərər haqqında hesabatında tapdığına görə, ilk növbədə digər maliyyə hesabatlarına nisbətən daha çox diqqəti cəlb edir.

Şirkətlərdə mənfəət və zərər haqqında hesabatın hazırlanması müəyyən qaydalara və tələblərə riayət etməklə aparılır. Çox ədəbiyyatlarda və şirkətlərin internet saytlarında maliyyə hesabatları illik göstəriciləri əks etdirir. Ancaq praktiki olaraq müəssisələrdə maliyyə hesabatları, o cümlədən mənfəət və zərər haqqında hesabat aylıq olaraq hazırlanır və aylar üzrə kumulyativ olaraq illik hesabatlar formalaşır. Aylıq hazırlanan hesabatlar zamanı menecerlər proseslərə daha çevik reaksiya verir və baş verəcək zərərin qarşısının alınması və mənfəətin artırılması üçün səylər göstərirlər. Ona görə də mənfəət və zərər haqqında hesabata və hesabatın təhlilinə aylıq göstəricilərə əsasən yanaşmışıq. Hesabatın forması və maddələri Cədvəl 1-də öz əksini tapmışdır.

Cədvəl 1.

A müəssisənin 31 yanvar 2015 -ci il tarixinə mənfəət və zərər haqqında aylıq hesabatı.

№	Əməliyyat:	Yanvar
1	**Satış**	**450000**
2	***Satılan malların Maya dəyəri (birbaşa xərc)***	**300000**
3	***Gəlir (sət.1 - sət.2)***	**150000**
4	***Əsas fəaliyyətlə bağlı olmayan Digər gəlirlər***	**5500**
5	***Gəlirlər üzrə cəmi (sət.3 + sət.4)***	**155500**
6	**Dolayı xərclər üzrə cəmi:**	**43291**
	6.1 Əmək haqqı (İnzibati heyət)	19550
	6.2 Ezamiyyə xərcləri	90
	6.3. Daxili material xərcləri	250
	6.4 Kommunal xərclər	700
	6.5 Nəqliyyat xərcləri	2000
	6.6 İcarə xərcləri	700
	6.7 Rabitə xərcləri	400
	6.8 Reklam və marketinq xərcləri	
	6.9 Təmir xərcləri	300
	6.10 Vergi xərcləri (əmlak, torpaq)	5000
	6.11 DSMF xərcləri %	4301
	6.13 Digər xərclər	5500
	6.14 Amortizasiya xərcləri	4500
7	***Vergidən əvvəl mənfəət (sət.7-sət.8)***	**112209**
8	***Mənfəət vergisi 20%***	**22441,8**
9	**Xalis mənfəət**	**89767,2**

Müəssisələrdə mənfəət və zərər haqqında hesabatın hazırlanması zamanı beynəlxalq mühasibat uçotu standartlarına uyğun qaydalara riayət edilməlidir. Hesabatın hazırlanmasına birinci yerdə duran satışın təhlili ilə başlayaq. Nümunə üçün: A şirkəti neft şirkəti üçün

qurğular istehsal edir və qurğuların məbləği bazar qiymətlərinə uyğun alıcı və satıcı arasında bağlanılmış müqavilədə razılaşdırılır. Yanvar ayında A şirkətinin satışı 450000 manata 3 ədəd qurğu olub, bu da öz əksini mənfəət və zərər haqqında hesabatın satış hissəsində tapıb. Qeyd etmək lazımdır ki, satış zamanı A şirkəti neft şirkətinə göndərilən mallarla birgə malların adı, miqdarı, qiyməti qeyd edilən imzalanmış qaimə faktura 2 nüsxədə göndərməlidir. Qarşı tərəf, yəni neft şirkəti qaimə fakturanı imzalayıb 1 nüsxəsini geri göndərdikdən sonra, A şirkəti neft şirkətinə həmin qaiməyə əsasən elektron vergi hesab fakturası göndərməlidir. Bu zaman satış baş tutmuş hesab edilir və A şirkəti satış məbləğini mənfəət və zərər haqqında hesabata qeyd etməlidir.

Satış zamanı ƏDV ödəyiciləri olan şirkətlər malın satış qiymətinə ƏDV məbləğini (18%) əlavə etməli və həmin ƏDV məbləğini satış olan aydan sonrakı ayın 20-nə kimi büdcəyə ödəməlidir. Bizim misalda ƏDV ilə satış 450000+450000x0.18 = 531000 manat olmasına baxmayaraq, ƏDV məbləğləri mənfəət və zərər haqqında hesabatda göstərilməməlidir. ƏDV məbləği şirkətin büdcəyə öhdəliyi olduğuna görə həmin məbləğ vergi öhdəliyi yaradır, satış olan ayda büdcəyə ödənilmirsə, ay sonunda müəssisə balansının passivində qısamüddətli öhdəlik hissəsində ƏDV borcu kimi öz əksini tapır. Belə nəticəyə gəlmək olar ki, mənfəət və zərər haqqında hesabatda ancaq, ƏDV-siz yəni, əsas məbləğ öz əksini tapır.

Standartda əsas tələblərdən biri hesablama metodu ilə gəlir və xərclərin nəzərə alınmasıdır. Burada satış gəlirləri alıcıdan satışa görə pulun alınıb – alınmamasından asılı olaraq aid olduğu, tanındığı dövrdə hesabatda nəzərə alınır. Rəqabət şəraitində şirkət öz müştərilərini itirməmək üçün alıcılara malları müəyyən möhlətlə satır və alıcıları malların məbləğini tez ödəməyə məcbur edə bilmir. Bəzən, bu zaman aylarla çəkdiyinə görə satış edən şirkətin likvidlik, yəni nağd pulla təmin olunma problemləri yaranır. Mənfəət və zərər haqqında hesabatda öz gəlirimizi satış etdiyimiz ay tanısaq da, ancaq bu gəlir reallığa o zaman çevrilir ki, alıcılarımız borclarını ödəsin.

Alıcılar borclarını ödəyənə qədər şirkətin vergi, əmək haqqı, təchizatçılara öhdəlikləri yaranır. Yuxarıda qeyd etdiyimiz kimi büdcəyə ƏDV –ni satdığımız malların pulun alıb-almamağımızdan asılı olaraq, növbəti ayın 20-nə qədər ödəməliyik [2, səh-269]. Bu da böyük məbləğdə satış edən şirkətlərin alıcılarının pulunun gec ödəməsi, şirkətin ƏDV borcu ilə əlaqədar vergi orqanları ilə problemlərinin yaranmasına gətirib çıxarır. Buna görə də fikrimizcə, şirkətlərin likvidlik problemlərini azaltmaq üçün, vergi məcəlləsində nəzərdə tutulmuş ƏDV ödənişi ilə əlaqədar müddət ya uzadılmalı, ya da alıcıların borcları ödədiyi vaxt ƏDV məbləğini büdcəyə ödənməsi dəyişikliyi edilməlidir. Bu hal müəssisə üçün daha sərfəli olardı və əlavə pul itkisinə məruz qalmazdı.

Müəssisə likvidlik qabiliyyətini artırmaq üçün maliyyə menecerləri pulların dövriyyə müddətini azaltmaq üçün tədbirlər görməlidir. Pulların dövriyyə müddətini azaltmaq üçün debitor borcunun dövriyyə müddətini, mal material ehtiyyatlarının dövriyyə müddətini azaltmaq və kreditor borcunun ödənilməsinin təxiri müddətini artırmaq üçün səylər göstərilməlidir [1, səh-414]. Əks halda şirkət cari öhdəliklərini (vergi borclarını, işçilərin əmək haqlarını, təchizatçılara kreditor borclarını) ödəmək üçün kreditlər cəlb etməlidir ki, bu da faiz for-

masında xərclərin artmasına və mənfəətin azalmasına gətirib çıxarır.

Mənfəət və zərər haqqında hesabatda 2-ci sırada satılan malların maya dəyərinin əks etdirilməsi durur. İstehsalat müəssisələrində istehsal edilən malların maya dəyərinin hesablanması ticarət və xidmət müəssisələrinə nisbətən daha mürəkkəb bir prosesdir. Ticarət müəssisələri ancaq alqı-satqı prosesi məşğul olduğundan, burada malların ticarət müəssisələrinin anbarına giriş qiyməti (alışın dəyəri) malların maya dəyəri hesab olunur.

Alışın dəyəri = başqa şirkətdən alış qiyməti + idxal rüsumları və digər vergilər+malların daşınması, yüklənməsi və boşaldılması və digər məsrəflər [4, səh-134]. Əgər alış edilən şirkət ticarət güzəşti, qiymət güzəştləri təqdim edərsə, həmin məbləğlər alışın dəyərindən çıxılmalıdır. Məsələn, xaricdən satılmaq üçün alınmış kompüterlərin maya dəyərini hesablayan zaman xarici şirkətdən aldığımız qiymətin üzərinə kompüterlərin xaricdən şirkətə daşınması xərclərini, ödədiyimiz gömrük rüsumları və digər ödənişləri gəlməliyik.

Alış dəyəri müxtəlif amillərin təsiri altında dəyişir, yəni şirkətin satmaq üçün 1 ay əvvəl aldığı malların alış dəyəri ilə hal-hazırda aldığı eyni malların alış dəyəri fərqlənə bilər. Bu hal ən çox xaricdən alınan mallarda baş verə bilər. Buna səbəb valyuta məzənnələrində dəyişikliklər, rüsum və vergilərdə, daşınma xərclərində dəyişiliklər, xarici ölkədə inflyasiya prosesləri və s. ola bilər. Bəzən maya dəyəri malların qiymətləndirmə metodlarının seçimindən asılı olaraq, alış qiymətindən fərqlənə bilər. Bu o zaman baş verir ki, şirkət anbarında olan mallar bitməmiş, fərqli alış dəyəri ilə həmin mallardan alır və satış zamanı satılan malların maya dəyərinin hesablanması zamanı orta dəyər və ya FİFO metodundan istifadə edir. Nümunə üçün: Anbarda alış dəyəri 400 manata 20 ədəd kompüter var. Əlavə olaraq satmaq üçün həmin kompüterlərdən alış dəyəri 460 manata olan 50 ədəd alınıb. Əgər şirkət orta dəyər metodu ilə işləyərsə, bu zaman 1 kompüterin maya dəyəri (400X20+460X50)/70=442,86 manat təşkil edəcək.

İstehsalat müəssisələrində isə satılan malların maya dəyəri müxtəlif xərclərdən formalaşır. İlk növbədə qeyd etməliyik ki, alınan xammal və materialların alış dəyəri yuxarıda qeyd etdiyimiz qaydada hesablanır. İstehsalatda materiallar xammal şəklində alınır, sonra onlar müəyyən emal mərhələlərindən keçərək hazır məhsul formasına çevrilir və satılmaq üçün öz növbəsini gözləyir. Xammalın hazır məhsula çevrilməsi öz-özünə baş vermir və bu çevrilmə müxtəlif xərclər tələb edir. Məhsul istehsalını həyata keçirmək üçün xammalla yanaşı işçilər, maşınlar və avadanlıqlar, elektrik enerjisi və s. lazım gəlir. İşçilərə sərf etdiyi əməyə görə əmək haqqı və 22% DSMF ödənişi, maşınlar və avadanlıqlara görə amortizasiya xərcləri, kommunal ödənişlər və s. hesablanır. Beləliklə, məhsul istehsalına sərf edilən material xərcləri, məhsul istehsalı ilə bağlı birbaşa əmək haqqı xərcləri, istehsal maşın və avadanlıqların amortizasiya xərcləri və istehsalla bağlı digər xərclər məhsulun maya dəyərini təşkil edir.

İstehsalat müəssisələrində maya dəyərinin hesablanmasını daha yaxşı anlamaq üçün A şirkətinin mənfəət və zərər haqqında hesabatına qayıdaq. Burada 3 ədəd qurğunun maya dəyəri 300000 AZN təşkil edir. Hər bir qurğunun istehsal prosesi 3 şöbədən keçir və yarımfabrikat formasında bir şöbədə istehsal başa çatır və digər şöbəyə keçir. 1-ci şöbə qurğunun

mexanika hissəsini hazırlayır, bu zaman ona sərf edilən materiallar və həmin şöbənin işçilərinin bu qurğunun istehsalına sərf etdiyi əmək məsrəfi maşın və avadanlıqların amortizasiya xərcləri və digər birbaşa xərclər həmin qurğunun yarımfabrikat 1-in maya dəyərini təşkil edir. Daha sonra yarımfabrikat 1-in istehsal prosesini davam etdirmək üçün 2 –ci şöbəyə keçir və həmin şöbə də qurğuya sərf edilən materiallar və digər sadaladığımız xərclər qurğunun yarımfabrikat 2-nin maya dəyərini təşkil edir. 3-cü şöbə yarımfabrikat 2-nin avtomatika hissəsini yığaraq onu hazır məhsula çevirir. Bu zaman 3-cü şöbənin quraşdırdığı əlavə materiallar, həmin şöbənin işçilərinin bu qurğunun istehsalına sərf etdiyi əmək məsrəfi, və maşın və avadanlıqların amortizasiya xərcləri və digər birbaşa xərclər yarımfabrikat 3-ün maya dəyərinin üzərinə əlavə edilərək qurğunun tam maya dəyərini formalaşdırır.

Cədvəl 2-yə əsasən 1 ədəd A qurğusunun şöbələr üzrə maya dəyərinin formalaşdırma prosesi təqdim edilmişdir.

A Qurğusu 1 ədəd	Əmək haqqı xərcləri	Material xərcləri	Kommunal xərclər	Digər birbaşa xərclər (nəqliyyat, rabitə, DSMF) və s.	Cəmi xərclər
1-ci şöbə yarımfabrikat 1	10000	34556	200	500	45256
2-ci şöbə yarımfabrikat 2	5500	13435	266	600	19801
3-ci şöbə hazır məhsul	9500	24643	100	700	34943
Cəmi maya dəyəri:	**25000**	**72634**	**566**	**1800**	**100000**

İstehsal prosesi zamanı hər bir şöbə məhsul istehsalına çoxlu miqdarda material sərf edir. Burada hansı materialın hansı məhsula sərf olduğunu və ya normaya uyğun sərf edildiyini bilmək üçün əvvəlcədən hər bir məhsul üçün spesifikasiyalar hazırlanır. Həmin spesifikasiyalar hər bir istehsal edilən məhsula sərf edilən materialların ad və miqdarlarını, əmək haqqı məsrəflərini və digər xərcləri əks etdirir ki, bu da istehsal edilən məhsulun maya dəyərini asanlıqla hesablamağa imkan verir. Məsələn, qurğunun mexaniki hissəsinin hazırlanması zamanı ona sərf olunan materialların adlarını və miqdarlarını qurğunun spesifikasiyasından bilirik. Deyək ki, 1 C mühasibat proqramında hazırlayırıq ki, qurğunun mexaniki hissəsinə 100 ədəd material sərf olunur və hər birinin miqdarını spesifikasiyada göstəririk. Qurğunun mexaniki hissəsi hazırlanan zaman biz proqramda spesifikasiyaya uyğun material silgisini edirik, əmək haqqı və məhsul istehsalı ilə bağlı digər xərcləri də əlavə etdikdən sonra yarımfabrikat 1-in maya dəyərini avtomatik hesablayırıq. Bu proses zamanı biz faktiki material sərfində kənarlaşmalar, material itkiləri olduqda bunu asanlıqla bilirik və kənarlaşmaların səbəbini öyrənirik. Ona görə də istehsal edilən məhsulun əvvəl-

cədən təstiqlənmiş spesifikasiyasının hazırlanması vacibdir. Yuxarıda göstərildiyi kimi, qurğunun hazırlanması konveyer üsulu ilə 3 şöbədən keçir və bu prosesin də istifadə edilən mühasibat proqramında qurulması vacibdir və məhsulun maya dəyərinin avtomatik hesablanmasına səbəb olacaq. Proqram təminatının əsas asan xüsusiyyətlərindən biri də, materialların qiymətini sistemə ancaq onları alanda (anbara daxil edəndə) qeyd edirik. Sonra anbardan istehsal prosesi zamanı şöbələrə materiallar verəndə, silgi zamanı avtomatik olaraq proqram qiymətləri özü əvvəlcədən seçilmiş qiymətləndirmə metodlarına əsasən özü hesablayır.

İstehsal prosesi 1 ayda tamamlanmaya bilər, qurğuda 1-ci şöbə mexaniki hissəni istehsal edə bilər, sonrakı şöbələr bu prosesi 2-ci ayda həyata keçirə bilərlər. Bu zaman həmin yarımfabrikatlar bitməmiş istehsal kimi müəssisənin aylıq balans hesabatında göstəriləcək. Eləcə də, hazır məhsul əgər həmin ayda satılmayıbsa müəssisənin balans hesabatında hazır məhsul qalığı kimi öz əksini tapacaqdır.

İşlərin görülməsi və xidmətlərin göstərilməsi zamanı maya dəyəri həmin işlərə sərf edilmiş mal materialların dəyəri, həmin işdə işləyən işçilərin əmək haqqı xərcləri və həmin layihə ilə bağlı əsas vəsaitlərin amortizasiya xərcləri, ezamiyyə, nəqliyyat və digər xərclərdən ibarətdir. Xidmətlərin göstərilməsi ilə bağlı gəlirlər isə sifarişçi və podratçı arasında imzalanmış aktla təsdiqlənir. Bundan sonra xidmət göstərən təşkilat mənfəət və zərər haqqında hesabatda satışı qeyd edir.

Müəssisələrin əsas fəaliyyətlə bağlı olmayan digər gəlirləri də ola bilər. Məsələn, hər hansı əsas vəsaitin satışından gəlir, müəssisənin əmlakının icarə verilməsindən gəlir, valyuta məzənnəsinin müəssisənin xeyrinə əlverişli dəyişməsindən gəlir və s. müəssisənin gəlirlərinin üzərinə əlavə edilir. Bizim misalda digər gəlirlər ilkin dəyəri 14000 manat, yığılmış amortizasiyası 11000 manat olan nəqliyyat vasitəsinin 6000 manat satışından gəlir 3000 manat, müəssisənin balansında olan obyektin icarə verilməsindən aylıq 1000 manat, xarici valyutada olan borclarına görə yerli valyuta məzənnəsinin qalxması nəticəsində gəlir 1500 manat cəmi 5500 manat (bax: Cədvəl).

Müəssisələrin birbaşa məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə bağlı olmayan, maya dəyərinə daxil edilməyən dolayı xərcləri olur. Dolayı xərclər o xərclərdir ki, məhsul istehsalı olmasa da o xərclər mövcuddur. Hər bir xərclərə nəzarət məqsədi ilə, onlar oxşar əlamətlərinə və təyinatına görə təsnifləşdirilir. Cədvəl 1, sıra 6.1 –dən göründüyü kimi bu xərclər içərisində əmək haqqı xərcləri xüsusi yer tutur. Müəssisə direktorunun və onun müavinlərinin, mühasibat, insan resursları, əməyin təhlükəsizliyi, nəqliyyat şöbəsi işçilərinin əmək haqqı birbaşa məhsulun istehsalının maya dəyəri ilə əlaqədar olmadığına görə mənfəət və zərər haqqında hesabatda dolayı xərclərdə öz əksini tapır.

Xərclərin təsnifatında göstərildiyi kimi ezamiyyə, kommunal, nəqliyyat, icarə, rabitə, təmir, vergi, DSMF(22%) və digər bu təsnifata aid olmayan xərcləri göstərmək olar. Burada qeyd etmək lazımdır ki, təbii ki, eyni təsnifata aid xərc həm maya dəyərinə, həm də dolayı xərcə aid ola bilir. DSMF xərci bildiyimiz ki, müəssisə tərəfindən əmək haqqı fondunun 22%-ni Dövlət Sosial Müdafiə Fonduna ödəməlidir. Əmək haqları maya dəyərinə aid olan işçilərin DSMF haqqları da maya dəyərinə düşəcək. Dolayı xərclərdə göstərilmiş DSMF

haqqı 4301 manat inzibati heyət işçilərinin əmək haqqına görə hesablanmalıdır. Bundan əlavə olaraq amortizasiya xərcləri əgər məhsul istehsal edən avadanlıqlara, maşınlara və digər əsas vəsaitlərə aid edilirsə, bu xərclər maya dəyərinə aid edilməlidir. Əgər əsas vəsaitlər məhsul istehsalı ilə bağlı deyilsə, bunların amortizasiya xərcləri dolayı xərclərə aid ediləcək. Məsələn, inzibati heyət işçilərinin istifadə etdiyi hesablama texnikası, müəssisəyə aid nəqliyyat vasitəsi, ofis avadanlıqları və s.

Mənfəət və zərər haqqında hesabatı Cədvəl 1-də göründüyü formada hazırlamaqla yanaşı, onun hər bir maddələrinin əlavələrlə izahı verilir. Nümunə üçün: Cədvəl 2-də maya dəyərinin açılışını, Cədvəl 3-də kommunal xərclərin açılışını göstərmək olar.

Cədvəl 3

№	Təşkilatın adı	Təyinatı	Yanvar	Cəmi aylar üzrə
1	"Azəriqaz" İstehsalat Birliyi	Qaz sərfinə əsasən	900	900
2	"Azərsu" ASC	Su sərfinə əsasən	300	300
3	"Azərişıq" SC	Elektrik enerjisi sərfinə əsasən	1100	1100
4	Kommunal təsərrüfat idarəsi	Məişət tullantılarına əsasən	100	100
	Cəmi xərclər:		2400	2400
2	Maya dəyərinə düşən birbaşa kommunal xərclər		1700	1700
6.4	Dolayı xərclərə düşən kommunal xərclər		700	700

Cədvəl 3-dən də göründüyü kimi, kommunal xərclərin 1700 manatı Mənfəət və zərər haqqında hesabatda istehsal edilən malların maya dəyərinə, 700 manatı isə dolayı xərclərə bölüşdürülüb. Maya dəyərinə sərf olunan kommunal xərclər yuxarıda qeyd etdiyimiz kimi hər bir məhsulun spesifikasiyasına uyğun onların maya dəyərinə bölüşdürülür və qalan xərclər isə inzibati işçilərin istifadə etdiyi elektrik, qaz və su xərcləridir. Hər bir aylar üzrə xərclər cəmlənərək illik xərcləri əmələ gətirir. Mənfəət və zərərin hər bir xərcləri üzrə açıqlamaların bu cür hazırlanması menecerlərə imkan verir ki, xərclərə nəzarəti artırsın, xərclərin minimallaşdırılması barədə qərar qəbul etməyə köməklik göstərsin. Bundan əlavə olaraq hər bir təşkilata ödənilən məbləğlər barədə və onların təyinatı haqqında da müəyyən fikirlər yaradır.

Cədvəl 1-dən sətir 9-da göründüyü kimi, ümumi gəlirlərdən dolayı xərcləri çıxdıqdan vergidən əvvəl mənfəət hesablanır və mənfəət vergisi (20%) də həmin məbləğə tətbiq edilir. Hüquqi şəxslərin mənfəət vergisi illik vergi sayılır və müəssisənin illik mənfəətinə hesablanır. Bizim nümunədə mənfəət və zərər haqqında hesabat aylıq hesabat olmasına baxmayaraq, aylar üzrə hesablanmış mənfəət vergisi cəmlənərək illik vergini əmələ gətirəcək. Bundan əlavə olaraq mənfəət vergisi keçən ilki göstəricilərə əsaslanaraq rüblük dövlət büdcəsinə ödənilir və sonda cari ildəki göstərici arasında müəyyən edilmiş fərq büdcəyə ödənilir. Hər il təsdiqlənmiş Dövlət büdcəsinin icrası haqqında Qanuna baxdıqda görərik ki, mənfəət vergisi büdcə gəlirləri içərisində xüsusi paya malikdir. Vergi vasitəsi ilə müəssisələrin mənfəətinin bir hissəsi bölüşdürülərək dövlət büdcəsinə ödənilir və büdcədən yenidən bölgü vasitəsi ilə sosial iqtisadi inkişafa sərf edilir.

Müəssisələrin vergidən əvvəl mənfəətindən mənfəət vergisini çıxdıqdan sonra yerdə qalan məbləğ xalis mənfəət adlanır. Bu, müəssisənin fəaliyyətinin müəyyən dövrdə son nəticəsidir. Müəssisə bütün xərclərini ödəyəndən sonra yerdə qalan xalis mənfəət hər bir sahibkarı maraqlandıran əsas məbləğdir. Xalis mənfəət sahibkara aid olur və onu stimullaşdırır. O, istəsə həmin məbləği müəssisədən çıxardaraq şəxsi istifadəsinə yönəldər və yaxud da müəssisədə saxlayaraq maliyyə mənbəyi kimi inkişafa, yeni layihələrə yönəldərək gələcəkdə mənfəəti daha da artıra bilər.

Xalis mənfəətin müəssisədə saxlanılması, yəni dividend kimi istifadə edilməməsi müəssisənin xüsusi kapitalının artmasına gətirib çıxarır. Bu da maliyyə mənbəyi kimi çıxış edərək müəssisənin aktivlərinin artmasına yönəldilir. Ona görə də xalis mənfəət dividend kimi ödənilmirsə, müəssisənin balansının passiv hissəsində bölüşdürülməmiş mənfəət kimi əks etdirilir. Digər bir variant sahibkar xalis mənfəəti bölüşdürərək bir hissəsini dividend kimi götürə bilər, digər hissəsini müəssisədə saxlaya bilər.

Bir çox iqtisadi ədəbiyyatlarda göstərilir ki, dividend səhmdarların sahib olduğu səhmə görə müəssisənin xalis mənfəətinin bölüşdürülməsi ilə bağlı ödənişdir. Lakin, Azərbaycan vergi məcəlləsinin 13.2.15-ci maddəsinə əsasən isə dividend hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində etdiyi ödənişdir [2, səh-30]. Yəni buradan belə nəticəyə gəlmək olar ki, Səhmdar Cəmiyyətlərlə yanaşı, Məhdud Məsuliyyətli Cəmiyyətlərin də öz təsisçilərinə etdiyi ödənişlər dividend sayılır. Azərbaycanda da əksər müəssisələr məhdud məsuliyyətli cəmiyyətlər formasında fəaliyyət göstərirlər.

Beləliklə, mənfəətin bölgüsü nəticəsində birinci növbədə dövlət büdcəsinə icbari ödəmələr edilir, daha sonra qalan məbləğdən sahibkarlara onların qərarlarına uyğun ödəmələr edilir. Dividend kimi ödənilməyən məbləğ mənfəətin istifadə edilməsi üçün müəssisədə qalır.

Dividend ödənişi etmək üçün müəssisənin pul vəsaitləri olması vacibdir. Çünki, mənfəətin əldə edilməsi pulun olması demək deyildir. Müəssisələrdə pulun olmaması malları yuxarıda qeyd edildiyi kimi kreditə satılması, bu cür satış zamanı mühasibat uçotu standartlarına uyğun gəlirlərin tanınması, debitor borclarının ödənilməsinin gecikdirilməsi nəticəsində yaranır.

Müəssisənin nağd pul ehtiyyatı olan zaman da dividend ödənilməsi üçün müəyyən amilləri nəzərə almaq lazımdır. Bunun üçün müəyyən dövrə kassa planı hazırlamaq, burada pul vəsaitlərinin axınlarını, yəni daxil olması və xərcləmələrini proqnozlaşdırmaq lazımdır. Proqnoz məlumatları əsasında müəssisədə pul defisiti və profisitinin yaranmasından asılı olaraq dividend ödənişi etmək haqqında qərar qəbul edilməsinə köməklik edir. Proqnoz məlumatlarına əsasən pul çatışmamazlığı yaranması hallarında dividend ödənişi edilirsə, bu zaman müəssisə gərək gələcəkdə maliyyələşmə üçün borclanmadan (kreditdən) istifadə edə, bu da kreditə görə faiz xərclərinin ödənilməsinə gətirib çıxaracaq və mənfəətin həcmini azaldacaq.

Xalis mənfəətdən dividend ödənişi zamanı dividend məbləği gəlir vergisinə cəlb edilir.

Vergi məcəlləsinə əsasən dividend ödənişinə görə gəlir vergisi 10% [2, səh-214] dərəcəsi ilə tətbiq edilir və ödənilən dividentdən tutularaq, dövlət büdcəsinə ödənilir. Əslində dividentə görə gəlir vergisinin ödəyicisi dividend alan səhmdar və yaxud da təsisçidir və bu da mənfəətin 2-ci dəfə müəyyən hissəsinin büdcəyə bölüşdürülməsinə gətirib çıxarır. Belə nəticəyə gəlmək olar ki, hüquqi şəxslərdə mənfəət ikiqat vergi tutmaya məruz qalır.

Müəssisənin müəyyən dövrə xərclərin gəlirlərindən çox olması nəticəsində ziyanla üzləşə bilər. Bu o halda yaranır ki, həmin dövrə satışın həcmi azalır və ya dolayı xərclər artır. Aylıq hazırlanan mənfəət və zərər haqqında hesabatda yaranan zərərləri digər ayların mənfəəti kompensasiya edə bilər və müəssisə həmin dövrə ilin sonuna mənfəətlə çıxa bilər. İllik dövrdə zərərlə üzləşən müəssisənin xüsusi kapitalının daha dəqiq keçmiş illərin bölüşdürülməmiş mənfəətinin azalmasına səbəb olur.

Mənfəət və zərər haqqında hesabatı analiz etmək üçün müxtəlif maliyyə əmsallarından istifadə edilir. Ən çox istifadə edilən rentabellik əmsallarıdır ki, o da satışın rentabelliyi, aktivlərin rentabelliyi (ROA) və xüsusi kapitalın rentabelliyinə (ROE) bölünür. Bu əmsalları hesablamaq üçün xalis mənfəəti müvafiq olaraq satışın həcminə, aktivlərin həcminə və xüsusi kapitalın orta illik həcminə bölmək lazımdır [3, səh-143]. Bizim cədvəldə satışın rentabelliyi 89767,20 / 450000 =0.2=20%-dir. Bu göstərici bizə bildirir ki, hər bir satılmış 1 manata görə 20 qəpik xalis mənfəət əldə edilib. Göstəriciləri təhlil etmək üçün müxtəlif dövrlər üzrə həmin müəssisənin maliyyə əmsalları müqayisə edilir, eyni sahəyə aid müxtəlif müəssisələrin əmsalları ilə müqayisə edilir və sahə üzrə orta göstəricilərlə müqayisə aparılır. Bunlarla yanaşı rentabellik əmsallarının uzunmüddətli dövr üçün dinamikası təhlil edilir. Bu təhlil gələcək barədə dəqiq nəticələr çıxarmağa imkan verir.

Qeyd etmək lazımdır ki, satışların qiyməti bazarda tələb və təklifə əsasən formalaşır. Buna görə də satışların qiymətini qaldırmaqla mənfəəti artıra bilmərik. Ən optimal variant satışın həcmini müəssisənin maksimum istehsal gücünə qədər artırmaq və keyfiyyəti dəyişmədən maya dəyərin aşağı salmaq üçün yollar axtarmaqdır. Satış həcmini artırmaq üçün daxili bazarla məhdudlaşmaq lazım deyil, xarici bazarlara çıxmaqla potensial alıcı qüvvəsini çoxaltmaq əsas hədəfə çevrilməlidir. Satışın həcminin artması, məhsulun maya dəyərinə və dolayı xərclərə təsir edir və onların məhsul vahidində payının azalmasına səbəb olur. Bu da müəssisənin rəqabət şəraitində üstünlük əldə etmək üçün alıcılarına müəyyən qədər qiymət güzəştlərinin verməsinə imkanlar yaradır. Digər tərəfdən satış həcminin artması və xərclərin azaldılması mənfəətin həcminin artmasına şərait yaradacaq.

Ədəbiyyat:

1. Mirdaməd Sadıqov, Azər Hüseynov, Vidadi Zeynalov. Korporativ maliyyə, Bakı – 2007, 502 səhifə.

2. Azərbaycan Respublikasının vergi məcəlləsi, Bakı - 2015, səh 416.

3. Fundamentals of Corporate finanace (third edition). Müəlliflər; Richard A. Brealey, Stewart C. Myers, Alan J. Marcus UNIVERSITY OF PHOENIX 2001, səh 639.

4. ACCA F3 Financial accounting. For exam 2013-2014, səh 511.

Abstract

THE INCOME STATEMENTS OF ENTERPRISES AND THE FORMATION OF EARNINGS

Taleh MAMMADOV

Ph.D. student of Azerbaijan University

Key words: Income statement, cost of goods sold, accrual consept, indirect costs, dividend

Regardless of the organizational form the main goal of each entity's activities is to make a profit. Therefore, the basic research of this article is income statement which is one of the integral parts of financial statements, its structure and formation, as well as the formation, distribution and analysis of earnings. The practical examples were given on the basis of production enterprise, the content of the income statements and formation of the earnings have been explained in detaile based on the examples and recommended specific ideas. At the end of the article the author reflects the scientific conclusions.

Резюме

ОТЧЕТ О ПРИБЫЛЯХ И УБЫТКАХ ПРЕДПРИЯТИЯ И ФОРМИРОВАНИЕ ПРИБЫЛИ

Талех МАММАДОВ

Университет "Азербайджан", диссертант

Ключевые слова: Отчет о прибылях и убытках предприятия, стоимость реализованной продукции, метод расчета, косвенные расходы, дивиденды

Независимо от организационно-правовой формы главной целью каждый фирмы является, то чтобы фирма работала с прибылью. В этой связи, являющийся неразрывной частью финансовой отчетности, это отчет о прибылях и убытках, его структуры и формирования, а также формирования и распределения прибыли, подлежащих фундаментальных исследований и анализа статей. В конце статьи автор отражает свои научные выводы.

TİKİNTİ MÜƏSSİSƏSİNİN MARKETİNQ MÜHİTİNİN SWOT – ANALİZİ

Zarina ƏLİYEVA
Azərbaycan Memarlıq və İnşaat Universiteti, doktorant

Rəyçi: AMİU, "İqtisadi nəzəriyyə və marketinq kafedrasının müdiri: dos. A.M. Ağayev
Açar sözlər: SWOT-analiz, xarici mühit, marketinq, tikinti müəssisələri, bazar

"Nəticələrə problemin həlli yolu ilə deyil, imkanlardan istifadə etmək yolu ilə nail olmaq olar. Nəticələrin özləri də imkanlardan istifadədən irəli gəlməlidir: düzgün yol addımların axtarılması, resurs və səylərin onlara doğru cəmləşdirilməsidir".

Giriş. Müasir cəmiyyət - əməyin, vəzifələrin və iyerarxik strukturların bölgüsü prinsiplərinə əsaslanan hər hansı məsələlərin həlli və hər hansı məqsədlərə nail olmaq üçün birləşmiş insanların, qrupların məcmusunu özündə əks etdirən təşkilatların müxtəlifliyi kimi nəzərdən keçirilir. Müəssisələr insanların müxtəlif tələbatlarının ödənilməsi üçün yaradılır və buna görə də müxtəlif təyinatlı, ölçülü və s. xarakteristikalara malik olurlar. Müasir bazar iqtisadiyyatında müəssisələr qərarları özləri qəbul edirlər. Ancaq bütövlükdə strukturlaşmış sistem olması və bazar münasibətləri şəraitində fəaliyyət göstərmək üçün lazımi bütün xarakteristik müstəqillik xüsusiyyətlərinə malik olmasına baxmayaraq hər bir müəssisə eyni zamanda daha mürəkkəb və dinamik sistemin tərkib hissəsini təşkil edir. Söhbət müəssisənin marketinq mühitindən gedir [1. səh-10].

Marketinq mühiti müəssisənin fəaliyyət dairəsində yeni, əlverişli və faydalı imkanları axtaran, həmçinin gözlənilməyən potensial təhlükənin qarşıyaçıxma qorxusunu izləyən sahələrin və yarım sahələrin məcmusudur. O, müəssisənin məqsədli bazarlarla bilavasitə əlaqə yaratmasına və bunların daimi mühafizəsinə güclü təsir göstərmə qabiliyyətində olan bütün qüvvələri özündə birləşdirir. Marketinq mühiti dedikdə müəssisənin xarici sərhəd və strukturlarından kənarda qalan, ancaq onun funksiyalarını yerinə yetirmə səviyyəsinə olduqca əhəmiyyətli təsir göstərən hər şey başa düşülməlidir. Dəyişkənliyə, məhdudiyyətliliyə və tam qeyri-müəyyənliyə malik olan marketinq mühiti müəssisənin həyat fəaliyyətinə dərin təsir göstərir. Marketinq mühitinin amilləri – nəzarətə boyun əyməyən qüvvələrin məcmusudur; bu, qüvvələrin nəzərə alınması sayəsində firma öz marketinq kompleksini işləyib hazırlayır [2,səh-28].

SWOT təhlil Strateji marketinqin bir aləti kimi

Sərt, dəyişkən marketinq mühitində fəaliyyət göstərən istənilən müəssisə öz mövqeyini qoruyub saxlamaqdan ötəri bu və ya digər istehlakçı qrupu üçün əhəmiyyətli olan nəyisə istehsal edib təklif etməlidir. Mübadilə vasitəsilə müəssisə sonrakı mövcudluğu üçün zəruri olan gəlir və resurslarını yeniləyir.

Şəkil 1.

Məşhur bir alimin qeyd etdiyi kimi, "müəssisənin marketinq mühiti – amillərin fəzasıdır". "Amillərin fəzası" yalnız onların çoxlu sayda olması deyil, həm də müəssisənin hissəsi olduğu mürəkkəb sistemdə vahidliyi deməkdir. Aydındır ki, seçim azadlığı nə qədər geniş olarsa müəssisənin idarəetmə səviyyəsi bir o qədər yüksək olacaqdır. Seçim azadlığı xarici mühitdə yaranan imkanlar haqqındakı biliklər və bu imkanları müəssisənin potensialının köməyilə həyata keçirmək qabiliyyəti - başqa sözlə, onun daxili mühitinin hazırlığı - ilə müəyyənləşdirilir [3,səh-46].

Strateji marketinq dedikdə, rəqiblərə nisbətən daha yüksək istehlak dəyərinə malik olan əmtəə və xidmətlər yaradılışının sistematik olaraq aparılması yolu ilə orta bazar göstəricilərinin üstələnməsinə istiqamətlənmiş aktiv marketinq prosesi başa düşülür. Eyni zamanda strateji marketinq kompaniyanı onun imkanlarına uyğunlaşdırılmış və kompaniyanın rentabelliyi üçün bütün potensialları təmin edən bazar imkanlarına yönləndirir. Strateji marketinqin əsas məqsədi kompaniyanın missiyasının, məqsədlərinin, inkişaf strategiyasının və balanslaşdırılmış məhsul portfelinin strukturunun müəyyənləşdirməsindən ibarətdir [4,səh-15].

Strategiyanın işlənilməsi xarici analizdən, müəssisənin rəhbərliyinin daimi nəzarətində olmayan və onun strategiyasına təsir edə biləcək amillərin analizindən başlanır. Xarici analizin başlıca təyinatı – hazırda və gələcəkdə müəssisə üçün yarana biləcək imkan və təhlükələri müəyyənləşdirmək və dərk etmək, eləcə də strateji alternativləri müəyyənləşdirməkdir. Xarici analiz SWOT – analiz adlanan sistemin hissəsini təşkil edir. SWOT – analiz – müəssisənin güclü və zəif tərəflərinin, həmçinin onun yaxın ətrafında yaranan imkan və təhlükələrin müəyyənləşdirilməsidir. SWOT – ingilis sözlərinin baş hərfləridir:

Strenghts (güclü tərəflər) – müəssisənin üstünlükləri;

Weakness (zəif tərəflər) – müəssisənin çatışmayan cəhətləri;

Opportunities (imkanlar) – istifadəsi müəssisəyə bazarda üstünlüklər yaradacaq xarici mühit amilləri;

Threats (təhlükələr) – müəssisənin bazardakı mövqeyini potensial şəkildə pisləşdirəcək amillər [5].

SWOT – analizin birinci mərhələsində müəssisənin güclü və zəif tərəflərinin siyahısı tərtib olunur. Güclü tərəflər – müəssisənin uğur qazandığı və ya ona əlavə imkanları təmin edən hər hansı üstünlükdür. Güclü tərəflər - mövcud təcrübədə unikal resurslara sahib olmaqda, qabaqcıl texnologiya və müasir avadanlıqların mövcudluğunda, istehsal olunan məhsulun yüksək keyfiyyətində, heyətin peşəkarlığında, məhsul markasının tanınmasında əks olunur. Zəif tərəflər – müəssisənin fəaliyyəti üçün zəruri olan nələrinsə mövcud olmaması və ya müəssisənin digərləri ilə müqayisədə hələ ki əldə edə bilmədiyi cəhətlərin mövcud olmasıdır. Zəif tərəflərə - istehsal olunan məhsulun az çeşidli olmasını, müəssisənin bazardakı pis reputasiyası, maliyyələşmənin çatışmazlığını, xidmətin zəif səviyyəsini və s. misal göstərmək olar [5].

SWOT – analizin növbəti mərhələsi bazar imkanları və təhlükələrin müəyyənləşdirilmə-

sidir. Bazar imkanları – müəssisənin üstünlük qazanmaq üçün istifadə edə biləcəyi xoş cəhətlərdir. Bazar imkanlarına rəqiblərin mövqeyinin pisləşməsini, tələbin ani artımı, məhsul istehsalının yeni texnologiyalarının meydana gəlməsini, əhalinin gəlirlərinin artmasını və s. misal göstərmək olar.

Bazar təhlükələri dedikdə baş verməsi müəssisə üçün xoş olmayan təsirə malik ola bilən hallar nəzərdə tutulur. Bazar təhlükələrinə misallar: bazarda yeni rəqiblərin meydana gəlməsi, vergilərin artması, inflyasiya səviyyəsinin yüksəlməsi, alıcıların zövqlərinin dəyişməsi,demoqrafik azalma və s.

Müəssisənin profili və xarici mühit haqqında informasiyaya malik olaraq (güclü və zəif tərəflər) xarici və daxili mühit amillərinin qarşılıqlı əlaqəsini qiymətləndirmək üçün SWOT – matrisi tərtib olunur (cədvəl 1) [5].

Cədvəl 1. SWOT – matrisi

İmkanlar – rəqib firmaların zəif mövqeyi, müəssisənin məhsuluna yüksək tələbat səviyyəsi, təbii məhsullarla istehlakçı seçimin artımı,yeni bazarlara çıxış imkanları, nou-xaudan istifadə imkanı, ETT-nin inkişafı		**Təhlükələr – inflyasiya səviyyəsinin yüksəlməsi, əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi, məhsula tələbin azalması, enerji tariflərinin yüksəlməsi, məhsul istehsalı üçün bəzi material növlərinin təchizatının pozulması**
Güclü tərəflər – məhsulun keyfiyyətinə səmərəli nəzarət sistemi, çeşidlərin genişləndirilməsi imkanı, məhsulun yenilənməsinin mütəşəkkil sistemi, firmanın tanınması, maliyyə dayanıqlığı	**SO sahəsi (güclü tərəflər və imkanlar)**	**ST sahəsi (güclü tərəflər və təhlükələr)**
	WO sahəsi (zəif tərəflər və imkanlar)	**WT sahəsi (zəif tərəflər və təhlükələr)**
Zəif tərəflər – məhsul istehsalında yeni texnologiyaların tətbiqi sahəsində gerilik, marketinq sisteminin təşkilinin qeyri təkmilliyi, marketinq tədqiqiatlarının aparılmasının qeyri mümkünlüyü, reklam kampaniyalarının çox az olması		

Yeni texnologiyaların tətbiqi sahəsində geriliyə və marketinqin müəyyənləşmiş sisteminin olmamasına baxmayaraq, inflyasiyanın yüksək səviyyəsi və əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi şəraitində marketinq strategiyası müəssisənin məhsuluna tələbin azalmamasına imkan verməməyə istiqamətlənməlidir.

Beləliklə, SWOT – analizin tərtib olunmuş matrisi müəssisənin öz marketinq mühitinin təkmilləşdirilməsi üçün yerinə yetirməli olduğu ilkin tədbirlərin siyahısını formalaşdırmağa imkan verir. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, istifadə olunmayan imkanlar rəqiblər tərəfindən istifadə olunduqda təhlükəyə və əksinə təhlükələrin qarşısının alınması əlavə imkanların yaradılması ilə nəticələnə bilər [5].

Beləliklə, SWOT – analizin vəzifəsi – müəssisənin mümkün strategiyaları və onların kombinasiyasını müəyyənləşdirmək üçün bütün lazımi informasiyanı təqdim etməkdən ibarətdir. Növbəti strateji planlaşdırma prosesində xarici marketinq mühitindəki dəyişikliklər və müəssisə profilinin bu mühitə adekvatlıq dərəcəsi ilə əlaqədar olan vəziyyətlər hesaba alınır [5].

Nəticə. Strateji planın hazırlanmasında əsas məqsəd daim dəyişən xarici mühitdə müəssisənin öz imkanlarından tam istifadə etməsinə imkan yaratmaqdır. Bu proses bir tərəfdən imkanlarla məqsədlər, digər tərəfdən isə imkanlarla bazar şəraiti arasında strateji uyğunluq yaradılmasına xidmət edir. Strateji planlaşdırma – müəssisədə digər planlaşdırma prosesləri üçün fundament rolunu oynamaqla bir-birilə əlaqəli mərhələlərdən ibarətdir. Konkret məqsədlərin təyin edilməsi strateji planlaşdırmada əsas mərhələ hesab edilir. Bunun üçün müəssisənin daxili və xarici mühiti, rəqibləri, bazardakı vəziyyət və ümumilikdə təsərrüfat fəaliyyətinə təsir edən və gələcəkdə təsir edə biləcək bütün amillər haqqında məlumatlar toplanılır və SWOT – analiz aparılır [6.səh-223].

İstənilən müəssisə üçün səmərəli fəaliyyət strategiyasının işlənilməsi və həyata keçirilməsi yalnız o halda mümkün olur ki, onun eyni zamanda bütövlükdə fəaliyyət müddəti ərzində daimi və fasiləsiz surətdə qarşılıqlı təsirdə olduğu mürəkkəb və dinamik marketinq mühitinin bir hissəsini təşkil etdiyi faktı nəzərə alınsın. Yalnız bu qarşılıqlı təsir mexanizmi lazımi şəkildə öyrənildikdən sonra müəssisə öz fəaliyyətini uzunmüddətli dövr üçün səmərəli planlaşdıra və xarici marketinq mühitində baş verən dəyişikliklərə adekvat və vaxtlı-vaxtında əks təsir göstərə bilər [6.səh-225].

SWOT – analizin nəticələrindən strateji qərarlar qəbul edərkən necə istifadə etmək olar sualını belə cavablandırmaq olar ki, müəssisə rəhbərliyi bazarın imkan və təhdidlərini eyni zamanda özünün güclü və zəif cəhətlərini, həmçinin neytral cəhətlərini nəzərə alaraq sistematik olaraq rəqiblərə nisbətən daha çox istehlak dəyərinə malik olan əmtəə və xidmətlər yaratmaqla bazardakı mövcudluğunu uzun müddət qoruyub saxlaya bilər.

Ədəbiyyat:

1. Котлер Филип, Аристронг Гарл. Основы маркетинга, 9-е изд.: Пер. с англ. - М.: Издат-й Дом «Вильянс», - 2003. - 1200 с.

2. Акулич И.Л. Маркетинг: - Учебник / И.Л. Акулич. - 2-е изд., перераб. и доп. - М.: Высш. шк., 2002. - 447 с.

3. Котлер Ф. Маркетинг менеджмент. — СПб, Питер Ком, 1998. — 896с.

4. Зайцев Л.Г., Соколова М.И. Стратегический менеджмент: Учебник. - М.: Юристъ, 2002. - 416 с.

5. http://knowledge.allbest.ru/marketing/3c0a65625a3bd68a5c43b88521306d37_0.html - 29.10.2015 (17:06)

6. Зайцев Л.Г., Соколова М.И. Стратегический менеджмент: Учебник. - М.: Юристъ, 2002. - 416 с

Abstract

SWOT – ANALYSIS OF THE MARKETING ENVIRONMENT OF A CONSTRUCTION COMPANY

Zarina ALIYEVA

Ph.D. student of Azerbaijan Architecture and Construction University

Key words: SWOT-analysis, external analysis, marketing, construction company, market

This article discusses the marketing strategy of organization, strategic marketing, SWOT analysis - as an instrument of strategic marketing, SWOT matrix – as a reflection of the interdependence of factors of internal and external environment.

Резюме

SWOT –АНАЛИЗ МАРКЕТИНГОВОЙ СРЕДЫ СТРОИТЕЛЬНОГО ПРЕДПРИЯТИЯ

Зарина АЛИЕВА

Азербайджанский Архитектурно-Строительный Университет, докторант

Ключевые слова: SWOT-анализ, внешняя среда, маркетинг, строительные компании, рынок

В данной статье рассматривается маркетинговая среда предприятия, стратегический маркетинг, сущность и этапы SWOT-анализа как инструмент стратегического маркетинга, а также отражающая взаимозависимость факторов внутренней и внешней среды - матрица SWOT.

ƏMTƏƏ BAZARININ STRATEJİ İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Nəzakət HƏSƏNOVA
Azərbaycan Kooperasiya Universiteti, doktorant

Rəyçi: i.e.d., prof.Aydın Səmədov
Açar sözlər: strateji idarəetmə, əmtəə bazarı, istehlak malları, firma, rəqabət, inkişaf proqramı

Giriş. Məlum olduğu kimi Azərbaycan Respublikasının bazar münasibətləri şəraitində ölkə iqtisadiyyatının inkişafı baxımından əsas hədəfi azad və rəqabətli, sosial yönümlü bazar iqtisadiyyatının dərinləşməsinə, iqtisadiyyatının diversifikasiyasının sürətlənməsinə, qeyri-neft sektorunun dinamik inkişafına, məşğulluğun artmasına, gəlirlərin ədalətli bölünməsinə və nəticə etibarı ilə dinamik və dayanıqlı iqtisadi inkişafa və əhalinin layiqli həyat səviyyəsinin yüksəlməsinə nail olmaqdır. Bu məqsədə nail olmaq üçün Azərbaycan hökuməti bir çox qanunlar, proqramlar və konsepsiyalar hazırlamışdır. Sadalanan belə konsepsiyalardan biri də "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyası, 2004-2008 və 2009-2012-ci illər üzrə, bazar prosesinin bütün sistemini, o cümlədən əmtəə bazarının əsas strateji istiqamətlərinin işlənib hazırlandığı respublikanın sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarıdır.

Əmtəə bazarının idarə edilməsinə nəzəri yanaşma. Əmtəə bazarının tədqiq edilməsinin ən mühüm xüsusiyyəti istehlakçıların tələbatının təminedilmə səviyyəsinin öyrənilməsi ilə əlaqədardır.

Əmtəə bazarları istifadə müddətlərinə görə nəzəri baxımdan aşağıdakı kimi bölünür:

- Uzunmüddətli istifadə malları;
- Ortamüddətli istifadə malları;
- Qısamüddətli (birdəfəlik) istifadə malları [1, s. 21-22].

Əmtəələrin bu cür təsnifləşdirilməsi məhsulların reallaşdırılması prosesi üçün çox vacibdir. Bazarın tədqiq edilməsi zamanı satışın və konkret məhsulun bölgüsünün daha səmərəli metodlarının öyrənilməsinə xüsusi diqqət yetirilir. Araşdırmalar göstərir ki, ayrı-ayrı məhsulların satış bazarını şərti olaraq bir neçə hissəyə bölmək olar:

- Əmtəə haqqında heç bir məlumata malik olmayan istehlakçılar;
- Məhsullar haqqında bu və ya digər məlumata malik olub, lakin onu ala bilməyən istehlakçılar;
- Bazarda bu və ya digər müəssisə ilə rəqabət aparan firmaların məhsullarını əldə edən istehlakçılar;
- Konkret müəssisənin istehsal etdiyi məhsulları alan istehlakçılar.

Bu proses Sxem 1-də göstərilmişdir:

Məhsul haqqında məlumatı olmayanlar	
Məhsul haqqında məlumatı olan, lakin onu əldə edə bilməyən istehlakçılar	
Rəqabət aparan firmaların müştəriləri	Konkret müəssisənin müştəriləri

Sxem 1. Ayrı-ayrı məhsulların satış bazarı [2, s. 33-34]:

Əmtəə bazarının tədqiqat obyekti bütövlükdə əhali kütləsi ilə xarakterizə edilir və bütün bunlar müşahidə obyekti kimi ölkə əhalisi, ayrı-ayrı regionlar, şəhərlər, istehlakçıların orta yaş qrupları və s. hesab olunur.

Ayrı-ayrı məhsullar bazarının tədqiqat predmeti müəyyən iqtisadi və sosial şərtlər çərçivəsində bu məhsullara olan tələb və təklifin nisbəti ilə xarakterizə edilir. Əmtəə bazarının tədqiqat obyekti və predmeti haqqında baxışlar tədqiqatın problematikasını müəyyənləşdirməyə imkan verir [4].

Hər hansı əmtəə bazarının tədqiqi həmişə müəyyən problemin mövcud olması baxımından meydana çıxır və onun həll olunmasına doğru istiqamətlənir. Problemin və tədqiqat məqsədinin müəyyən edilməsinin mühüm əhəmiyyət daşımasını xüsusi qeyd etmək zəruridir. Məsələn, yüngül sənaye məhsulları sahəsində əmtəə bazarının öyrənilməsi dəb və tələb arasında əlaqənin öyrənilməsindən keçir [3]. Burada aşağıdakı amillər xarakterikdir:

- qarşılıqlı asılılığın öyrənilməsi və qiymətləndirilməsi;
- yüngül sənaye məhsullarının saxlanması xüsusiyyətləri;
- yüngül sənaye məhsullarına olan tələbə milli, sosial-demoqrafiq, iqlim və s. faktorların təsiri.

Əmtəələrin reallaşdırılması prosesinin yüksəldilməsinin zəruriliyi, tələb və təklif arasında disproporsiyaların aradan qaldırılması ilə əlaqədar problemin digər növ müxtəlifliyi ilə bağlı amillər də nəzərə alınmalıdır. Ümumi bazar problemləri həm də əmtəə təklifinin ümumi həcmi ilə əhalinin məcmu ödəniş qabiliyyətli tələbi arasında tərs mütənasiblik nəticəsində yaranır. Hal-hazırkı dövrdə ümumi bazar probleminin mövcudluğu xalq təsərrüfatı proporsiyalarının pozulması, informasiya prosesləri, əhalinin miqrasiyası ilə bilavasitə əlaqədardır.

Azərbaycanda əmtəə bazarının istehlak malları baxımından strateji idarə edilməsi məsələsinin bəzi aspektləri. Aparılan araşdırmalar göstərir ki, ümumilikdə ölkənin makroiqtisadi siyasəti ilə bağlı yanaşmaları, o cümlədən ölkənin əmtəə bazarının idarəetmə strategiyası, onun perspektivləri bütünlükdə və tam şəkildə qeyri-neft sektorunun inkişaf etdirilməsi, regionların iqtisadiyyatının proporsional inkişafı, ölkə əhalisinin həyat səviyyəsinin artırılması kimi əsas məqsədləri ilə üst-üstə düşür. Beləliklə də qeyd olunanları təhlil edərək bu qənaətə gəlmək mümkündür ki, 2014-2017-ci illər ərzində müəyyən edilmiş hədəfləri aşağıdakı kimi göstərmək olar:

- makroiqtisadi sabitliyin qorunub saxlanılması;
- milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi;
- ərzaq təhlükəsizliyinin təmin olunması;
- iqtisadiyyatın diversifikasiyasının sürətləndirilməsi;

- qeyri-neft məhsullarının ixracının genişləndirilməsi və ölkənin ixrac qabiliyyətinin artırılması;
- regionların davamlı və tarazlı inkişafının təmin edilməsi;
- sosial yönümlü siyasətin davamlılığının təmin edilməsi.

Qarşıya qoyulan hədəflərdən də göründüyü kimi gələcək üçün əsas strateji istiqamətlərdən biri də ölkənin əmtəə bazarı ilə bağlıdır. Bu dövr strateji inkişaf, eləcə də əmtəə bazarının idarə edilməsi baxımından bəzi problemləri də qeyd etmək fikrimizcə zəruridir ki, bunlara da aşağıdakılar aiddir:

- Son dövrlər istər beynəlxalq miqyasda istərsədə ölkə səviyyəsində iqtisadi artım templərinin zəifləməsi;
- Xarici mühitin pisləşməsi və daxili tələbin zəifləməsi;
- Qlobal maliyyə bazarlarında risklərin əhəmiyyətli dərəcədə artması;
- Əsas xammal növlərinin dünya qiymətlərinin dəyişkənliyi;
- Xarici tələbin artımının zəifləməsi, maliyyə sabitliyi ilə əlaqədar yaranan narahatlıqlar və eləcə də stimullaşdırma tədbirlərinin zəifləməsi.

Bazar iqtisadiyyatının əsasını xüsusi mülkiyyət və əmtəə istehsalı təşkil edir. Lakin cəmiyyətin inkişaf prosesində iqtisadi həyatın ümumi formaları keyfiyyətcə bir-birindən fərqlənir və daimi xarakter daşımırlar. Bu baxımdan qeyd olunanlar onu göstərir ki, əmtəə bazarının idarə edilməsi strategiyasının dəqiq sisteminin qurulması həm obyektiv, həm də subyektiv xarakterli bir sıra xüsusiyyət və ziddiyyətləri nəzərə almalıdır. Fikrimizcə, istənilən əmtəə bazarının əsasını istehsal potensialı və istehlak bazarının həcmi müəyyən edir. Yəni əmtəə bazarının strateji idarə edilməsi sistemində ziddiyyətlərin aradan qaldırılması üçün, hər şeydən əvvəl, istehsal potensialı ilə əmtəə bazarının həcmi arasında optimal nisbəti tapmaq lazımdır. Apardığımız araşdırmalar göstərir ki, bu göstərici Azərbaycanın əmtəə bazarı üzrə nisbət 85 - 95% arasında tərəddüd etməlidir. Beynəlxalq təcrübə göstərir ki, əmtəə bazarının istehsal potensialı istehlak bazarının həcmi üçün çıxış nöqtəsidir. Buna görə də istehlak bazarının tədqiqi daha məqsədəuyğun hesab olunur, çünki çox halda əmtəə bazarının istehsal potensialının formalaşması bu bazarın proqnoz qiymətləndirilməsindən asılı olur.

İstehlak bazarının, ərzaq mallarının proqnoz qiymətləndirilməsindən başlayaq. Bizim tədqiqatlarda proqnoz qiymətləndirməsi kəmiyyət ifadəsində yox, ərzaq malları istehlak bazarının strukturunun faiz nisbətində həyata keçirilmişdir. Bu məqsədlə, tərəfimizdən 2006-2012-ci illər üzrə bazar strukturunun orta qiyməti aşkar edilmiş və 2015-ci il üçün proqnoz qiyməti verilmişdir.

Tədqiqatın nəticələri göstərmişdir ki, respublikada 2015-ci ildə ərzaq malları üzrə istehlak bazarının strukturu qiymət baxımından bu şəkildə dəyişəcəkdir: ərzaq malları – 0,67 manat; ət və quş – 0,70 manat; kolbasa məmulatları – 0,06 manat; balıq və dəniz məhsulları – 0,10 manat; kərə yağı – 0,26 manat; bitki yağı – 0,09 manat; marqarin – 0,11 manat; süd və süd məhsulları – 0,20 manat; pendir – 0,05 manat; balıq konservləri – 0,01 manat; meyvə konservləri – 0,01 manat; yumurta – 0,13 manat; qənd-şəkər – 0,37 manat; qənnadı malları –

0,34 manat; təbii çay – 0,17 manat; duz – 0,02 manat; un – 0,21 manat; çörək – 0,27 manat; yarmalar və paxlalılar – 0,18 manat; makaron – 0,05 manat; kartof – 0,61 manat; tərəvəz – 1,27 manat; meyvə - 0,63 manat; araq – 0,3 manat; spirtsiz içkilər – 0,03 manat (bax, Cədvəl 1).

Cədvəl 1.

Ərzaq malları üzrə istehlak bazarının strateji təhlilinin nəticələri (proqnoz qiymətləndirmə faizlə) [7].

Pərakəndə əmtəə dövriyyəsinin struk-turu	2006	2007	2008	2009	2012	2006-2012 (orta)	2015-ci ildə dəyişmə (proqnoz) (+; -)
Cəmi mallar	100	100	100	100	100	100	100
ərzaq malları	64,39	64,05	63,46	63,51	63,18	63,72	0,67
ət və quş	10,25	9,61	9,94	9,48	8,48	9,55	0,70
kolbasa məmulatları	0,4	0,44	0,47	0,54	0,54	0,48	0,06
balıq və dəniz məhsulları	1,05	1,11	1,22	1,28	1,23	1,18	0,10
kərə yağı	2,57	2,53	2,85	2,52	2,5	2,59	0,26
bitki yağı	0,8	0,75	0,9	0,81	0,77	0,81	0,09
yağ və piylər	0,02	0,02	0,02	0,02	0,01	0,02	-
marqarin	0,6	0,51	0,46	0,46	0,43	0,49	0,11
süd və süd məhsulları	1,23	1,33	1,52	1,66	1,56	1,46	0,20
pendir	0,92	0,85	0,89	0,96	0,91	0,91	0,05
ət konservləri	0,02	0,02	0,02	0,02	0,02	0,02	-
balıq konservləri	0,07	0,07	0,07	0,08	0,07	0,07	0,01
tərəvəz konservləri	0,08	0,08	0,07	0,08	0,08	0,08	-
meyvə konservləri	0,05	0,05	0,04	0,04	0,03	0,04	0,01
yumurta	1,14	1,26	1,08	1,03	1,12	1,13	0,13
qənd-şəkər	2,2	1,89	1,64	1,71	1,72	1,83	0,37
qənnadı malları	2,21	2,53	2,73	3,05	3,04	2,71	0,34
təbii çay	1,0	0,84	0,75	0,81	0,75	0,83	0,17
duz	0,09	0,08	0,07	0,07	0,07	0,08	0,02
un	1,45	1,5	1,65	1,31	1,28	1,44	0,21
çörək	4,41	4,31	4,47	4,11	3,71	4,20	0,27
yarmalar və paxlalılar	0,96	0,77	0,74	0,78	0,65	0,78	0,18
makaron	0,6	0,56	0,64	0,66	0,59	0,61	0,05
kartof	2,15	2,34	1,68	1,27	1,23	1,73	0,61
tərəvəz	10,7	10,67	10,63	11,51	12,46	11,19	1,27
meyvə	9,91	10,5	9,68	9,38	9,9	9,87	0,63
araq	1,26	1,02	0,88	0,87	0,77	0,96	0,3
spirtsiz içkilər	0,31	0,35	0,37	0,39	0,39	0,36	0,03

Qeyd. Cədvəl müəllifin hesablamalarına əsasən qurulub.

Müasir şəraitdə əmtəə bazarının idarə edilməsi baxımından marketinq strategiyasının seçilməsi və reallaşdırılması müvafiq təşkiletmə və planlaşdırma sisteminə istinad edir. Nəzəri baxımdan marketinqin təşkilati sisteminin bir neçə halqası fərqləndirilir: bazar informasiyasının toplanması, onun işlənməsi və strateji alternativlərin və strategiya üzrə təkliflərin işlənib hazırlanması üzrə bölmə; marketinqin planlaşdırılması üzrə xidmətlər; marketinq strategiyası üzrə qərar qəbul edən orqanlar; marketinq strategiyasını reallaşdıran bölmələr.

Nəticə. Hazırkı dövrdə Azərbaycanda əmtəə bazarının strateji idarə olunması baxımından qeyd edilən istiqamətlərə zəif fikir verilir. Bu baxımdan yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycanda əmtəə bazarının strateji idarə olunması baxımından aşağıdakı istiqamətlərin öyrənilməsi zəruridir:

- xarici və daxili mühitin kompleks qiymətləndirilməsi;
- rəqabət üstünlüklərinin aşkar edilməsi;
- perspektivlərin təhlili;
- strateji qərarların əsaslandırılması;
- kəmiyyət göstəricilərinin yüksəldilməsi;
- daxili və xarici bazarların tələbatlarının nəzərə alınması və s.

Fikrimizcə, yuxarıda sadalanan amillərin həyata keçirilməsi əmtəə bazarında rəqabət qabiliyyətli strategiyanın formalaşmasına, informasiya texnologiyaları, alıcı və satıcıya diqqətlə bağlı əsas amillər; seqmentləşdirmə və təklif strategiyaları; pərakəndə ticarətçilərin artım strategiyası və bölüşdürmə kanallarına üstünlük verilməsinə, əmtəə bazarının strateji idarə edilməsi keyfiyyətinin artırılmasına kömək edəcəkdir.

Ədəbiyyat:

1. Эдерсхейли Э.Х. Лучшие идеи Питера Друкера. Пер. с англ. СПБ.: Питер. 2011, -384 с.

2. Экономическая стратегия фирмы. Под ред. А.П.Градова. СПБ.: Спец-Лит. 2000, 589 с.

3. Экономико-математические методы и модели. Под ред. А.В.Кузнецова. Мн.: БГЭУ. 2000, -412 с.

4. Экономика предприятия. Под ред. Ф.К.Беа. и др. М.: ИНФРА-М. 1999, -928 с.

5. Эффективность управления рыночными процессами (теория и практика) Под ред. проф. А.Г.Самедова. Москва – Баку.: Марс-Принт. 2006, -562 с.

6. Яковец Ю.В. Глобальные экономические трансформации XXI века. М.: Экономика. 2011, -382 с.

7. http://www.stat.gov.az/menu/6/statistical_yearbooks/ 11 noyabr 2015. 11:50.

Abstract

DIRECTIONS OF IMPROVING THE STRATEGIC MANAGEMENT OF THE COMMODITY MARKET

Nazakat HASANOVA

Ph.D.student of Azerbaijan Cooperation University

Key words: strategic management, commodity market, firm, competiteveness, development program

Currently Azerbaijan Republic strategics management features of the commodity market, the prospects for regional economic development as a whole and complete way, such as raising the standard of living of the population coincides with the main objectives. As for the strategic management of the commodity market, the country's food security, increasing the range of export promotion and export goods, will lead to strengthening the position of national producers in foreign markets.

Резюме

НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СТРАТЕГИЧЕСКОГО УПРАВЛЕНИЯ ТОВАРНОГО РЫНКА

Назакет ГАСАНОВА

Азербайджанскии Университет "Кооперации", докторант

Ключевые слова: стрaгикеческое управление, товарный рынок, потребительный товар, фирма, конкуренция, программа развития

Функция стратегического управления на товарном рынке в настоящее время в Азербайджанской Республике, перспективы регионального экономического развития в целом. Повышение уровня жизни населения совпадает с основными целями. Что касается стратегического управления товарного рынка, обеспечение продовольственной безопасности страны, расширение спектра поощрения экспорта и экспортных товаров приведет к укреплению позиций национальных производителей на внешних рынках.

İQTİSADİ TƏHLÜKƏSİZLİK STRATEGİYASINDA SOSİAL SİYASƏTİN HƏYATA KEÇİRİLMƏSİNİN BAŞLICA İSTİQAMƏTLƏRİ

i.e.n. Nuridə ƏMİRASLANOVA
Sumqayıt Dövlət Universiteti, Azərbaycan Universiteti, müəllim

Rəyçi: dos. Vasif Muradzadə
Açar sözlər: iqtisadi təhlükəsizlik, sosial siyasət, həyat səviyyəsi, iqtisadi davranış

İqtisadi təhlükəsizliyin, ümumilikdə milli təhlükəsizliyin təmin edilməsi və artırılması sosial sferanın hərtərəfli və obyektiv monitorinqini tələb edir. Bu istiqamətdə ilk növbədə iqtisadi təhlükəsizliyin təhlili üçün göstəricilər qrupunun düzgün seçilməsi, əsaslandırılması vacibdir. İqtisadi təhlükəsizliyin sosial amillərlə əlaqəli təhlili aşağıdakıların qiymətləndirilməsini tələb edir:

- ölkənin müdafiə qabiliyyətinin təmin edilməsi və iqtisadi inkişaf qabiliyyəti, geniş təkrar istehsal rejiminin fəaliyyəti nöqteyi-nəzərindən insan kapitalı, əmək və mütəxəssis potensalının qiymətləndirilməsi; bu potensialın perspektiv inkişaf meyilləri və inkişaf etmiş ölkələrin uyğun göstəricilərinin səviyyəsi ilə müqayisədə onlardan istifadə səmərəliliyinin qiymətləndirilməsi;
- sosial sabitlik və əhalinin sosial fəallığı (təbii hərəkatının canlanması, qızışması nöqteyi-nəzərindən);
- həyat səviyyəsi və onun keyfiyyəti (əhalinin təkrar istehsalı və demoqrafik potensialın bərpası, məşğulluq səviyyəsi, real və perspektiv işsizlik, kriminogen vəziyyət baxımından).

İndikativ təhlilin bu obyektləri cəmiyyətdə sosial vəziyyəti, durumu tam və hərtərəfli əks etdirə bilən göstəricilər sistemini formalaşdırmağı tələb edir. Bu sistem sosial inkişaf səviyyəsini göstərən faktiki və proqnozlaşdırılan parametrlərin iqtisadi təhlükəsizlik meyarlarının həddqiymətlərindən kənarlaşmanı vaxtında müəyyənləşdirməyə imkan verməlidir. Bununla əlaqədar ölkəni risk zonasından uzaqlaşdırmaq istiqamətində xüsusi tədbirlərə böyük ehtiyac vardır.

Göstəricilərin seçilməsində bir sıra tələblər nəzərə alınmalıdır. İlk növbədə bu göstəricilərin sosial sferadakı real və potensial təhlükəni tam əks etdirməsi və ölkənin hesablama, statistika və proqnozlaşdırma sisteminə uyğunluğu tələbidir. Digər tərəfdən onların kifayət qədər konkret olmaları və ölkədə, regionda, yaxud hər hansısa bir sahədə sahələrarası müqayisə üçün faktiki sosial vəziyyətin birmənalı qiymətləndirilməsinə imkan verməlidir. İkinci tələb ölkənin sosial parametrlərinin geosiyasi rəqiblərlə müqayisəsi zərurətini ortaya qoyur, diktə edir və ölkənin iqtisadi təhlükəsizliyinin mühüm meyarlarından biri kimi qiymətləndirilməlidir. İqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı dövlət strategiyasında nəzərdə tutulan əsas vəzifələrə uyğun olaraq sosial yöndə iqtisadi təhlükəsizliyin indikativ

təhlili üçün aşağıdakı cəhətlər nəzərdə tutulmalıdır.

- demoqrafiya, həyat keyfiyyəti və səviyyəsi. Buraya – doğum və ölüm səviyyəsi, orta ömür müddəti, xəstəlik səviyyəsi; yaşayış minimumuna nisbətən orta və minimal əmək haqqı və təqaüdlərin səviyyəsi; əhalinin ayrı-ayrı təbəqələrinin gəlir səviyyələrindəki fərq; vacib ərzaq məhsullarının istehlakı göstəriciləri daxildir;
- iri iqtisadi rayonlar, əhalinin yaş və sosial qrupları üzrə məşğulluğun dinamikası;
- əmtəə və xidmətlərə olan tələbin dinamikası;
- əhalinin sosial fəallığı;
- regional səviyyədə nəzərə alınan göstəricilər; əhalinin əsas qrupları üzrə, qadınlar və gənclər arasında işsizliyin səviyyəsi; yaş və milli tərkibə görə demoqrafik vəziyyət, miqrantların və qaçqınların sayı; tətillərlə əlaqəli sosial fəallıq; kriminogen vəziyyət.

Bu göstəricilər sırasına elmi, intellektual potensialın dinamikası, mütəxəssislərin hazırlıq səviyyəsi, təhsil almaq imkanı, ölkədən «beyinlərin axını» səviyyəsini xarakterizə edən göstəricilərin də daxil edilməsi iqtisadi təhlükəsizliyin hərtərəfli indikativ təhlilinə imkan verərdi. Həmçinin, yoxsulluq səviyyəsi, əmlak səviyyəsi üzrə və işsizlik səviyyəsini xarakterizə edən göstəricilərin sosial-siyasi sabitliyi poza biləcək təhlükəli həddi keçməsinə imkan vermək olmaz.

Sosial sferada mövcud vəziyyətin dinamikasını qiymətləndirmək üçün müəyyən edilmiş göstəricilər və meyarlar sisteminin təkmilləşdirilməsi sosial siyasətin prioritetlərini dəqiqləşdirməyə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir.

Həyat səviyyəsinin yüksəlməsi istiqamətində sosial infrastrukturlar, onların istehsal gücləri, il ərzində xidmət göstərmək qabiliyyəti, hər 1000 nəfərə, ya da adambaşına düşən səviyyəsi mühüm rol oynayır. Sosial infrastruktur sahələrə görə kənd və şəhər yerlərində əhalinin sayı, onların məşğulluq səviyyəsi, əhalinin gəlirləri və rifahı ilə ölçülür. Belə ki, gəlirlərin strukturu yaşayış yerləri ilə əlaqəli şəkildə tədqiq olunur.

Sosial siyasətin yalnız dövlət və onun strukturlarının vəzifələri və hüquqları olmasını düşünmək düzgün olmazdı. B.V.Rakitskinin verdiyi tərifə görə sosial siyasət-müxtəlif, bəzən oxşar maraqları olan sosial qrupların, siniflərin qarşılıqlı münasibətləridir. Bəzən də bu münasibətlər çərçivəsində bütövlükdə əhalinin və onun təbəqələri, sosial birliklərin (yəni ailə, xalq, şəhər əhalisi, qəsəbə region əhalisi və s.) sosial vəziyyətinin dəyişilməsi və saxlanılması maraqları uyğunluq təşkil etmirlər. Sosial siyasətin istiqamətləri müxtəlif sosial qrupların və siniflərin, regionların, yerli özünüidarəetmə orqanlarının maraqları nəzərə alınmaqla dəqiqləşdirilməlidir. Bu amil dövlətin müstəqil sosial siyasət həyata keçirmək imkanlarının məhdudlaşması və onun rolunun zəifləməsinə dəlalət etmir. Əksinə, müxtəlif subyektlərin funksiyalarının dəqiqləşdirilməsi və onlar arasında qarşılıqlı təsirin təmin edilməsi əhəmiyyətini artırır.

Cəmiyyətdə tənəzzül prosesinin dərinləşməsini qiymətləndirmək üçün xüsusi göstəricilər sisteminin müəyyən edilməsi, onların həddqiymətlərinin işlənib-hazırlanması tələb olunur. Bununla yanaşı cəmiyyətin tənəzzülü prosesi cəmiyyətin sosial strukturunu formalaşdıran müxtəlif sosial qruplarda və siniflərdə baş verən mümkün fərqli dəyişiklikləri nəzərə almaqla

qiymətləndirmək vacibdir.

Cəmiyyətin tənəzzülə uğraması əlaməti kimi əhalinin yaşayış şəraiti keyfiyyətinin pisləşməsi, əhali arasında xroniki xəstəliklərin və ölümün səviyyəsinin artması, orta ömür müddətinin azalması, əhali arasında əlilliyin səviyyəsinin yüksəlməsi, kimsəsiz, sahibsiz və evsiz-eşiksiz uşaqların çoxalmasını göstərmək olar ki, bu da demoqrafik böhranlara səbəb ola bilər.

Mütəxəssislərin fikrincə, demoqrafik böhranların əsas təhlükəli əlaməti-doğum səviyyəsinin aşağı düşməsi və əhali ölümünün katostrafik həddə çatmasıdır, o cümlədən kişilər arasında yüksək ölüm səviyyəsi və uşaqlar arasında ölüm hallarının çoxalmasıdır. Demoqrafik proseslərdə baş verən neqativ meyilli dəyişikliklər ölkəni böhran vəziyyətindən çıxmasına mənfi təsir göstərməklə yanaşı, dövlətin geosiyasi maraqları üçün real təhlükə mənbəyinə çevrilərək, birbaşa milli təhlüksizliyinə zərbə vurur.

Tədqiqatçıların fikrincə, makro, mikro və mezo səviyyələrdə bu və ya digər təsərrüfat qərarlarının (layihələrinin) reallaşdırılması zamanı istənilən yeniliyin iqtisadi təhlili potensial milli təhlükəsizlik müddəasına əsaslanmalıdır, eyni zamanda sosial-iqtisadi və ekoloji təhlükəsizliyə xüsusi diqqət yetirilməlidir. Buna görə də birincisi, tədqiq olunan obyektin üstünlükləri, yaxud da çatışmamazlıqlarının iqtisadi təhlili mütləq innovasiya layihəsinin, yaxud da qərarının verilən variantının reallaşdırılmasının məqsədəuyğunluğu haqqında ekspert rəyi qəbul olunanadək həyata keçirilməlidir; ikincisi, səmərəliliyin təhlilinin bütün mərhələlərində ölkənin sosial-iqtisadi, hərbi, ekoloji, demoqrafik və s. təhlükəsizliyinin təmin olunmasını nəzərə almaq və bu layihənin reallaşdırılmasının mümkün ola biləcək mənfi nəticələrini aradan qaldırmaq lazımdır; üçüncüsü, yüksək iqtisadi səmərəliliyin təmin olunması üçün dövlətin, regionların, sahibkar strukturlarının və bütövlükdə cəmiyyətin maraqlarının optimal səviyyəsinə nail olmaq xüsusi əhəmiyyət kəsb edir. Bunun üçün idarəetmə və təsərrüfatçılığın bütün səviyyələrində ölkənin sosial-iqtisadi strategiyası, proqramları və layihələrinin elmi-iqtisadi əsaslandırılmasının ən yüksək səviyyəsi tələb olunur. İstənilən layihənin reallaşdırılması o zaman məqsədəuyğun olar ki, bundan əldə olunan ictimai mənfəət, bütün digər eyni şərtlər altında, ictimai məsrəflərdən çox olsun [118, səh. 77].

Müasir dünyada cəmiyyətin və əhalinin tənəzzülü prosesləri həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsi, eyni zamanda əhalinin alıcılıq qabiliyyəti və istehlakının səviyyəsində tənəzzüllə bağlı öz aralarında sıx münasibətlərdədir. Əhalinin əmək haqqı səviyyəsinin aşağı olması əhalinin və işçi qüvvəsinin geniş təkrar istehsal proseslərinə əngəl törədir. Bu, işçini bir neçə yerdə işləməyə məcbur etsə də, onun ailəsinin tələbatı səviyyəsi yenə də təmin edilə bilmir, onun əmək haqqı səviyyəsi yaşayış minimumundan da aşağı səviyyədə olur. Statistik məlumatlara görə bu gün Azərbaycanda əhalinin 42%-i yoxsulluq səviyyəsindən aşağı şəraitdə yaşayır. Bu o deməkdir ki, əhalinin bu təbəqəsinin gəlirləri onların minimal tələbatlarının səviyyəsini təmin edə bilmir və onlara dövlət tərəfindən sosial yardımlar formasında kömək göstərilməlidir.

Əhalinin belə mütləq yoxsulluq səviyyəsində yaşaması gələcək nəslin inkişafına mənfi təsir göstərərək, millətin genofondunu zəiflədir. Yoxsulluq əhalinin bazar iqtisadiyyatının

tələblərinə uyğunlaşmasını ləngidir, vətəndaşların yeni peşələrə yiyələnmələrinə, ixtisaslarını artırmalarına mane olur, yoxsulluğun son həddə olan dilənçilik vəziyyəti yaradır, mənəvi düşkünlük yaradır, cinayətkarların, dilənçilərin sayı artır.

Kommunal xərclərlə bağlı qiymətlərin və tariflərin artması az gəlirli ailələrlə qidalanma xərclərinin azalmasını qaçılmaz edir.

Əhalinin kütləvi şəkildə yoxsullaşması, yoxsulluğun nisbi məzmundan mütləq həddə keçməsi, geniş vüsət alması ölkənin milli və iqtisadi təhlükəsizliyi üçün ikinci mühüm real sosial təhdid hesab oluna bilər. Bu, islahatların uğursuzluqla nəticələnməsi və sosial partlayış təhlükəsini doğurur. Dövlətin iqtisadi təhlükəsizlik strategiyasına daxil olan sosial məzmunlu təhdidlər bu iki təhlükənin sürətləndirici amili kimi qiymətləndirilməlidir. Bu da iqtisadi təhlükəsizliyin meyarları üzrə sosial siyasətin prioritetlərində düzəlişlər edilməsini tələb edir.

Литература:

1. N. Məmmədov, M.Bərxudarov "İqtisadi təhlükəsizlik" Bakı, 2006
2. Abbasov A.F. «Ərzaq təhlükəsizliyi». Bakı, 2007
3. Əliyev Ü. «Keçid dövrünün milli iqtisadi problemləri». «İqtisad Universiteti», 2008, 357 s.

Abstract

MAIN DIRECTIONS OF THE IMPLEMENTATION OF SOCIAL POLICIES IN TERMS OF ECONOMIC SECURITY

Nurida AMIRASLANOVA

Ph.D. of economics, teacher of Sumgait State University, Azerbaijan University

Keywords: Economic security, social policy, standard of life, economic behavior

The article analyzes the relationship between, the strategy of economic security and social factors of economic security, as well as their evaluation.

Резюме

ГЛАВНЫЕ НАПРАВЛЕНИЯ ВНЕДРЕНИЯ В ЖИЗНЬ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ В УСЛОВИЯХ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Нурида АМИРАСЛАНОВА

к. э. н., преподаватель СГУ, АУ

Ключевые слова: Экономическая безопасность, социальная политика, уровень жизни, экономическое поведение

В статье во взаимосвязи анализируется стратегия экономической безопасности с социальными факторами экономической безопасности, а также даны их оценка.

ЭКОНОМИЧЕСКИЕ РЕФОРМЫ И РАЗВИТИЕ НОВЫХ ФОРМ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ

Кенуль АГАЕВА
д.ф.э., доцент Азербайджанского Архитектурно-Строительного Университета

Отзыв: к. э. н., Вугар Назаров
Ключевые слова: занятость, рабочая сила, спрос и предложение на рынке труда, государственный и негосударственный сектор, малый и средний бизнес

В условиях рыночных трансформаций происходят преобразования в сфере занятости. Эти преобразования, в первую очередь, связаны с формированием многоукладной экономики, изменением отраслевой структуры производства, формированием системы рынков и их инфраструктуры.

Наиболее значимые преобразования в сфере занятости обусловлены разгосударствлением и приватизацией государственной собственности, развитием индивидуальной и коллективной (групповой, корпоративной) собственности. В результате произошла реструктуризация занятости и образование новых сфер приложения труда в соответствии с требованиями рынка: высвобождение рабочей силы (персонала) из одних отраслей, создание новых предприятий и привлечение работников в другие отрасли.

Ситуация в области занятости, как было уже отмечено, характеризуется сокращением рабочих мест и увеличившимся в результате этого высвобождением рабочей силы. Ряд профессий, по которым длительное время осуществлялась подготовка кадров, не пользуются на рынке труда спросом. А предлагаемые вакансии не соответствуют профессиональному составу безработных. Другими словами, имеет место рост диспропорций между спросом и предложением рабочей силы в сторону роста предложения и снижения спроса. В результате усилилась конкуренция на рынке труда, и возросли требования к качеству рабочей силы, падение реальной цены труда. Особенно тяжело эти процессы отразились на положении социально незащищенных слоев населения: инвалидов, пенсионеров, женщин, молодежи.

В условиях, когда государственный сектор экономики не в состоянии сохранить имеющиеся рабочие места и создавать новые, особую роль приобретает создание рабочих мест в негосударственном секторе. Развитие негосударственного сектора основывается на индивидуальном и коллективном предпринимательстве. Как показывает опыт развитых стран, предпринимательство является неотъемлемой частью рыночной экономики, ведущей силой развития экономики.

Особое место в развитии современных форм и занятости должен сыграть малый бизнес. Слабое развитие малого бизнеса свидетельствует о серьезных недостатках в экономической жизни страны, ведь многие диспропорции в структуре экономики невозможно исправить с помощью диверсификации крупного бизнеса. Крупные произво-

дители ориентируются на усредненные стандарты и потребности, поэтому их часть остается неудовлетворительной. Это и есть «ниша» для малого бизнеса.

Роль малого предпринимательства в экономике ведущих стран трудно переоценить. На рубеже XX -XXI столетия доля малых и средних предприятий в валовом внутреннем продукте США составляла 50 -52%, стран Европейского союза - 65 -68%, Японии - около 55%. Интересен и другой статистический показатель - доля малых и средних предприятий в общем их числе - от 46% в Германии до 73% в Италии [2, 74].

Важную роль малый бизнес играет в социальной жизни общества, и прежде всего в сфере занятости. Так, в 90-е годы в США на малых и средних предприятиях работали более 50% всех занятых в частном секторе, 80% новых рабочих мест создавалось в сфере малого бизнеса. В Великобритании в 80-е годы в этом секторе создавалось ежегодно около 350 тыс. рабочих мест, в то время как большинство крупных предприятий проводили реорганизацию и сокращение персонала. В Италии с 1975 по 1984 г. 78% всех новых рабочих мест были созданы малым бизнесом [2, 74].

Специалисты, проводящие анализ деятельности мелких и средних форм на рынке труда ведущих в экономическом отношении государств, пришли к следующим выводам [3, 46]:

- доля занятых в малом бизнесе постоянно растет, притом более высокими темпами, чем в крупном бизнесе. Даже в кризисные годы малый бизнес продолжает привлекать рабочую силу, хотя и в меньших масштабах, чем в периоды подъема;
- несмотря на высокий уровень банкротств и исчезновения мелких предприятий, темп появления новых фирм все равно заметно выше, т.е. сальдо рождений и смертей этих предприятий часто оказывается положительным;
- наибольший рост рабочих мест наблюдается в категории мелких и мельчайших предприятий, а также в группе самостоятельно занятых;
- при падении объемов материального производства отрасли сферы услуг, более тесно связанные с платежеспособным спросом населения, продолжают развиваться. Среди растущих профессиональных групп наибольшее развитие получают профессии, связанные с обслуживанием индивидуальных потребностей: юристы, врачи, работники предприятия отдыха и развлечения, продавцы аудио и видео аппаратуры, автомобильные дилеры, строители - отделочники, декораторы, дизайнеры, мебельщики и т.д.;
- в производство и сферу услуг вовлекаются домохозяйки, пенсионеры и желающие трудиться после основного рабочего времени.

Таким образом, мировой опыт свидетельствует, что в малом бизнесе (и Азербайджан здесь не является исключением) имеется хорошая перспектива развития занятости[4, 54]. Это обусловлено прежде всего тем, что ищущих работу потенциальных работников привлекает отсутствие долгосрочных контрактов, индивидуализированная трудовая нагрузка, гибкие рабочие графики. Немаловажную роль играет отсутствие управленческой бюрократии, меньшая монотонность и регламентированость труда.

Особенно это привлекает инженерно-технических и научных работников, желающих добиться успеха не только в науке, но и бизнесе, и повысить уровень собственной материальной обеспеченности и своих семей. А это весьма актуально для современного Азербайджана, где накопленный в советские годы человеческий капитал в ходе болезненных экономических реформ оказался невостребованным и в некоторой степени деградировал. Кроме того, как уже отмечалось выше, малый бизнес является школой приобретения трудовых навыков, особенно для лиц, впервые ступивших на рынок труда. С учётом складывающейся демографической ситуацией в Республике Азербайджан, где велика доля молодежи в структуре населения страны, эта проблема также весьма актуальна.

Большие возможности для развития малого и среднего бизнеса в республике имеются в сфере услуг. Необходимая величина капитальных вложений, скорость оборачиваемости капитала и высокая прибыльность в сфере услуг делают эту сферу наиболее выгодной для предпринимателей с небольшим стартовым капиталом.

Не все высвобожденные работники трудоустраиваются в легальном секторе экономики или регистрируются в службе занятости, получая статус безработного. Часть высвобожденных работников находят работу в неформальном (незарегистрированном) секторе экономики. К неформальному сектору можно отнести не противоречащую закону нерегулируемую деятельность, сведения о которой нигде не зафиксированы.

Можно предположить, что часть занятых в неформальном секторе - мигранты из сельской местности. В Азербайджане, когда еще он входил в состав СССР, в аграрных регионах имела место скрытая безработица, обусловленная, с одной стороны, высоким уровнем рождаемости, и с другой - узкой сферой приложения труда. В переходный период проблема трудоустройства обострилась, что вынудило многих искать работу в столице. Кроме этой категории, в неформальном секторе нашли себе работу беженцы и вынужденные переселенцы.

Многие из этой категорий не имеют специального образования, на определенном этапе их устраивает заработок, обеспечивающий выживание, они довольствуются случайными заработками. Хотя неформальный сектор экономики обеспечивает часть населения работой, условия жизни данной категорий очень тяжелы. Условия работы в неформальном секторе отличаются тем, что здесь в большинстве случаев низкий уровень оплаты, отсутствуют нормальные условия производства. Работающие в этом секторе люди не имеют гарантий сохранения занятости и пенсии по возрасту, а также не имеют доступа к кредиту.

Кроме жителей сельских регионов и беженцев, в неформальном секторе Азербайджана работает и городское население, в том числе и та ее часть, которая имеет образование и специальность. Другая категория продолжает официально числиться на рабочем месте в легальном секторе экономики, а фактически доход обеспечивается за счет работы в "теневом" секторе.

Обобщая вышеизложенное, следует отметить, что в настоящее время в Азербай-

джане соотношения занятых в государственном и негосударственном секторах составляет соответственно 36,3% и 63,8%[1, 26]. Численность занятых по всем сферам негосударственного сектора, кроме кооперативного, увеличивалась высокими темпами. Так, возросла численность занятых в малом бизнесе, совместных предприятиях, фермерских хозяйствах, а также самозанятого населения. Вместе с тем, в Азербайджане предложение рабочей силы значительно превышает спрос на нее, что делает проблему расширения негосударственного сектора актуальной. Ключевую роль здесь призвано сыграть развитие предпринимательства. Для развития этой сферы необходимо создание юридической, финансовой, информационной и технической базы. Это в свою очередь актуализирует необходимость продуманной государственной программы развития предпринимательства, где, в первую очередь будут выделены приоритетные направления, определена стратегия их развития.

Литература:

1. “Azərbaycan statistik göstəriciləri”, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı-2014, 388 s.

2.Бородин И.И.В Великобритании подъем продолжается, Мировая экономика и международные отношения, 1996, 170.

3. Исаев А.И. Социально-экономические особенности занятости населения в переходный период (на примере Азербайджанской Республики). Москва - 2005 год , 125 стр.

4. Уткин Э.А. Шабанов Д.С. Антикризисное управление в малом бизнесе. М., ТЕИС, 2004,124 стр.

Xülasə

İQTİSADİ İSLAHATLAR VƏ ƏHALİNİN MƏŞĞULLUĞUNUN YENİ FORMASININ İNKİŞAFI

Könül AĞAYEVA

Azərbaycan Memarlıq və İnşaat Universiteti, dosent

Açar sözlər: məşğulluq, işçi qüvvəsi, əmək bazarında tələb və təklif, dövlət və qeyri-dövlət sektoru, orta və kiçik biznes

Məqalədə iqtisadi islahatların keçirilməsi zamanı əhalinin məşğulluğun yeni formasının inkişafının əsas istiqamətlərinə baxılmışdır. Qeyd olunmuşdur ki, iş yerlərinin ixtisar olunması və bunun nəticəsində işçi qüvvəsinin azad olunması işçi qüvvəsinin tələb və təklifi arasında qeyri-tarazlığa səbəb olmuşdur. Əhalinin məşğulluğunun təmin olunmasında əsas rol kiçik və orta biznesə ayrılmışdır. Bu sahələr həmçinin ilk əmək bazarına daxil olan şəxslər üçün əmək bacarıqlarını formalaşdıran bir məktəbdir.

Abstract

ECONOMIC REFORMS AND THE DEVELOPMENT OF NEW FORMS OF POPULATION EMPLOYMENT

Konul AGHAYEVA

Azerbaijan Architecture & Construction University

Key words: employment, labor force, supply and demand in the labor market, public and private sector, small and medium entreprises

The article describes the main directions of development of new forms of employment in terms of economic reforms. It is noted that the reduction in jobs and the resulting free work-force leads to an imbalance between supply and demand of the labor force in the growth of supply and reduces demand. The main role in providing employment is given to small and medium-sized entreprises, which, among other things, is a school of the acquisition of skills, especially for those who first entered the labor market.

SOSİAL XİDMƏTLƏRİN METODOLOJİ XÜSUSİYYƏTLƏRİ, EFFEKTİVLİYİNİN TƏYİN EDİLMƏSİ

Eyyub MUSAYEV
Əmək və Sosial Problemlər üzrə ETTM, doktorant

Rəyçi: i.ü.f.d. Aygün Musayeva
Açar sözlər: sfera, bazar rəqabəti, rəqabətqabiliyyətlilik, rəqabətqabiliyyətlilik göstəricisi, xalq təsərrüfatı, iqtisadi tənzimləmə, iqtisadi resurslar

Məqalə sosial xidmətlərin səmərəliliyinin təyin edilməsinin metodoloji xüsusiyyətlərinə həsr olunmuşdur. Məqalədə qeyd olunur ki, tədqiq olunan sahə üzrə problemlər müasir bazar iqtisadiyyatı şəraitində aktual hesab olunur. Ona görə də bu sahədə iqtisadi tədbirlərin davamlı olaraq həyata keçirilməsi obyektiv zərurətdir.

Bütün dünya miqyasında bazar iqtisadiyyatının tələblərinə müvafiq olaraq vətəndaşlara sosial xidmətlərin göstərilməsinin effektivlik səviyyəsinin artırılması mühüm məsələdir.

Eyni zamanda tərtib olunmuş məqalədə tədqiqat əsasında nöqsan və çatışmamazlıqlar təsbit olunmuş, eləcə də yaxın perspektiv dövr ərzində onların aradan qaldırılması istiqamətləri müəyyənləşdirilmiş, həmçinin elmi baxımdan əsaslandırılmış təklif və tövsiyələr verilmişdir.

Giriş. Müasir bazar iqtisadiyyatı şəraitində sosial xidmətlərin səmərəliliyi, onlardan effektiv istifadə edilməsi problemləri sosial xidmət sferasının resurs təminatı məsələləri ilə çox sıx bağlıdır. Nəzərə almaq lazımdır ki , sosial xidmətlərin effektivliyi sosial müəssisələrin fəaliyyətinin məqsəd oriyentiri kimi çıxış edərək, bu fəaliyyəti əsaslandırır. Qabaqcıl dünya ölkələrində təkmil sosial xidmətlərin effektivliyi sosial müəssisənin fəaliyyətinin nəticəsinin xarakteristikasını, qarşıya qoyulmuş hədəfə bu fəaliyyət sayəsində yaxınlaşma dərəcəsini əks etdirir. Effektivlik göstəricisinin köməyi ilə görülmüş işin nəticələri barədə mühakimə yürütmək mümkündür. Müəyyən həcmdə xərclər müqabilində xidmətlərin sayının çox olması bu fəaliyyətin effektivliyinə dəlalət edir və əksinə, eyni həcmdə xərclər müqabilində xidmətlərin həcminin az olması fəaliyyətin nəticələrinin qeyri-qənaətbəxş olduğunu təsdiq edir.

Sosial xidmətlərin effektivliyinin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, bu halda əsas məqsəd – mənfəət əldə etmək deyil, əhalinin sosial ehtiyaclarının maksimal təmin olunması və ya müştərinin çətin həyat vəziyyətini maksimal dərəcədə yüngülləşdirməkdir.

Sosial xidmətlərin effektivliyi anlayışına iki yanaşma daha geniş yayılmışdır. Birinci yanaşmada effektivliyə əldə edilmiş nəticələrin və bu nəticələrin təmin edilməsi ilə bağlı xərclərin nisbəti kimi baxılır. Bu halda aşağıdakı vəziyyətlər yarana bilər: xərclər əvvəlki səviyyədə qalır, əldə edilmiş nəticələrin kəmiyyəti və keyfiyyəti isə əvvəlki dövrlərlə müqayisədə daha yüksəkdir; xərclər artmışdır, amma nəticələr daha yüksək olmuşdur; xərclər azalmış, amma nəticələr daha yüksək olmuşdur. Bundan başqa, sosial xidmətlərin effektivliyi

alternativlərin seçimi və məhdud həcmdə vəsaitlərin bölgüsü ilə, istehsal amillərinin qarşıya qoyulmuş hədəfə - müştərilərin ehtiyaclarının optimal yolla təmin olunması məqsədinə nail olmağa imkan verən kombinasiyası ilə müəyyən edilir. Sosial xidmətlərin effektivliyi inteqral göstərici olub, bu işin mənasının və nəticəsinin sosial və şəxsi əhəmiyyətini xarakterizə edir

Sosial xidmətlərin səmərəliliyinin müəyyən edilməsi məsələləri

Sosial xidmətlərin effektivliyini təyin edərkən, vəsait məsrəfləri əsas götürülməklə, bu fəaliyyətin nəticələri aşağıdakı növlərə bölünür [1,səh-142]:

- fəaliyyətin birbaşa (bilavasitə) nəticələri - sosial xidmət müəssisəsi tərəfindən göstərilmiş xidmətlərin və ya görülmüş işlərin həcmi (məsələn, müəssisədə və ya sosial xidmətin bölmələrindən birində xidmət göstərilmiş şəxslərin sayı);
- son sosial nəticələr - sosial xidmət müəssisəsi tərəfindən təqdim edilmiş xidmətlərin sosial-iqtisadi effekti (məsələn, müştərilərin həyat səviyyəsinin artması) .

İkinci yanaşma effektivliyə planlaşdırılmış və faktiki nail olunmuş nəticələrə əsasən baxılmasını nəzərdə tutur. Bu yanaşmada əsas məsələ - nəticələrin ölçüsüdür. Nəticələr planlaşdırıla, proqnozlaşdırıla, hədəflər şəklində çıxış edə bildiyindən, effektivlik də ehtimal edilən (hesablanmış, planlaşdırılmış) və faktiki (real nail olunmuş) ola bilər, yəni "effektivlik nəzərdə tutulmuş hədəflərin və nail olunmuş nəticələrin üst-üstə düşməsinin əsaslarını təsbit edən xarakteristika kimi çıxış edir . Sosial xidmətlər sistemində təqdim edilən sosial xidmətin effektivliyini yalnız onların fəaliyyətini obyektiv əks etdirən etibarlı statistik məlumatlar əsasında ölçmək olar. Belə informasiyanın əldə edilməsi üçün vasitə rolunu sosial xidmətlərin effektivlik meyarları və göstəriciləri sistemini yerinə yetirir.

Sosial xidmətlərin effektivliyi meyarlarının təyin edilməsi həm elmi, həm də praktik fəaliyyət üçün böyük əhəmiyyət kəsb edir. "Birinci halda onlar əhaliyə sosial xidmətlər təqdim edilməsinin səmərəliliyinin tədqiqatı üçün mühüm vasitə kimi xidmət edirlər, ikinci halda – əhalinin müxtəlif kateqoriyalarının sosial xidmətlərə real tələbatına və ehtiyaclarına adekvat olan konkret və təsirli nəticələrə nail olmağı hədəfləyən oriyentirlər sistemidir, buna görə də onlar sosial xidmət standartları rolunda, normativlər sistemi qismində çıxış edə bilərlər". Sosial xidmətlər sistemində effektivlik meyarının təyininə bu fəaliyyətin səmərəlilik ölçüsünü, dərəcəsini göstərən əlamət kimi yanaşmaq lazımdır. Sosial xidmətlərin fəaliyyətinin effektivlik meyarları qismində bu fəaliyyətin vəziyyətini səciyyələndirən hər bir əlamət deyil, yalnız müəyyən tələblərə cavab verən əlamətlər çıxış edə bilər. Bu əlamətlər, hər şeydən əvvəl, ikinci dərəcəli və təsadüfi xarakterli deyil, xidmətlərin əhəmiyyətli və təkrarlanan xüsusiyyətlərini əks etdirən obyektiv əlamətlər olmalıdır. Onlar həmçinin, fəaliyyətin nəticələrinin qiymətləndirilməsi üçün zəruri və kafi meyar olmalı, sistemin fəaliyyəti haqqında kəmiyyət-keyfiyyət informasiyasını ehtiva etməlidir.

Sosial xidmətlərin əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi

Sosial xidmət müəssisəsinin fəaliyyətinə tətbiqin, effektivliyin qiymətləndirilməsinin aşağıdakı meyarlarını göstərmək olar:

-İstehsal müştərilərin ehtiyaclarına əsaslanaraq müəssisənin müəyyən keyfiyyətlə müəyyən miqdarda xidmətlər göstərmək qabiliyyətini əks etdirir;
- Məhsuldarlıq xidmətlərin həcminin istifadə edilmiş resurslara nisbəti ilə təyin edilir;

- Təmin olunma həm sosial xidmət müəssisəsinin əməkdaşları tərəfindən, həm də müştərilər tərəfindən alınan mənfəət;
- Uyğunlaşma anlayışını təşkilatın xarici və daxili mühitin dəyişikliklərinə reaksiya verdiyi səviyyə kimi təsəvvür etmək olar. Adaptivlik meyarı istehsal səviyyəsi, məhsuldarlıq və təmin olunma anlayışları ilə müqayisədə daha mücərrəd meyardır. Bu meyar təşkilatın və onun rəhbərinin həm xarici, həm də daxili mühitlə bağlı dəyişiklikləri qəbul etmək qabiliyyətinə aiddir [2,səh-163]. Adaptivlik aşağı səviyyədə olduqda təşkilat xarici mühitin dəyişikliklərinə uyğunlaşa bilmir və ya uyğunlaşmaq istəmir, bu isə onun salamat qalmasına təhlükə yaranması deməkdir. Sosial xidmət sisteminin böyük dinamikası ilə əlaqədar, adaptivlik yüksək səviyyədə olmalıdır;
- İnkişaf təşkilatın uzun müddət normalar və standartlar üzrə işləmək qabiliyyətidir.

Sosial xidmətin effektivliyinin qiymətləndirilməsi meyarları kimi bu meyarların tətbiq olunmasını təklif etmək mümkündür: xidmət edilən vətəndaşların sosial ehtiyaclarının təmin olunması səviyyəsi; təqdim edilən xidmətlərin keyfiyyəti, operativliyi və ünvanlılığı; ərazidə sosial xidmətin inkişaf səviyyəsi; sosial xidmətlə bağlı xərclərin optimallığı; işçi heyətin kadr tərkibi və ixtisas səviyyəsi. Sosial xidmət müəssisələrinin fəaliyyətinin ayrı-ayrı forma və növlərinin əlamət və xüsusiyyətlərinin müxtəlifliyi bu fəaliyyətin effektivlik göstəricilərinin də müxtəlifliyinə səbəb olur. Bütün göstəriciləri şərti olaraq aşağıdakı növlərə bölmək olar: əldə edilmiş və ya mümkün inkişaf səviyyələrini, yaxud bu və ya digər fəaliyyətin nəticələrini xarakterizə edən qiymətləndirmə göstəriciləri (məsələn, Əhaliyə Sosial Xidmət Mərkəzinin müvafiq bölməsi tərəfindən müəyyən müddət ərzində xidmət edilmiş müştərilərin sayı; hər 10000 sakin hesabı ilə sosial kömək almış vətəndaşların sayının qiymətləndirilməsi; sosial xidmətlə təminolunma göstəricisi və s.); fəaliyyətin müxtəlif növlərinin həyata keçirilməsi üzrə xərclərin səviyyəsini əks etdirən məsrəf göstəriciləri (məsələn, hesabat dövründə bir müştəriyə xidmət göstərilməsinə çəkilən xərclər və s.). Sosial xidmət müəssisələrinin effektivliyi iki əsas qrupdan ibarət olan göstəricilər sistemində ifadə edilir: konkret-iqtisadi effektivlik göstəricilər, sosial effektivlik göstəriciləri.

Sosial xidmətin konkret-iqtisadi effektivliyi göstəriciləri (dəyər göstəriciləri) əmək, material və maliyyə resurslarından istifadənin səmərəliliyini ifadə edir. Onlar məsrəflərin effektivliyinin ümumiləşdirilmiş xarakteristikasını və qiymətləndirilməsini əldə etməyə, müxtəlif keyfiyyətli xidmət növlərinin istehsalı üçün əmək və material məsrəfləri barədə məlumat almağa, konkret-iqtisadi göstəricilərin dinamikasını izləməyə imkan verir, sosial xidmətin daxili effektivliyini əks etdirir. Sosial xidmətlərin konkret-iqtisadi effektivliyi göstəricilərinin nümunələri kimi, xidmət edilmiş müştərilərin bir sosial işçiyə düşən sayını, bölmədə bir müştəriyə xidmət göstərilməsi xərclərini, bölmədə işin effektivliliyi və yer dövriyyəsi və s. göstəricilərin adlarını çəkmək olar. "Pulsuz" sosial xidmət sahəsinin dəyər göstəriciləri xidmətlər istehsalı üçün zəruri xərclərin maliyyələşdirilməsini müəyyən edir, sosial-iqtisadi nəticələrin göstəricilərini formalaşdırır. Sosial xidmətlər sistemində effektivliyin qiymətləndirilməsi metodikalarının kifayət qədər müxtəlif olması, hər şeydən əvvəl, qiymətləndirmənin predmeti ilə bağlıdır [3,səh-126], (Cəd.1). Bu metodikaları şərti olaraq

"birinci sıra" metodikaları adlandıraq. Qiymətləndirmə predmetlərindən hər biri daha artıq dərəcədə detallaşdırıla bilər və bu halda, müvafiq olaraq, yeni, "ikinci sıra" metodikaları meydana çıxır.

Beləliklə, xidmətlərin hər növünün (sosial-məişət, sosial-tibbi, psixoloji-pedaqoji, sosial-hüquqi, sosial-bərpa, sosial-psixoloji, sosial-məsləhət xidmətləri, maddi yardım) effektivliyinin qiymətləndirilməsinin müvafiq metodikası vardır.

Cədvəl 1.

Əhalinin sosial müdafiəsi sistemində səmərəliliyin qiymətləndirilməsinin əsas predmetləri və metodikaları

Səmərəliliyin qiymətləndirilməsinin əsas predmetləri	Səmərəliliyin qiymətləndirilməsinin daha ətraflı predmetləri	Səmərəliliyin qiymətləndirilməsi metodikalarının növləri
Əhalinin sosial müdafiəsi sisteminin müxtəlif strukturlarının fəaliyyəti	Sosial müdafiənin idarə edilməsi üçün istifadə olunan formalar və metodlar. Müəyyən müddət ərzində fəaliyyətin nəticələri. Məqsədli proqramların icrasının nəticələri	Firmaların və idarəetmə metodlarının effektivliyinin qiymətləndirilməsi metodikaları. Səmərəlilik metodikaları. Məqsədli proqramların icrasının qiymətləndirilməsi metodikaları
Sosial xidməti təmin edən işçilərin (heyətin) əməyinin təşkilinin keyfiyyəti və ya səviyyəsi	Əmək şəraiti - fiziki, sosial, təşkilati, sosial-psixoloji şərait. Sosial xidmətin resurs təminatı. Sosial xidməti təmin edən heyətin motivasiyası	Əmək şəraitinin qiymətləndirilməsi metodikaları. Resurs təminatının qiymətləndirilməsi metodikaları. Motivasiyanın, motivasiya vasitələrinin effektivliyinin qiymətləndirilməsi metodikaları
Sosial xidməti təmin edən heyətin ixtisaslaşma səviyyəsi (keyfiyyəti)	Heyətin sayı və ixtisaslaşma səviyyəsi. Heyətin hazırlanması, ixtisasdəyişmə və ixtisasartırma proqramları	Heyətin ixtisaslaşma səviyyəsinin qiymətləndirilməsi metodikaları. Heyətin hazırlığının, yenidən hazırlanmasının və ixtisasartırmasının qiymətləndirilməsi metodikaları
Əhalinin müxtəlif kateqoriyalarına sosial xidmətin keyfiyyəti və ya səviyyəsi	Sosial xidmətin növləri. Sosial xidmətin formaları, metodikaları və texnologiyaları. Sosial xidmətin nəticələri	Sosial xidmət növlərinin effektivliyinin qiymətləndirilməsi metodikaları. Sosial xidmətin forma, metod və texnologiyalarının effektivliyinin qiymətləndirilməsi metodikaları. Sosial xidmətin nəticələrinin qiymətləndirilməsi metodikaları

Öz növbəsində "ikinci sıra" metodikalarına hər hansı əlavə parametrlər daxil edilsə, bu metodikaların da müxtəlif variantları ola bilər. Məsələn, "sosial xidmətin forması" parametrinin (evdə xidmət, stasionar və yarımstasionar müəssisələr, təcili sosial xidmət) tətbiqi müvafiq metodikaların yaranmasına səbəb olur. Bütövlükdə sosial xidmət müəssisəsinin effektivliyi əsas fəaliyyətin səmərəliliyində təzahür edir, bunun əlamətləri aşağıdakılardır:

- effektivlik - təşkilatın hədəflərinə nail olmaq dərəcəsi;
- qənaətlilik - resursların zəruri və faktiki məsrəflərinin nisbəti;
- keyfiyyət - məhsulun (xidmətlərin) xarakteristikalarının standartlara və istehlakçıların tələblərinə uyğunluğu;
- gəlirlilik - gəlirlər və ümumi xərclər arasında nisbət;
- məhsuldarlıq –müəyyən dövr ərzində istehsal edilmiş məhsulun (göstərilmiş xidmətlərin) natural formada, dəyər ifadəsində həcmi ilə məhsulun (xidmətlərin) bu həcminə uyğun olan əmək, maddi və maliyyə resursları məsrəflərinin nisbəti;
- innovasiya fəallığı - müxtəlif funksional fəaliyyət sahələrində yeniliklərin tətbiqi.

Sosial müəssisənin fəaliyyətinin effektivliyi sosial xidmətlər sisteminin keyfiyyətinin inteqral, ümumiləşdirici göstəricisi qismində çıxış edir. Bu göstərici həm sistemin daxili xüsusiyyətləri (resursların mövcudluğu, onların idarə edilməsinin xarakteri) ilə, həm də sosial müəssisənin fəaliyyət göstərdiyi şəraitlə, resursların bütün növlərinin mübadiləsi vasitəsilə onun xarici mühitlə qarşılıqlı təsiri ilə müəyyən edilir. Sosial müəssisələrin fəaliyyətinin konkret nəticəsi eyni zamanda həm sosial, həm də iqtisadi effekt kimi çıxış edir. Ən ümumi səviyyədə bütün amillər iki böyük qrupa bölünür. Birinci qrup sosial müəssisəyə münasibətdə xarici amillər kimi çıxış edən və müəssisə rəhbərliyinin nəzarət zonasına daxil olmayan ən mühüm amilləri birləşdirir . Sosial xidmət müəssisələrinin fəaliyyətinin nəticələri xarici mühitlə təyin edilir, çünki bu müəssisələr əksər hallarda dövlətin tələblərinə, qüvvədə olan qanunvericiliyə və standartlara ciddi tabe olan və büdcədən maliyyələşdirilən dövlət təşkilatlarıdır. Ona görə də sosial xidmət müəssisələrinin rəhbərləri qərarlar qəbul edərkən xarici mühit amillərinin müəssisənin fəaliyyətinə, bu fəaliyyətin səmərəliliyinə təsir göstərə bilməsini nəzərə almalıdırlar ki, sosial müəssisə xarici dəyişikliklərə vaxtında reaksiya versin, öz müştərilərinin və bütövlükdə təşkilatın zərərə düşməsinin qarşısı alınsın.

Sosial müəssisənin fəaliyyətinin effektivliyinə təsir edən xarici amillər: dövlət tənzimləməsi, resursların bütün növlərinin təchizatçıları, istehlakçı-müştərilər, siyasi, iqtisadi, hüquqi, sosial-demoqrafik, elmi-texniki amillər və s.

Dövlət tənzimləməsi mərkəzləşdirilmiş inzibatçılıq və bazar tənzimləmə mexanizmi amillərini əlaqələndirməklə sosial xidmətlərin fəaliyyətinin effektivliyinə təsir edir [4,səh-158].

Mərkəzləşdirilmiş inzibati təsir vasitələrinə bunlar aiddir: sosial xidmətlərin keyfiyyəti və həcmi ilə bağlı standartların və normaların təsbit olunduğu müvafiq qanunlar və normativ aktlar tətbiq edilməklə müəssisələrin fəaliyyət prosesinin tənzimlənməsi; əhalinin ayrı-ayrı kateqoriyalarına ünvanlı dövlət sosial zəmanətləri; resurslarla təmin edilmiş dövlət sifarişlərinin bölgüsü; sosial xidmətlər sisteminin inkişafına mane olan hüquqi, iqtisadi və təşkilati maneələrin aradan qaldırılması; sosial xidmət müəssisələrinin fəaliyyətinə dövlət

dəstəyi, o cümlədən, həmin müəssisələrə güzəştlər, subsidiyalar, əvəzi ödənilməyən torpaq sahələri və başqa dövlət mülkiyyətinin verilməsi; təhsil, kadrlar hazırlanması və ixtisasartırma sahəsində məqsədyönlü siyasətin həyata keçirilməsi və s. Sonuncu amil çox əhəmiyyətlidir: effektivliklə təhsil arasında sıx qarşılıqlı əlaqə olması bir sıra tədqiqatlarla sübut edilmişdir. Effektivlik sahəsində ən yaxşı göstəricilər daha savadlı və yüksək hazırlıqlı işçi qüvvəsinə malik olan ölkələrin müəssisələrində müşahidə olunur. Sosial xidmətlər sisteminin bazar tənzimləmə mexanizminə bu alətlər aiddir: güzəştli vergitutma qaydası nəzərdə tutulan vergi tənzimləməsi; sosial xidmət müəssisələrinin fəaliyyətinin müxtəlif səviyyəli büdcələrdən maliyyələşdirilməsi; büdcədənkənar maliyyələşdirmə mənbələrinin cəlb edilməsi. Sosial xidmətlər sisteminin effektivliyi çox cəhətdən, xidmətlərin istehlakçıları olan müştərilərdən asılıdır, çünki həmin müştərilər sosial xidmət müəssisəsinin fəaliyyətinin xarakterinə və nəticələrinə ciddi təsir göstərirlər. Müştərilərlə qarşılıqlı fəaliyyət təkcə sosial xidmətlər göstərilən vaxtda deyil, həm də vətəndaşların müraciətləri daxil olan vaxtda həyata keçirilir. Sosial müdafiə sahəsində çalışanların sayının artması sosial müəssisələrin sayının artması ilə, onların funksiyalarının dəyişməsi, müştərilərin kontingenti, göstərilən xidmətlərin çeşidinin genişlənməsi, demoqrafik və başqa amillərlə bağlıdır.

Həm dövlət miqyasında, həm də sahə səviyyəsində aşağıdakı istiqamətlər üzrə qanunvericilik aktları ilə hüquqi normalar müəyyən edilməsi nəticəsində hüquqi amillər sosial xidmətlərin və sosial müəssisələr fəaliyyətinin effektivliyinə birbaşa təsir göstərir:

- bütün ölkənin hüquq sisteminin, o cümlədən sosial xidmətlərin hüquq sisteminin fəaliyyətinin təkmilləşdirilməsi və etibarlılığı;
- sosial xidmətlər sahəsində qanunvericiliyin, cəmiyyətin və hüquqi qaydanın vəziyyətinə adekvat, zamanın tələblərinə, müştərilərin, əhalinin ehtiyaclarına uyğun olması üçün onun təkmilləşdirilməsi;
- sosial xidmətlərin fəaliyyətinin hüquqi təminatı;
- sosial xidmətlərin müştərilərin hüquqi müdafiəsi və s.

Sosial xidmətlərin effektivliyinə təsir göstərən sosial-demoqrafik amillərə aşağıdakı göstəricilər aiddir: doğum sayı, ölüm faizləri, xəstələnmələr, ömrün orta uzunluğu, əhalinin sıxlığı, miqrasiya prosesləri, əhalinin sosial mobilliyi, əhalinin müxtəlif kateqoriyalarının say tərkibi, həyat tərzi, vərdişlər, adətlər və s.

Məsələn, əhalinin yaş strukturunun dəyişməsi, doğum sayının və ölüm faizinin aşağı göstəriciləri sosial xidmətlərə daha çox ehtiyac duyan böyük yaş qruplarının sayının artmasına gətirib çıxarır. Demoqrafik amillər müxtəlif yaş qruplarının və sosial qrupların əhaliyə sosial xidmət müəssisələri tərəfindən təqdim edilən xidmətlərə ehtiyaclarının əhəmiyyətli dərəcədə diferensiasiyasına gətirib çıxarır. Müxtəlif rayonlarda, hətta ayrı-ayrı yaşayış məntəqələrində xidmətlərin ayrı-ayrı növlərinə tələbat prinsipial olaraq fərqlənir. Mədəni dəyərlər və münasibətlər, etik prinsiplər və standartlar, məqsədlər, ənənələr, inamlar, daim yenilik axtarışları, başqa ölkələrin təcrübəsindən istifadə və bu təcrübənin Azərbaycan şəraitinə, Azərbaycan müştərisinin dəyişən ehtiyaclarına uyğunlaşdırılması yekunda sosial xidmət müəssisələrinin fəaliyyətinin nəticələrində öz əksini tapır, effektivliyin artmasına və ya azalmasına imkan yaradır.

Elmi-texniki amillər sosial xidmətlərin effektivliyinə tətbiq edilən texnologiyalar, sosial xidmətlərin təqdim edilməsinin sürəti, informasiyanın toplanması, saxlanması və yayılması üsulları vasitəsilə təsir edir. Məsələn, sosial xidmət müəssisələrinin kompüterləşdirilməsi müştərilər haqqında informasiyanın böyük massivini saxlamağa, qısa müddətə lazımlı informasiyaya müraciət etməyə, xidmətlər göstərilməsi prosesinin operativliyini təmin etməyə imkan verir. Bütün sadalanan amillər nəticələrə həm birbaşa, həm də dolayı təsir göstərir, buna görə onlar birbaşa təsir amillərinə və dolayı təsir amillərinə bölünür. Birbaşa təsirin amillərinə qanunlar və dövlət tənzimləmə müəssisələri, müştərilər, təchizatçılar; dolayı təsir amillərinə - iqtisadiyyatın durumu, sosial, siyasi, demoqrafik dəyişikliklər və s. aiddir. Sosial xidmətin effektivliyinə təsir edən amillərin böyük bir qrupu təşkilat üçün daxili amillərdir. Bu qrupa sosial xidmətin hədəfləri, strukturu, vəzifələri, texnologiyalar və insanlar-kadrlar daxildir. Mənəvi və maddi stimullaşdırma arasında sıx qarşılıqlı əlaqə var. Biz hesab edirik ki, sosial sahə üzrə orta əmək haqqı – 479.65 manat olduğu halda sosial iş mütəxəssislərinin peşəsinin nüfuzunu yüksəltmək olmaz: bu, 2014-cü ildə respublika üzrə orta əmək haqqının 45.5%-inə bərabərdir. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə Azərbaycan Respublikasında səhiyyə işçilərinin orta əmək haqqı 197.8 manat, pedaqoji işçilərin orta əmək haqqı isə 298.0 manat olmuşdur.

Nəticə. Sosial xidmətin sosiotexniki sistem olmasını nəzərə alaraq, effektivlik amillərini iki qrupa bölürlər: obyektiv və subyektiv amillər. Obyektiv amillər qrupuna sosial xidmətin strukturu, hədəfləri, vəzifələri, texnologiyaları və işçi heyəti; təşkilatda insanların xarakteristikaları və münasibətləri ilə müəyyən edilən subyektiv amillər qrupuna isə sosial xidmətlə bağlı dəyərlər, sosial işin təşkilinin üslubu, heyətin bacarıqları və başqa amillər aid edilir.

Sosial müəssisəyə resursları dəyişdirən sistem kimi yanaşsaq, istehsal prosesinin mərhələsindən asılı olaraq, daxili amilləri üç yarımqrupa bölmək olar: 1) mövcud və müxtəlif səviyyəli büdcələrdən və xeyriyyəçilərdən alınan resurslarla bağlı istehsal amilləri; 2) istehsalat prosesi ilə, sosial xidmət müəssisəsinin fəaliyyəti ilə bağlı amillər; 3) bilavasitə xidmətlər göstərilməsi ilə bağlı amillər: göstərilən xidmətlərin həcmi; xidmətlərin çeşidi - göstərilən xidmətlərin müxtəlifliyi; xidmətlərin keyfiyyəti; xidmətlərin vaxtlı vaxtında göstərilməsi; xidmətlərin əlyetərliliyi; müştərilərin xidmətlərdən məmnunluğu; xidmətlərlə əhatə dərəcəsi; xidmətlər təqdim edilərkən yeniliklərdən istifadə[5,səh-242]; müştərilərlə qarşılıqlı anlaşma və s.

Effektivlik amillərinin yuxarıda nəzərdən keçirdiyimiz təsnifatı sosial xidmətin və sosial müəssisənin effektivliyinə təsir edən bütün amillər və onların qarşılıqlı təsiri haqqında ümumi təsəvvür yaradır.

Ümumiyyətlə, Azərbaycanda sosial xidmət sferasının səmərəliliyinin artırılması üçün aşağıdakı tədbirlər görülməlidir:

- bu sferanın tənzimlənməsinin səmərəliliyinin yüksəldilməsini mümkün edən, planlaşdırma, maliyyələşdirmə, stimullaşdırmanın müasir metodlarının reallaşdırılmasını təmin edən innovasiyaların tətbiqi;
- sosial xidmət subyektləri dairəsinin genişləndirilməsi, bu sferada problemlərin inno-

vativ həlli prosesinə QHT-lərin, sosial məsuliyyətli biznesin, əhalinin geniş təbəqələrinin cəlb edilməsi;
- sosial xidmət sferasının geniş informatizasiyası – informasiya resurslarının formalaşması və istifadəsi əsasında vətəndaşların, dövlət hakimiyyəti və yerli idarəetmə orqanlarının informasiya ehtiyaclarının ödənilməsi və hüquqlarının təminatı üçün optimal şəraitin yaradılmasının sosial-iqtisadi və elmi-texniki prosesi;
- sosial xidmətin fərdiləşdirilməsi, bu xidmətlərə olan tələbatın təşkilati forma və texnologiyalarının çeşidinin genişləndirilməsi və s.

Ədəbiyyat:

1. Rəhmanov F.P. Sosial sfera keçid iqtisadiyyatı şəraitində . Bakı.:, «Gənclik», 2011 353 s.

2. Nağıyev Ə.T. Sosial iqtisadi inkişafın metodoloji aspektləri, B., Azərnəşr, 2009, 296 s.

3. Rəhmanov F.P. Səhiyyə islahatının problemləri. Yerli özünüidarə məsələləri, Bakı:, Elm, 2008, 298 s.

4. Rəhmanov F.P. Azərbaycan Respublikasında sosial siyasətin aktual problemləri. «Azərbaycan Respublikasında iqtisadi İslahatlar: ilkin nəticələr, problemlər və perspektivlər». Beynəlxalq elmi-praktik konfransın materialları, Bakı, Ziya, 2003, 425 s.

5. Социальная защита населения. Под.ред. Н.М. Римашевской, М., РИЦ ИСЭПН, 2002, 288 с.

Abstract

THE METHODICAL CHARACTERISTICS OF THE EFFECTIVENESS OF SOCIAL SERVICES

Eyyub MUSAYEV

Ph.d. student of Scientific Research and Training Center on labour and social problems

Key words: sphere, market competition, competitiveness, indicator of competitiveness, national economy, economic regulation, economic resource

The article is dedicated to the the methodical characteristics of the effectiveness of social services. The article markes that problems on investigated field under the modern market economy. From this point of view realizing sustainable economic measures are very important in this branch.

The increasing of effectiveness level of delivering social services by demand of market economy in global scale is very important.

Резюме

МЕТОДОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ОПРЕДЕЛЕНИЯ ЭФФЕКТИВНОСТИ СОЦИАЛЬНЫХ УСЛУГ

Эйюб МУСАЕВ

Докторант НИУЦ по Труду и Социальным Проблемам

Ключевые слова: сфера, рыночная конкуренция, конкурентоспособность, показатель, народное хозяйство, экономическое регулирование, экономические ресурсы

Статья посвящена методологическим особенностям определения эффективности социальных услуг. В статье отмечается, что проблемы исследуемые в отрасли в условиях рыночной экономики является актуальным. Поэтому последовательное осуществление этих экономических мероприятий в данной отрасли является объективной необходимостью.

Повышение уровня эффективности оказания социальных услуг, соответствующих требованиям рыночной экономики является важной проблемой в мировом масштабе.

Наряду с этим , в данной статье на основе исследования выявлены упущения и недостатки, определены направления по их устранению в ближайшем перспективном периоде , а также даны научно-обоснованные выводы и предложения.

ALİ TƏHSİLLİ MƏZUNLARIN ƏMƏK BAZARINDA TƏLƏB VƏ TƏKLİFİNİN FORMALAŞMASINDA KARYERA MƏRKƏZLƏRİNİN, MƏŞĞULLUQ VƏ İŞƏDÜZƏLTMƏ İDARƏLƏRİNİN ROLU

Vüsal RZAYEV
Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmək və Sosial Problemlər üzrə Elmi Tətqiqat və Tədris Mərkəzinin dissertantı

Rəyçi: i.ü.f.d. N.T. Əmiraslanova
Açar sözlər: Əmək bazarı, ali təhsilli məzunlar, karyera mərkəzləri, Məşğulluq idarəsi, Qafqaz Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universitetində gənclər siyasəti, sosial müdafiə, iş təcrübəsi, özünüqiymətləndirmə

Giriş. Gənclər siyasəti Azərbaycanın dövlət siyasətinin mühüm tərkib hissəsidir. Bu ölkənin gəncləri ictimai həyatın bütün sahələrində öz aktiv fəaliyyətləri ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. "Gənclər siyasəti haqqında" 2002-ci il 9 aprel tarixli Qanunun "Gənclər siyasətinin məqsəd və prinsipləri" adlı 3-cü maddəsinin 3.1 bəndində göstərilir ki, "Azərbaycan Respublikasında gənclər siyasətinin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların imkan və bacarıqlarının reallaşdırılmasına, sosial problemlərinin həllinə və hüquqlarının müdafiəsinin təmin olunmasına kömək etməkdir" [1, s.1].

Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Belə ki, dövlət orqanlarına 2008-2011-ci illərdə işə qəbul edilənlərin 60 faizdən çoxunu 29 yaşınadək olan şəxslər təşkil etmişdir.

Ölkəmizdə gənclərin ali təhsil almalarına böyük diqqət yetirilir. Məsələn, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi nəzərdə tutulmuşdur. Bu günədək 1204 azərbaycanlı gənc ölkəmizin ehtiyac duyduğu sahələr üzrə müxtəlif təhsil səviyyələri üzrə dünyanın ən qabaqcıl universitetlərinə göndərilmişdir [2].

Hazırda, ali məktəbləri bitirmiş məzunlar onlar üçün yaradılmış bütün imkanlardan istifadə edir, bilik və bacarıqlarını iqtisadi-siyasi, mədəni və elmi quruculuğun bütün sahələrində tətbiq etməyə çalışırlar. "Gənclərin təhsil səviyyəsi ilbəil artır. 2013/2014-cü tədris ilinin əvvəlinə olan məlumata görə, Azərbaycanda 63 min tələbənin təhsil aldığı 57 dövlət və 1 qeyri-dövlət orta ixtisas təhsili müəssisəsi, tələbələrinin sayı 151 min nəfər olan 37 dövlət və 15 qeyri-dövlət ali təhsil müəssisəsi fəaliyyət göstərir. Xarici ölkələrdə təhsil alan Azərbaycan gənclərinin sayı da artmaqdadır. Son 7 il ərzində 3000-dən çox gənc "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində dünyanın qabaqcıl ali məktəblərinə göndərilmişdir" [3]. "2014/2015-ci tədris ili üçün "2007-

2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"na keçirilən müsabiqə nəticəsində dünyanın aparıcı ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanmış 573 tələbənin adı proqram təqaüdçüləri siyahısına daxil edilmişdir. Bu tələbələr Harvard, Oksford, HEC Paris, MDBMİ kimi ali təhsil müəssisələrindən məzun olmaqla, qısa bir müddətdə Azərbaycana dönərək müvafiq sahələrin davamlı inkişafına təminat verəcəklər. Azərbaycan üçün prioritet müəyyən olunan mühəndislik, tibb, informasiya texnologiyaları sahəsində istər yüksək TQDK göstəricilərinə malik, istər beynəlxalq olimpiada iştirakçıları, istərsə də, müsahibə zamanı yüksək bilik, xarici dil hazırlığı nümayiş etdirmiş 153 tələbə isə baza ali tibb və bakalavriat təhsil səviyyələrində təhsil almaq imkanı əldə etmişlər. Sevindirici haldır ki, ilk dəfə olaraq 9 nəfər kənd təsərrüfatı, 14 nəfər isə təhsilin təşkili və idarəolunması kimi vacib sahələr üzrə təhsil almaq hüququ qazanmışdır" [8].

Ali təhsilli məzunların işlə təminatı problemi. Qeyd etmək lazımdır ki, bütün yuxarıda qeyd olunanlarla yanaşı ali təhsilli insanların problemləri az deyildir. Yaxın keçmişə qədər tələbə olmuş gənclər bu gün yeni və sərbəst həyata qədəm basdıqda ixtisası üzrə işlə təminatda problemlər yaşayırlar. Gənclərin aldıqları ali təhsil onların heç də həmişə işlə təmin olunmasına kömək edə bilmir. Baxmayaraq ki, onlar buna cəhd edir, iş tapmaq üçün bəzi ünvanlara üz tutur, amma müəyyən çətinliklər onların işlə təmin olunmasını əngəlləyir. Belə ki, işə götürənlər onları təcrübələri olmadığını bəhanə edərək işə qəbul etmək istəmirlər. Ali məktəblərdə istehsalat təcrübəsinin həyata keçirilməsinə diqqət yetirilmədiyindən bu məsələ bütün çətinliyi və vacibliyi ilə daha qabarıq şəkildə üzə çıxır. Dünyanın bütün ölkələrində ali məktəbləri bitirmiş gənc məzunları əhalinin daha çox sosial cəhətdən asılı qrupuna aid edirlər. Əmək bazarının xüsusi seqmentinə çevrilmiş bu qrup aşağıdakı spesifik cəhətləri ilə diqqəti cəlb edir:

1. O, ali təhsilə malikdir. İş təcrübəsi yoxdur və ya kifayət qədər deyildir. İş axtarmaq vərdişləri zəifdir. Özünüqiymətləndirmə qənaətbəxş deyildir.

2. İşəgötürənlərin bu qrupa daxil olanların biliklərinə, şəxsi keyfiyyətlərinə, məzunu olduqları ali təhsilin təyinatına olan münasibətləri müxtəlifdir. Yeni işçilərin bilikli olması ilə yanaşı, fəal həyat tərzi, məlumatı əldə etmək və işləmək, yeni ideya və bilikləri bacarığına xüsusi diqqət yetirilir.

3. Müvafiq ali məktəb müəssisələri, normativ-qanunverici baza, o cümlədən əmək bazarının infrastrukturunu təşkil edən təşkilat və xidmətlər əmək bazarının həmin seqmentini nizamlayır və bu qrupun subyektlərinin əmək münasibətlərini müəyyən edir.

Ali məktəb məzunları arasında işsizliyin əsas səbəbləri sırasında onların ilk dəfə əmək bazarına daxil olmalarıdır. Sovet dönəmindəki təhsil sistemindən fərqli olaraq, 90-cı illərdən etibarən ali təhsil ocaqlarını bitirmiş şəxslər öz problemlərini müstəqil şəkildə həll etməli olurlar. Əmək bazarının qeyri-müəyyənliyi, vakansiyalar haqqında tam və dəqiq məlumatın olmaması, eyni sahələr üzrə həddən artıq məzunun cəmlənməsi o yerə gətirib çıxarır ki, gənc mütəxəssis məşğulluq mərkəzlərinin vasitəsilə işə düzəlməklə yanaşı, sərbəst şəkildə özünə iş axtarmağa da məcbur olur. Müəyyən hallarda isə o, qeyri-ixtisas sahəsində iş tapır və ya yeni ixtisası üzrə bilik əldə etmək məcburiyyətində qalır. Bu isə həm gənc məzunun, həm

də dövlətin və işə götürənin çoxlu miqdarda pul vəsaitinin xərclənməsi ilə nəticələnir. Uzun müddətli işsizlik və əmək bazarından uzaqlaşma ali təhsilli məzunun karyerası üçün neqativ nəticə göstərməklə yanaşı, onun peşə və sosial vərdişlərini zəiflədir, zəruri iş təcrübəsi qazanmasına maneçilik yaradır.

Qeyd etmək lazımdır ki, "abituriyentlərin də ixtisas seçərkən bazarda tələb olunan peşələri nəzərə almamaları nəticəsində dövlət və özəl müəssisələr kadr çatışmazlığı, gənclər isə işsizliklə üzləşirlər. Onların düzgün ixtisas seçərək gələcəkdə karyeralarını qura bilmələri üçün yaradıcılıq, rəqabət, yaşayış və iş şəraiti haqqında düşüncələri, intizamlı olmaq, gəlir, sosial imkanlar, qazanıla bilinəcək mükafatlar, sərbəstlik və müstəqillik və sair şərtləri nəzərə ala bilmələri vacibdir. Karyera seçiminə tələbənin kimliyi, əlaqələri, mədəni səviyyəsi də daxil edilməlidir" [4, s-43].

Ali təhsil sistemində belə bir vəziyyət formalaşmışdır ki, gəncləri peşə seçərkən onun nüfuzu deyil, gələcəkdə yaxşı əməkhaqqı ödənilən iş olması maraqlandırır.

Hazırda formal təhsil sistemi tərəfindən həyata keçirilən kadr hazırlığı ilə əmək bazarının kadrlara olan tələbatı arasında böyük disbalans mövcuddur. Digər tərəfdən isə bazar iqtisadiyyatının tələb etdiyi, lakin mövcud təhsil sistemi ilə əhatə olunmayan yeni peşə və ixtisaslar meydana gəlmişdir.

Azərbaycanın beynəlxalq əmək bölgüsünə inteqrasiyası, dünya ölkələri arasında əməkdaşlıq meyillərinin güclənməsi, iqtisadiyyatın dinamik inkişafı, yeni istehsal sahələrinin meydana gəlməsi əmək bazarında yüksək təhsil səviyyəsinə malik işçi qüvvəsinə olan tələbatı artırır. Bu isə öz növbəsində yüksək tələblərə cavab verən çevik təhsil siyasətinin həyata keçirilməsini zəruri edir. Azərbaycan Respublikasında 2006-2015-ci illər üçün hazırlanmış Məşğulluq Strategiyası təhsil sistemi ilə məşğulluğun əlaqəli inkişafı sahəsində aşağıdakıların həyata keçirilməsi sahəsində əmək bazarında yaranmış vəziyyətin təhlili və dəqiq proqnozlaşdırma aparmaqla müxtəlif ixtisaslı kadrlara olan tələbatın müəyyənləşdirilməsi; əmək bazarında rəqabət qabiliyyətli kadrların hazırlanması məqsədilə peşə təhsili sisteminin təkmilləşdirilməsi; iş yerində təhsilin davam etdirilməsi, fasiləsiz peşə təhsili sisteminin daha da təkmilləşdirilməsi, mütərəqqi təhsil formalarının (məsafədən təhsil, modul tədrisi) tətbiqi; təhsil sahəsində həyata keçirilən institusional dəyişikliklərin işəgötürənlərin işçi qüvvəsinin bacarıq və vərdişlərinə olan tələbatına uyğunlaşdırılması; texniki peşə təhsili üçün müasir tələblərə cavab verən təhsil proqramlarının hazırlanması və ixtisas təsnifatının yeniləşdirilməsi; orta təhsil sahəsində çalışan mütəxəssislər üçün ixtisasartırma və yenidən hazırlanma təhsilinin yeni modelinin tətbiqinin genişləndirilməsi; insan amilinin inkişafına yönəldilmiş investisiyaların cəlb edilməsi üçün imkanların müəyyənləşdirilməsi istiqamətlərini nəzərdə tutur.

Çoxlu miqdarda maddi vəsaitin sərf olunmasına baxmayaraq, ali təhsilli məzunların da işaxtaranların peşə hazırlığı, ixtisasının artırılması, yenidən hazırlığı fəal məşğulluq tədbirlərinin ən önəmlisidir. İşaxtaran və işsiz vətəndaşların peşə hazırlığı lazımi peşə və ixtisası olmadığına görə onlar üçün münasib iş seçmək mümkün olmadıqda, işaxtaranın peşə vərdişlərinə uyğun gələn iş olmadığı üçün öz peşəsini (ixtisasını) dəyişməsi zəruri olduqda,

eləcə də işaxtaran əvvəlki peşə (ixtisas) üzrə işləmək qabiliyyətini itirdikdə Məşğulluq Xidməti orqanları tərəfindən həyata keçirilir. İşaxtaran və işsiz vətəndaşların əmək bazarında rəqabətə davamlı peşə və ixtisaslara yiyələnməsi onların sosial adaptasiyasında mühüm əhəmiyyət kəsb edir. İşsiz vətəndaşların əmək bazarında münasib işlə təmin edilməsi daha çox onların müasir tələblərə cavab verən peşələr və ixtisaslar üzrə hazırlıq işinin təşkilindən asılıdır.

"Dövlət Statistika Komitəsinin 2007-ci il aprelin 1-nə olan məlumatına görə, 534962 yeni iş yeri açılmış və bu iş yerlərinin əksəriyyəti qeyri-neft sektorunu və 82 faizi regionları əhatə etmişdir. 2006-cı il üzrə iqtisadi fəal əhalinin ümumi sayı 1995-ci ilin səviyyəsinə nisbətən 10,6 faiz artmışdır. Bu dövr ərzində özəl sektorun və sahibkarlığın inkişafı nəticəsində qeyri-dövlət sektorunda işləyənlərin sayı 1,7 dəfə artmışdır" [5]. Bu sahədə çalışanların müəyyən hissəsini hətta peşə və ixtisasına uyğun olmasa da, ali məktəbləri bitirmiş gənclər təşkil edir. Azərbaycanda mövcud ictimai-siyasi sabitlik zəminində iqtisadi, sosial və digər sahələrdə uğurlu islahatların həyata keçirilməsi, o cümlədən məşğulluğun, əsasən də gənclərin məşğulluğunun inkişafı ilə bağlı görülən tədbirlər beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilmişdir. Məhz bu səbəbdən "Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq çərçivəsində 2006-2009-cu illər üçün Layiqli Əməyin Təminatı üzrə Ölkə Proqramı" qəbul edilib. Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdən yeganə dövlətdir ki, Beynəlxalq Əmək Təşkilatı tərəfindən gənclərin məşğulluq problemlərinin həllində dünyada 10 lider ölkə sırasına daxil edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin, tədris bazası olan müəssisə və təşkilatların, eləcə də Məşğulluq Mərkəzlərinin bazasında peşə hazırlığı kursları təşkil edilir. İxtisas seçimində düzgün və əmək bazarının tələbinə cavab verən ixtisaslara üstünlük verilməməsi nəticəsində daha çox ehtiyac duyulan peşələr diqqətdən kənarda qalır.

Xarici dilləri mükəmməl bilən, informasiya-kommunikasiya texnologiyaları ixtisaslarına yiyələnmiş və beynəlxalq diplomatik təcrübəni yaxşı mənimsəmiş yüksək hazırlıqlı mütəxəssislərə olan tələbatın ödənilməsi zərurəti artıb. Bir çox universitetlər öz tələbələrini hələ ali məktəbi bitirmədən iş bazarı ilə tanış etməyə çalışır, onlara gələcək həyatlarında lazım olacaq peşə vərdişləri aşılamağa, bilik və bacarıqlarını yüksəltməyə çalışırlar. Ali təhsil müəssisələrində fəaliyyət göstərən karyera mərkəzləri və gənclər mərkəzləri bu sahədə ətraflı iş aparmağa çalışırlar. Məzun və tələbələr üçün məşğulluq xidməti əksər universitet və ali təhsil müəssisələri nəzdində fəaliyyət göstərirlər. Müxtəlif kadr agentliklərinin təklif etdikləri çoxsaylı vakansiya elanlarına baş vurmaqdan öncə doğma təhsil ocağının təklifləri ilə tanış olurlar. Çünki bu halda onlar əmək bazarı haqqında geniş məlumat əldə edirlər. Adətən, belə təkliflər "kənar şəxslər" üçün nəzərdə tutulmur. Bu halda onların ən qısa yolla uğurlu iş tapmaq şansları artır. Bununla yanaşı bəzi karyera mərkəzləri digər universitet tələbə və məzunları üçün də məlumatlar açıqlayırlar.

Karyera və işədüzəltmə idarələrinin rolu. Hazırda, Azərbaycanda fəaliyyət göstərən Qafqaz Universiteti iş dünyası ilə əlaqələrini inkişaf etdirmək üçün istər dövlət, istərsə də özəl sektora aid qurumlarla mütəmadi olaraq görüşlər keçirir. Bu görüşlər istənilən tərəfin

təklifləri əsasında baş tuta bilər. Belə görüşlərdə həm universitetin, həm də müəssisə və ya şirkətin maraqlarını əks etdirən razılaşmalar əldə edilir. Həmin razılaşmalar əsasında gələcəkdə Universitet-İş Dünyası əlaqələri müxtəlif formada həyata keçirilən fəaliyyət sahələrimizdə öz əksini tapır. Universitetdə bir neçə ildir fəaliyyət göstərən Karyera Planlama Mərkəzi tərəfindən, "Karyera günləri" keçirilir. Tələbələrin elm, iş və siyasət dünyasının tanınmış şəxslərinin təcrübələrindən istifadə edə bilmələri, bununla yanaşı şirkət və ya müəssisələrin kadrların hazırlanması şöbələri ilə əlaqələrinin inkişaf etdirilməsi məqsədi ilə tədris ilinin müvafiq zamanlarında uyğunlaşdırılmış Karyera günləri (seminar-konfranslar) təşkil edilir. Bu görüşlərin təşkili məsələlərində də (görüşün plan-proqramının hazırlanması, görüşün ümumi təşkili, mətbuatla əlaqələri və s.) və planlı şəkildə tələbələrdən istifadə edilir [6].

Fərdi şəkildə aparılan karyera planlaşdırılması tələbələrə yanaşmanın fərdi şəkildə baş tutan formasıdır. Burada hər bir tələbənin seçdiyi ixtisas sahəsinə uyğun olaraq müəyyənləşdirdiyi hədəfləri onun maraq və xarakterinə uyğun şəkildə qiymətləndirilir. Bu dəyərləndirmədə istəkli tələbələrə karyera testi də tətbiq oluna bilər. Yuxarı kurs tələbələri ilə əlaqənin gücləndirilməsi məqsədi ilə, həmin tələbələrin qrup (sinif) kuratorlarının dəstəyinə əhəmiyyət verilir.

Hər ixtisas üzrə xüsusi qabiliyyətli, həmçinin çalışqan tələbələr müəyyən edilərək, mövcud potensialın daha səmərəli dəyərləndirilməsi üçün müxtəlif fəaliyyətlər həyata keçirilir. Bununla yanaşı, kurslar, yay məktəbləri, qış məktəbləri kimi əlavə imkanlarla zəif tələbələrin səviyyəsinin yüksəldilməsi təmin edilir.

Tələbələr tədris müddətində xüsusi təyin olunmuş seminarlarda CV hazırlama və işə müraciət qaydaları haqqında maarifləndirilirlər. Ehtiyac olduğu təqdirdə bu cür məlumatlar Karyera Planlama Mərkəzində fərdi şəkildə də verilə bilər. Maarifləndirmə prosesində nümunələrdən əyani şəkildə istifadə edilir. Tələbələr tərəfindən hazırlanmış ilkin CV və ya digər işə müraciət formaları yoxlanılaraq dəyərləndirilir. Lazım gəldiyi təqdirdə əlavə məlumatlar da verilir.

İşə götürən tərəflərə kadr seçimində şəffaf imkanlar verilir. Bunun üçün işə götürən tərəfin istəyinə uyğun olaraq imtahanların və müsabiqələrin təşkili təmin edilir. Yay məktəbləri, xarici ölkələrdə qrup halında gəzintilərin təşkili, xaricdə təcrübə, xaricdə iş, təhsilin xaricdə davam etdirilməsi və s. kimi imkanlar haqqında məlumatlandırma, eləcə də bu işlə məşğul olan müxtəlif firmalarla əlaqələndirmənin təşkilində tələblərə dəstək verilir.

Universitetdə tələbələrə Könüllü Karyera Proqramı da təqdim edilir.Təhsillərinə davam edərkən könüllü olaraq işləmək istəyən tələbələrin müəyyən yoxlamadan və görüşlərdən sonra, perspektivli layihələrdə iştirak etməklə iş dünyasının tələblərinə praktik olaraq yiyələnmələri təmin edilir.

Davamlı olaraq müxtəlif vasitələrlə ("İş Dünyası" bülleteni vasitəsilə, e-mail qrup elanı ilə, Məzun Koordinasiya Şöbəsinin məzunlarla əlaqələrindən faydalanaraq, birbaşa məlumat verməklə, qrup kuratoru və ya müvafiq kafedranın əməkdaşlarının (varsa) əlaqələrindən faydalanaraq, panolarda verilən elanlar vasitəsilə və s.) CV portallarından müəyyən olunmuş

uyğun iş pozisyonlarını müvafiq məzunlara bildirir və lazım gəldiyi təqdirdə həmin iş yerlərinin idarəçiləri görüşərək, məzunların işlə təmin olunmalarında önəmli rol alır.

Hər tədris ilində ən azı bir dəfə olmaqla şirkət və müəssisələrin iştirakı ilə əmək yarmarkası təşkil edilir. Bundan başqa Universitetdən kənarda keçirilən əmək yarmarkaları və sərgilərdə yaxından iştirak edilir.

Dövrü olaraq (əsasən ayda bir dəfə) İş Dünyası bülleteni hazırlanaraq nəşr etdirilir. Bülleten istər iş dünyasına, istərsə də tələbə və ya məzunlara pulsuz çatdırılır. Bülletendə yayınlanan məlumatlar tələbə və məzunların karyera planlamasında əhəmiyyətli rol oynamaqla, universitetlə iş dünyası arasında əlaqəni də inkişaf etdirir.

Bakı Dövlət Universitetində 2014-2015-ci tədris ilindən savadlı, bacarıqlı və hazırlıqlı tələbələrdən ibarət "Sabah" qrupları fəaliyyət göstərməyə başlayıb. Universitetdə 12 ixtisası əhatə edən bu qruplarda 249 tələbə təhsil alır. Fizika müəllimliyi, riyaziyyat müəllimliyi, kimya müəllimliyi, kimya, hüquqşünaslıq, beynəlxalq münasibətlər, kompüter elmləri, geologiya, coğrafiya, coğrafiya müəllimliyi, tarix və tarix müəllimliyi ixtisasları üzrə xüsusi tərtib olunmuş tədris planları əsasında təhsil alan tələbələr müasir avadanlıqlarla təchiz olunmuş auditoriya və laboratoriyalarda dərs keçirlər. Eyni zamanda kimya və beynəlxalq münasibətlər və iqtisadiyyat fakültələrində SABAH qrupunun ingilis dilli bölməsi də fəaliyyət göstərir. "Sabah" qruplarının koordinasiyasını təmin etmək məqsədi ilə universitetdə Sabah Mərkəzi yaradılıb. Mərkəz tərəfindən Azərbaycan gənclərinə yeni imkanların yaradılması, onların fərdi və peşəkar inkişafına dəstək vermək məqsədilə tələbələr üçün mütəmadi olaraq konfranslar, görüşlər, yerli və əcnəbi müəllimlərin mühazirələri təşkil olunur, əmək bazarı ilə daimi bağlılıq yaradılması üçün biznes nümayəndələrinin iştirakı ilə "dəyirmi masa"lar keçirilir.

Bakı Dövlət Universitetində eyni zamanda Karyera Mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsas iş prinsipi tələbələrin gələcək karyera qurmalarında yardımçı olmaqdır. Ölkəmizdə fəaliyyət göstərən dövlət və özəl müəssisələrin universitetlə sıx əməkdaşlığı bu işin reallaşmasına müsbət təsir edir. Belə ki, həmin müəssisələrin məsul əməkdaşları mütəmadi olaraq universitetdə tədbirlər təşkil edir, müxtəlif ixtisaslara uyğun vakansiyalar barədə məlumatlar verirlər. Rəsmi veb səhifələrində tədbirlər və iş elanları barədə ətraflı informasiyalar əksini tapır. Bu imkanlardan yararlanmaq istəyən müəssisələr Universitetdə iş təklifləri ilə bağlı tədbirlər təşkil edə bilir və ixtisaslarına uyğun işlə təmin olunmaq istəyən tələbələr bu xidmətdən faydalanırlar [7].

Azərbaycan Dövlət İqtisad Universitetində Karyera Mərkəzi 2008-ci ildə yaradılmışdır. Mərkəz Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Beynəlxalq Əmək Təşkilatının birgə layihəsidir.

Gənclər üçün Karyera Mərkəzinin yaradılmasında başlıca məqsəd gənclərin bilik, praktiki bacarıq və vərdişlərinin artırılması, onların məşğulluq problemlərinin həll edilməsi üzrə kompleks təşkilati, texniki, informasiya, konsaltinq, tədris və maarifləndirmə tədbirlərinin həyata keçirilməsidir.

Mərkəzin fəaliyyət istiqamətlərinə tələbələrin məlumat bazasının hazırlanması;

tələbələrin inkubasiya mexanizminin hazırlanması; "Gənclər üçün Karyera Mərkəzi"nin internet portalının yaradılması və idarə olunması, gənclər üçün əmək yarmarkalarının təşkil edilməsi və keçirilməsi,analitik qrupların yaradılması, biznes layihələrin hazırlanması və konsaltinq xidmətlərinin təşkili, ali məktəblərdə Mərkəzin nümayəndələrinin (tyutorlar) müəyyən edilməsi kimi proseslər daxildir.

Respublika Məşğulluq Xidməti orqanları tərəfindən əmək bazarının real tələbləri nəzərə alınaraq qısa müddətli, çevik tədris proqramları əsasında işaxtaran və işsiz əhalinin peşə hazırlığına, yenidən hazırlığa və ixtisasının artırılmasına cəlb edilməsi və təhsilini başa vurduqdan sonra onların münasib işlə təmin olunması həyata keçirilir.

Ali təhsil almış gənclərin işlə təmin olunmalarına müxtəlif müəssisə, təşkilat və cəmiyyətlərdə yaradılan işədüzəltmə mərkəzlərinin rolunu da danmaq olmaz. Məsələn, 2015-ci ilin sentyabrında "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində Gənclər Mərkəzi yaradılıb. Bu addım "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin gənc əməkdaşları ilə Dövlət Dəniz Akademiyasının tələbələri arasında əlaqələrin gücləndirilməsi, onların təhsilə, sosial və mədəni sahələrə yönəlmiş layihələrdə iştirakı, eləcə də təcrübə proqramlarının, ekskursiyaların, iməcliklərin, əmək yarmarkalarının təşkili yolu ilə gənclərin gələcək karyeralarının qurulmasına kömək məqsədi daşıyır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən işsiz və işaxtaran vətəndaşlar üçün təşkil olunan əmək yarmarkaları tez-tez təşkil olunur ki, buraya da çoxlu sayda ali məktəbləri bitirmiş gənc insanlar cəlb olunur. İşəgötürənlərin nümayəndələrinin də iştirak edəcəyi yarmarkalarda müxtəlif rayonların iqtisadi təsərrüfat sahələri üzrə boş (vakant) iş yerləri işsiz və işaxtaran vətəndaşlara təklif edilir. Tədbirlərdə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən ali təhsilli gənc mütəxəssislər üçün də kvota üzrə iş yerlərinin təqdim olunması, peşə hazırlığı və əlavə təhsil kurslarına, ödənişli ictimai işlərə cəlb olunmaq istəyənlərin qeydiyyatının aparılması da nəzərdə tutulur. 2015-ci ilin sentyabrınadək olan müddət ərzində "Məşğulluq Xidməti tərəfindən respublikamızın 43 rayonunda keçirilən əmək yarmarkalarında ümumilikdə 3337 nəfərə boş iş yerlərinə göndəriş verilib, 377 nəfər peşə hazırlığı və əlavə təhsil kurslarına, 179 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmaq üçün qeydiyyata alınıb"[8, s.3].

Azərbaycan Dövlət Neft Şirkətinin də gənclər arasında xüsusi populyarlıq qazanmış "Daxili Universitet Tələbələri üçün nəzərdə tutulan Təqaüd" müsabiqələrində minlərlə tələbə iştirak edir. "İndiyədək keçirilmiş 15 seçim müsabiqəsində Azərbaycan universitetlərinin 10 minə yaxın əlaçı tələbəsi iştirak etmiş, onlardan 1258 tələbə təqaüdə layiq görülmüşdür. Qeyd etmək istəyirəm ki, həm xaricdə təhsil üzrə təqaüd proqramının, həm də ölkədaxili təqaüd müsabiqələrinin qalibləri şirkət rəhbərliyinin daimi qayğısı ilə əhatə olunurlar. 2009-cu ildən etibarən təhsilini təqaüdçü kimi başa vuran məzunlarla yanaşı təqaüd müsabiqələrində fərqlənənlərə də işə qəbul zamanı üstünlük verilir. İndiyədək 144 nəfər bu yolla işə qəbul olunmuşdur. Yataqxanaya ehtiyacı olanlar yataqxana ilə təmin olunur və mənzil növbəsinə götürülürlər. Şirkət eyni zamanda gənc mütəxəssislərin hazırlanması, yerləşdirilməsi, karyera yüksəlişi məsələləri daim diqqət mərkəzində saxlayır. Aparılmış məqsədyönlü işlər

nəticəsində Şirkət üzrə kadrların keyfiyyət tərkibində müsbət dəyişikliklər baş vermiş, qısa müddət ərzində işçilərin ümumi sayında gənclərin xüsusi çəkisi artmışdır [9].

Nəticə. Lakin görülən bu işlər ali təhsilli məzunların əmək bazarında işlə təminatına kifayət etmir. Qeyd etmək lazımdır ki, "2003-cü ilin may-iyun aylarında BMT-nin İnkişaf Proqramının maliyyə dəstəyi və Beynəlxalq Əmək Təşkilatının texniki yardımı ilə ölkənin bütün ərazisində əhalinin iqtisadi fəallıq məsələləri üzrə ilk dəfə keçirilmiş müşahidənin nəticələrinə görə, işsizlərin ümumi sayında 35 yaşınadək olan vətəndaşların payı 69,1 faiz olmuşdur. 20-24 yaşlı iqtisadi fəal gənclər arasında işsizliyin ən yüksək səviyyəsi (23,8 faiz) qeydə alınmışdır" [5].

2013-cü ilin məlumatına görə "Bütün dünyada 14-24 yaşlı gənclərin yalnız 43%-i, Azərbaycanda isə 24,4%-i işləyir. Ölkə üzrə gənclər arasında işsizlik 10,9% təşkil edir. 123 min işsiz gəncdən 13,9%-i ali təhsilli, 54,6%-i isə orta təhsillidir." [9]"2013-cü ildə "Əhalinin iqtisadi fəallığına dair" keçirilən müayinələrin yekunlarına əsasən, 15-29 yaşlı gənclərin 1239,8 min nəfəri iqtisadi fəal olmuş, onların 1116,8 min nəfəri iqtisadi əmək fəaliyyəti ilə məşğul olmuşdur. Müayinənin yekunlarına görə, 15-29 yaşlı gənclər arasında işsizlərin sayı 123 min nəfər olmuşdur" [3].

Sözü gedən problemin aradan qaldırılması üçün Azərbaycanda bir sıra dövlət proqramları həyata keçirilir. "Yoxsulluğun səviyyəsinin aşağı salınması üzrə dövlət proqramı", "Regionların inkişafı üzrə dövlət proqram"ları çərçivəsində kənd təsərrüfatı və fermerlərə dəstək, yeni iqtisadi infrastrukturların yaradılması və digər regional layihələr həyata keçirilir. Ölkə üçün əhəmiyyət kəsb edən bəzi ixtisaslara (kənd təsərrüfatı, yüksək texnologiyalar və s.) maraq çox zəifdir. Ali təhsil alanların çox az qismi regionlarda işləməyə meyil göstərir. Bu baxımdan, təhsil sisteminin, ölkə iqtisadiyyatının tələblərinə uyğunlaşdırılması günümüzün zərurətinə çevrilmişdir.

Bu gün Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi və yeni iş yerlərinin açılması siyasəti nəticəsində işsizlik MDB məkanında ən aşağı səviyyədədir."2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"na əsaslanaraq ali təhsil müəssisələrinin məzunlarının işlə təmin olunması ilə bağlı mövcud vəziyyəti təhlil edərək söyləmək mümkündür ki, "Ali təhsil müəssisələrində ölkənin hazırkı və perspektiv iqtisadi inkişaf istiqamətlərinə uyğun olan və əmək bazarının tələblərini nəzərə alan ixtisasların tədrisinə ehtiyac yaranmışdır" [3].

Yalnız yerində və vaxtında bu məsələnin həlli "insan kapitalın"dan düzgün istifadəyə kömək edəcəkdir. Bütün bunlar göstərir ki, Ali təhsilli məzunların əmək bazarında tələb və təklifinin formalaşmasında karyera mərkəzlərinin, məşğulluq və işədüzəltmə idarələrinin rolu böyükdür. Xüsusi ilə də fəaliyyət göstərən ali təhsil müəssisələrinin hər birində, dünya praktikasından istifadə etməklə Karyera Mərkəzlərinin qurulması vacib məsələdir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikasının "Gənclər siyasəti haqqında" 2002-ci il 9 aprel tarixli Qanunu. Maddə 3. Gənclər siyasətinin məqsəd və prinsipləri)//Azərbaycan.-2002.-9 aprel.- S.1.

2. http://www.azerbaijans.com/content_1598_az.html
3. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası ...-www.president.az
4. Dalkıranoğlu M. Mezun Öğrencilerin Kariyer Algılamaları: Anadolu Üniversitesi Örneği //Anadolu Üniversitesi Sosyal Bilimler Dergisi. Cilt/Vol.: 13 - Sayı/No: 1 (41-52)-S.43.
5. Məşğulluq Strategiyası - Azərbaycan Respublikası Dövlət Məşğulluq ...-www.ses.gov.az
6. http://www.qu.edu.az/az/pages/Career-Planning-Center-76.html
7. http://bsu.edu.az/az/content/karyera_mrkzi_new
8. Dövlət Məşğulluq Xidməti Zərdab və Qəbələ rayonlarında əmək yarmarkaları keçirəcək // Azərbaycan.-2015.-29 sentyabr.-S.3.
9. İKİ SAHİL | Gündəlik ictimai-siyasi qəzet - Rövnəq Abdullayev ...-www.ikisahil.com
10. Əliyeva Y., Rəhimzadə N. ARDNŞ-in prezidenti gənclərlə görüşdü // İki sahil.-2013.-4 fevral.-S.2.
11. Mustafayev S. Ölkədə işsizliyin səviyyəsi ildən-ilə azalır //Vergilər.-2015.-3 oktyabr.-S.2.
12. Vəliyev D. Biliklərə əsaslanan iqtisadiyyatı qurmayan, insan kapitalını inkişaf etdirməyən dövlətlər axırıncı yerlərdən birini tutacaqlar // Palitra .-2010.- 15 oktyabr.- S. 6.

Abstract

THE ROLE OF CAREER CENTERS AND EMPLOYEMENT AGENCIES IN THE FORMATION OF DEMAND AND SUPPLY IN LABOR MARKET FOR COLLEGE GRADUATES

Vusal RZAYEV
Ph.d. student of Center for Research and Training on Labor and Social Issues, Ministry of Social Protection of Population and Labor

Key words: labor market, highly educated graduates, career centers, Employment department, Qafqaz University, Baku State University, Youth policy in Azerbaijan State Economic University, social protection, work experience, self-assessment

The article investigates role of career centers and employement agencies in the formation of demand and supply in labor market for college graduates. Today the young are employed in state agencies, municipalities, business entities and other fields and contribute to the development of society. However, higher education does not always help with employement. A number of state programs are approved for the solution of employement problem of the youth, especially college graduates.

Резюме

РОЛЬ ЦЕНТРОВ КАРЬЕРЫ, УПРАВЛЕНЧЕСКИХ ПРЕДПРИЯТИЙ ЗАНЯТОСТИ В ФОРМИРОВАНИИ ТРЕБОВАНИЙ И ПРЕДЛОЖЕНИЙ НА ТРУДОВОМ РЫНКЕ ВЫПУСКНИКОВ С ВЫСШИМ ОБРАЗОВАНИЕМ

Вусал РЗАЕВ

Диссертант Центра Научного Исследования и Обучения по Трудовым Социальным проблемам, Министерство Социальной защиты Труда и Населения

Ключевые слова: Рынок труда, выпускники высших учебных заведений, центры карьеры, Кавказский Университет, Бакинский Государственный Университет, Азербайджанский Государственный Экономический Университет, молодежная политика, социальная защита, опыт работы, самооценка

Особенностью рынка труда выпускников вузов выступает сложно-составной характер его субъектов. Субъектом на сегменте рынка труда выступает высшее учебное заведение, реальный сектор экономики, бизнес, научно-исследовательские структуры (институты, центры), государственная служба и вузы.Современные работодатели обращают внимание не просто на уровень образования, но и на то, в каком учебном заведении образование получено, какова форма обучения. Чтобы помочь молодым выпускникам в Азербайджане проводятся различные мероприятия со стороны государства.

VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARIN SIĞINACAQ TİPLİ MÜƏSSİSƏLƏRƏ YERLƏŞDİRİLMƏSİNİN SOSİAL-İQTİSADİ SƏBƏBLƏRİ

Aysel QASIMOVA
Azərbaycan Universiteti
Sosial İş fakültəsinin dekan müavini/ müəllimi

Rəyçi: i.ü.f.d. Aygün Musayeva
Açar sözlər: valideyn himayəsindən məhrum olmuş uşaqlar, valideyn himayəsindən məhrum olmuş uşaqların yerləşdirildiyi müəssisələr, uşaqların dövlət uşaq müəssisələrində yerləşdirilməsinin sosial-iqtisadi səbəbləri, Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)

Araşdırmalar göstərir ki, uşaqların böyüməsi və inkişafı, bir şəxsiyyət kimi formalaşması kifayət qədər mürəkkəb, ağrılı problemdir. Bu prosesdə uşaqların bir qismi müxtəlif çətinliklərlə üzləşir. Valideyn himayəsindən məhrum olmuş uşaqların müəyyən hissəsi sığınacaq tipli müəssisələrdə yaşamalı olur. Ona görə də uşaq müəssisələrində yerləşdirilməni şərtləndirən başlıca sosial-iqtisadi səbəblərin müəyyənləşdirilməsi həmin uşaqlara münasibətdə sosial siyasətin işlənib hazırlanması baxımından ciddi elmi-nəzəri və praktik əhəmiyyət kəsb edir. Aparılmış araşdırmalar həmin səbəblərin aşağıdakı başlıca qruplarını müəyyənləşdirməyə imkan verir:

1. Ailələrin maddi vəziyyətinin pis olması. Elmi ədəbiyyatda yoxsulluq maddi və sosial resursların çatışmazlığı səbəbindən insanları cəmiyyət həyatında fəaliyyətini məhdudlaşdıran bir hal kimi qeyd olunur və nisbi və ifrat yoxsulluq növlərinin olması vurğulanır. Ümumiyyətlə qeyd etmək lazımdır ki, Təhsil Nazirliyi nəzdində De-İnstitutlaşdırma və Uşaqların Müdafiəsi İdarəsi və YUNİCEF-in 2009-cu ildə respublikamızda mövcud 55 uşaq müəssisəsində apardığı tədqiqatın nəticələrinə əsasən, ölkədə uşaqların dövlət uşaq müəssisələrinə düşmə səbəblərinin ən əsasını, məhz ailənin maddi vəziyyətinin pis olması təşkil edib. Belə ki, müəssisədə yaşayan uşaqların 47.1%-i (1909 uşaq) ailəsinin maddi durumunun qənaətbəxş olmaması səbəbindən müəssisələrə yerləşdiriliblər [1, səh-20]. İmkansızlıq nəticəsində ailələri tərəfindən uşaq müəssisələrinə verilən uşaqların əksəriyyəti burada tək deyil, ya bacıları, ya da qardaşları ilə birgə yaşayır [2, səh-7].

Ailələrin maddi vəziyyətinin pis olması səbəbinin rayon və şəhər nisbətinə baxdıqda məlum olur ki, burada qeyri-mütənasiblik yoxdur, yəni rayonlardan və şəhərlərdən yoxsulluğa görə ailələrin öz uşaqlarını dövlət uşaq müəssisələrinə yerləşdirmə dərəcəsi eynidir. Valideynlərin işləməməsi səbəbi ilə uşaqlarını müəssisələrə verənlər arasında ölkənin şimal-qərb zonasında yaşayan ailələr nisbətən çoxluq təşkil edir [1, səh-20].

2. Uşağın xüsusi təhsilə ehtiyacının olması. Uşaqların dövlət uşaq müəssisələrinə yer-

ləşdirilmələrinin səbəbləri araşdırılarkən, müəssisəyə yerləşdirilmiş uşaqlardan 30.1% (yəni, 1219 uşaq) nəfərin xüsusi təhsilə ehtiyacının olması üzə çıxmışdır [6, səh-20]. Beləliklə, xüsusi təhsilə ehtiyac uşaqların müəssisələrə yerləşdirilməsinin ikinci böyük səbəbidir.

Təhsil Nazirliyinin 2009-cu ildə apardığı araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, son illərdə ümumtəhsil internat məktəblərinə təhsil almaq üçün müraciət edən uşaqların sayı həyata keçirilən profilaktik tədbir sayəsində xeyli azalmışdır. Sorğuda iştirak edən respondentlər buna əsas səbəb kimi, ucqar kənd yerlərində də yeni məktəblərin istifadəyə verilməsini və bölgələrdə orta məktəblərin çatışmayan pedaqoji kadrlarla təmin olunmasını qeyd etmişlər [1, səh-23]. Yekun olaraq qeyd etmək lazımdır ki, son illərdə ümumtəhsil internat məktəblərinə təhsil almaq üçün müraciət edən uşaqların sayında azalmalar müşahidə olunsa da, aparılan tədqiqatlar xüsusi təhsilə ehtiyacın olması uşaqların internat müəssisələrinə yerləşdirilməsinin 2-ci əsas səbəbi olduğunu üzə çıxarmışdır.

3. Uşağın sağlamlıq imkanlarının məhdud olması. Qeyd etmək lazımdır ki, 2009-cu ilin statistik göstəricilərinə əsasən, müəssisələrdə yaşayan uşaqların 38%-i (1527 uşaq) sağlamlıq imkanları məhdud olan uşaqlardır. Bunlardan 17.4% (706 nəfər) uşaq əqli problemli, 2.9% (118 nəfər) uşaq isə dayaq-hərəkət aparatının funksiyalarında pozuntuları olanlardır. Həmin uşaqlardan 298 nəfərinin isə iki və ya daha artıq əlilliyi var [2, səh-7]. YUNİCEF və Dünya Bankının apardığı araşdırmalar cəmiyyətdə "sağlamlıq imkanları məhdud uşaqların yalnız müəssisələrin təmin edə biləcəyi ixtisaslaşdırılmış qayğıya ehtiyacı var" stereotipinin mövcud olduğunu aşkara çıxarmışdır [3].Əslində isə, "sağlamlıq imkanları məhdud" adlandırılan uşaqların heç də hamısı əlillik statusuna malik deyil. Məsələn, dovşanağız kimi kiçik fiziki problemi sadə cərrahiyyə müdaxiləsi ilə aradan qaldırmaq mümkündür. Hətta sağlamlıq imkanları məhdud uşaqların da bizim kömək və diqqətimiz sayəsində layiqli həyat tərzi keçirməsi üçün mövcud qabiliyyətlərinin inkişaf etdirilməsi mümkündür [3].

4. Tənha ana/ata. Uşaqların müəssisələrə yerləşdirilməsinin səbəblərindən biri də ana və ya atanın tənha olmasıdır.Qiymətləndirmə göstərir ki, 1142 (28.2%) uşağın dövlət uşaq müəssisələrinə düşməsinə səbəb, yeganə himayəçisinin daimi iş yerinin olmaması və ya günün çox hissəsinin işdə olması, eyni zamanda, aztəminatlı olmasıdır [1, səh-20].

5. Valideynlərin boşanması. İlkin təyinat baxımından valideynlərini itirmiş uşaqlar üçün nəzərdə tutulmuş uşaq evlərində və internat məktəblərində atalı-analı uşaqların sayı üstünlük təşkil edir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, valideynlərin boşanması uşaqların müəssisələrə düşməsinin əsas səbəblərindəndir. Belə ki, boşanma prosesi zamanı, əksər hallarda, məhkəmə uşağın qanuni himayədarlığı üzrə səlahiyyətləri anaya verir. Ana isə maddi imkansızlıq və ya ikinci dəfə ailə qurduğı təqdirdə, yeni ailə üzvlərinin onun ilk nigahından olan övladını qəbul etmədiyi üçün uşağı müəssisəyə yerləşdirməli olur. Azərbaycan Respublikası Təhsil Nazirliyi və YUNİCEF-in Azərbaycanda uşaq müəssisələrinin qiymətləndirməsi üzrə birgə keçirdiyi araşdırmaya əsasən, 2009-cu ildə 20.6% (836 uşaq) valideynlərin boşanması səbəbindən müəssisəyə yerləşdirilib [1, səh-20].

6. Valideynin işləməməsi. Qeyd etmək lazımdır ki, valideynin işsizliyi ailə büdcəsinin məhdudluğuna, nəticədə isə uşağı ailədə böyütmək üçün maddi imkanın olmamasına gətirib çıxarır. Təhsil Nazirliyi 2009-cu ildə ölkəmizdəki müəssisələrdə yaşayanu şaqların 19.6%-nin məhz, valideynlərinin işsizliyi ucbatından və ağır maddi durumda ailəyə kənardan sosial-iqtisadi dəstəyin olmaması və yaxud bu dəstəyin zəifliyi səbəbindən yerləşdirildiyini müəyyən etmişdir [1, səh-20]. Tədqiqatların nəticəsinə əsasən, valideynin xəstəliyi üzündən işləməməyi 796 (19.6%) uşağın müsəssisələşməsi ilə nəticələnib [1, səh-20].

7. Valideynlərdən birinin və ya hər ikisinin vəfatı. Valideynlərinin hər ikisini itirən uşağın təlim-tərbiyəsi ilə məşğul ola biləcək yaxınları olmadıqda və ya yaxınları uşağın inkişafı, təhsil və tərbiyəsi ilə lazımi səviyyədə məşğul olmaq iqtidarında olmadıqda müvafiq icra strukturları həmin uşağı uşaq müəssisələrində yerləşdirmək səlahiyyətinə malikdirlər. 2002-ci ildə Azərbaycana Birgə Yardım (UAFA) təşkilatının apardığı "Uşaqların internat evlərinə verilməsi səbəbləri" adlı tədqiqat zaman uşaqların əksəriyyətinin atasının və ya anasının sağ olduğu məlum oluşdur. Belə ki, 1 nömrəli internatda 36 uşağın anası və 33 uşağın atasının, 16 nömrəli internatda isə 14 uşağın anasının və 15 uşağın isə atasının sağ olduğu məlum olmuşdur [4, səh-7].

2006-cı ildə Azərbaycan Respublikasındakı xüsusi uşaq müəssisələrində 28 minə yaxın uşaq yaşayıb təhsil alırdı ki, bu uşaqların da yalnız 1600 nəfəri bioloji valideynlərini itirmiş şəxslər idi [4, səh-41]. 2014-cü ilin əvvəlinə isə Statistika Komitəsinin verdiyi məlumata görə, respublika üzrə uşaq müəssisələrində təlim-tərbiyə alan 9356 uşaqdan yalnız 685 nəfəri valideynlərini itirmiş və ailə himayəsindən məhrum olanlardır [5].

8. Valideynlərdən birinin və ya hər ikisinin həbsxanada olması.Bu baxımdan 3 nömrəli uşaq evinin tərbiyə işləri üzrə direktor müavininin məlumatı diqqəti cəlb edir. Onun bildirdiyinə görə, qeyd edilən uşaq evində bu cür uşaqlara rast gəlmək mümkündür. 2002-ci ildə Azərbaycana Birgə Yardım (UAFA) təşkilatının apardığı "Uşaqların internat evlərinə verilməsi səbəbləri" adlı tədqiqatın nəticələrində göstərilir ki, ataların əvvəllər və ya hal-hazırda həbsxanada olması halları analara nisbətən iki dəfə çoxdur [4, səh-6]. Respublika üzrə müəssisə həyatı yaşayan uşaqların 3.6% valideynin həbsxanada olması səbəbindən buraya yerləşdirilib [1, səh-20].

9. Ailədaxili və məişət zorakılığı. Uşaqların böyük qismi ailədə ailədaxili zorakılığın müxtəlif növləri ilə üzləşməsi onların uşaq müəssisələrinə düşməsinə səbəb olur. Ailədə zorakılıq Latın Amerikasında valideynlik hüququndan məhrum olunmanın əsas səbəbidir. SOS uşaq kəndləri təşkilatının nümayəndələri aşkar ediblər ki, Venesuelada həmin təşkilatın yaratmış olduğu kəndlərdə uşaqların 73%-i ailədə psixoloji və fiziki zorakılıqla, o cümlədən cinsi zorakılıqla üzləşiblər. 2009-cu ilin statistik məlumatlarına görə isə, Azərbaycanda yalnız 0.3% uşaq ailədə təhqir və etinasızlıq səbəbindən müəssisəyə yerləşdirilib [1, səh 20].

Onu da nəzərə almaq lazımdır ki, bəzi uşaqlar göstərilən bir neçə səbəb üzündən müəssisəyə düşmüşlər. Məsələn, həm tək valideynin olması, həm də ailənin maddi vəziyyətinin pis olması, valideynin işləməməsi və s. [1, 20].

Şəkil 1. Uşağın müəssisəyə düşmə səbəbi

Mənbə: Azərbaycan Respublikası Təhsil Nazirliyi

Valideynlərini itirmiş və ailə himayəsindən məhrum olmuş uşaqların yerləşdirilməsi üçün nəzərdə tutulmuş müəssisələr aşağıdakı kimi təsnif edilir [6, 12]:

1. Körpələr evi. Bu evlərdə Səhiyyə Nazirliyinin himayəsi altında olan Körpələr evində əsasən 0-3 yaş qrupu arasında olan uşaqlar yaşayır. Səhiyyə Nazirliyi, o cümlədən, atılmış uşaqların sağlamlığına cavabdehdir və eləcə də, xroniki xəstəliyi və sağlamlıq imkanları məhdud uşaqlara da tibbi yardım göstərməlidir [6, 12]. Statistik göstəricilərə əsasən, 2014-cü ildə respublika ərazisində fəaliyyət göstərən 4 körpələr evində 163 körpə yaşayıb [5].

Səhiyyə Nazirliyinin nəzdində olan qurumlara aşağıdakılar aiddir [6, səh-12]:

a) Anadan olan zaman tərk edilmiş uşaqlar üçün Təcili Yardım Mərkəzi. Bu mərkəz Bakıda yerləşir və burada doğum evlərində etinasızlığa məruz qalmış uşaqlara ilk tibbi yardım göstərilir [6, səh-14];

b) Psixo-nevroloji problemlər üzrə uşaq evi də daxil olmaqla dörd körpələr evi (ikisi Bakıda, biri Gəncədə, biri isə Naxçıvanda). Burada valideynlərini itirmiş, atılmış uşaqlar, maddi çətinliklərə görə uşağına lazımi qidanı verə bilməyən valideynlərin himayəsində olan körpələr və inzibati qurumların qərarı əsasında ailələrindən ayrılmış körpələr qəbul edilir. Səhiyyə Nazirliyi uşaqların bu müəssisələrdə illik yaşamları barəsində məlumatı Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə təqdim edir və Maliyyə Nazirliyi tərəfindən məlumat alaraq illik xidmətlər üzrə ehtiyatların ayrılmasını təmin edir [6, 13].

2. Uşaq evləri. Bu müəssisələrdə valideynlərini itirmiş və ailə himayəsindən məhrum olmuş 3-18 yaş arası uşaqların təlim-tərbiyəsi və təhsili ilə məşğul olurlar. Lakin "Valideynlərini itirmiş və ailə himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa görə, istisna hallarda uşaqlar bu müəssisələrdə 23 yaşına qədər qala bilərlər. 2014-cü ilin statistik göstəricilərinə əsasən, üçü Bakıda, biri Gəncədə, biri Şəkidə, biri isə Lənkəranda yerləşən 6 uşaq evində 509 uşaq yaşayaraq təlim-tərbiyə

alıb [4]. Bu müəssisələr Təhsil Nazirliyinin himayəsi altındadır [6, 13]. Qeyd etmək olar ki, internat məktəblərindən və internat evlərindən fərqli olaraq uşaq evlərinin sakinləri ümumtəhsil məktəblərində təhsil alır.

3. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün internat məktəbləri. Bu tip internat məktəblərində uşaqlar yalnız dərs müddəti ərzində qalırlar. Statistik göstəricilərə əsasən, 2014-cü ildə respublika ərazisində sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 12 internat məktəbində 2653 uşaq yaşayıb [5].

4. Əqli cəhətdən geri qalan uşaqlar üçün internat evləri. Bu müəssisələr Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin himayəsi altındadır [6, 13]. Statistika Komitəsinin 2014-cü ilə olan məlumatlarına əsasən, əqli cəhətdən geri qalan uşaqlar üçün Saray və Şağan qəsəbəsində yerləşən 2 internat evində 300-ə qədər uşağın yaşadığı bildirilmişdi [5].

5. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat evləri. Statistika Komitəsinin verdiyi məlumata əsasən, 2013-cü ilədək Azərbaycan Respublikasında valideynlərini itirmiş və ailə himayəsindən məhrum olmuş uşaqlar üçün Bakıda (Maştağa və Mərdəkanda) yerləşən 2 internat məktəbi fəaliyyət göstərsə də, 2013-cü ildə yeni internat məktəbinin açılması ilə əlaqədar hazırda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 3 internat evi fəaliyyət göstərir və 2014-cü ildə burada 389 uşaq yaşayaraq təlim-tərbiyə alıb [5].Bu müəssisələr də Təhsil Nazirliyinin tabeliyindədir [6, 13].

6. Ümumi tipli internat məktəbləri. Təhsil Nazirliyinin nəzdində 21 internat məktəbi fəaliyyət göstərir. İnternat məktəblərində yalnız məktəb ili ərzində qalmaları nəzərdə tutulsa da, uşaqların böyük əksəriyyəti müəssisələrdə demək olar ki, bütün il ərzində qalırlar. Ailələrin maddi imkansızlığı və məktəbdən uzaq məsafədə yaşaması ailələrin uşaqlarla nadir hallarda görüşməsinə, bu isə, onlar arasında əlaqələrin pozulmasına və ya tamamilə kəsilməsinə səbəb olur [6, 12]. Xüsusi olaraq qeyd etmək lazımdır ki, 1991-ci ildə ümumi tipli internat məktəblərinin sayı 50 olsa da, onların sayı 2006-cı ildə 39, 2014-cü ildə isə 21-ə endirilmişdir [4]. Bu proses Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2006-cı il martın 29-da imzaladığı "2006-2015-ci illər müddətində Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və Alternativ Qayğı Dövlət Proqramı" haqqında sərəncamı ilə bağlıdır. Proqramın əsas məqsədi uşaq şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün onun ailə mühitində xoşbəxtlik, məhəbbət və anlaşma şəraitində böyüməsinin zəruriliyini nəzərə alaraq, dövlət uşaq müəssisələrində olan uşaqların ailələrə verilməsi və alternativ qayğının təşkili mexanizmlərinin yaradılması və səmərəli işləməsinin təmin edilməsidir [7].

Respublikamızda keçirilmiş vizual monitorinqlər, əldə olunan statistik məlumatları ifadə edən sənədlərin kontent təhlili və ekspertlər arasında aparılan sorğuların təhlili sayəsində bu Dövlət Proqramının ölkəmizin daxili sosial inkişaf siyasəti və milli mənafelərimiz ilə yanaşı bu sahədə geniş beynəlxalq təcrübənin nəzərə alınması baxımından da vacib istiqamət hesab olması məlum olmuşdur.

Ədəbiyyat:

1. Ministry of Education Republic of Azerbaijan., UNICEF. Assessment of residential institutions in Azerbaijan. 2009, p 44

2. Azərbaycan Respublikası Təhsil Nazirliyi. YUNİCEF.Azərbaycanda dövlət uşaq müəssisələrində olan uşaqların vəziyyətinin təhlili. Bakı: 2012.

3. UNİCEF, World Bank. Dispelling Myths, Discouraging Prejudice. Washington, 2000, p 27

4. Azərbaycana Birgə Yardım Təşkilatının 2002-ci ildə uşaqların internat evlərinə verilməsi səbəblərini aydınlaşdırmaq məqsədilə həyata keçirdiyi tədqiqat-sorğu. Bakı: 2004.

5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Sağlamlıq, Təhsil, Uşaqların vəziyyəti ilə bağlı məcmuəsi. Bakı, 2015.

6. YUNICEF. Azərbaycanda Uşaqların Müdafiəsi Sistemi: Vəziyyətin Təhlili. Uşaq hüquqları perspektivi baxımından mövcud ehtiyyatlar, məlumat mexanizmləri, boşluqlar və risklər. Bakı, 2005, s. 21

7. Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-İnstitusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər) təsdiq edilməsi barədə Azrəbaycan Respublikası prezidentinin sərəncamı. Bakı, 29 mart, 2006-cı il, № 1386.

Abstract

THE SOCIAL AND ECONOMICAL REASONS OF PLACING OF CHILDREN DEPRIVED OF PARENTS PATRONAGE IN SHELTERS

Aysel GASIMOVA

Deputy Dean/Lecturer of Social Work Faculty at Azerbaijan University

Reviewer: PhD on Economics, Aygun Musayeva

Keywords: The children deprived of parental care, institutions for children deprived of parental care, the social and economical reasons of placement of children deprived of parental care, State Programme on De-Institutionalization and Alternative Care for 2006-2015.

Children deprived of parental care are reviewed as a special category in the presented article. It investigates the main social and economical reasons of placement of children into special institutions.Death of one or both parents, parental divorce, powerty, domestic violence and some others are mentioned as reasonsof children's institutionalization. Besides, certain types of the institutions for children deprived of parental care and their specific features from the point of view of development and their bringing upare are reviewed. Moreover, the presented article also mentions importance of the State Program on De-Institutionalization and Alternative Care for 2006-2015.

Резюме

СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ ПРИЧИНЫ РАЗМЕЩЕНИЯ ДЕТЕЙ В УЧРЕЖДЕНИЯХ ДЛЯ ДЕТЕЙ, ЛИШЕННЫХ РОДИТЕЛЬСКОЙ ОПЕКИ

Айсель ГАСЫМОВА

Замдекан, учитель факультета Социалной Работы
Университета "Азербайджана"

Отзыв: Доктор философии в области экономики Айгюн Мусаева

Ключевые слова: дети, лишенные родительской опеки, учреждения по размещению детей лишенных родительской опеки, социально-экономические причины размещения детей в государственных детских учреждениях, Государственная программа по передаче (деинституционализации) детей из государственных детских учреждений в семьи и альтернативной заботе в Азербайджанской Республике (2006-2015 годы)

В статье рассматриваются дети, лишенные родительской опеки, как особая категория, исследуются основные причины, по которым определяют проживание такого категория детей в специализированных учреждениях. Среди причин размещения, прежде всего, отмечаются такие, как потеря одного или двоих родителей, малоимущие родители, бытовое насилие, и т.д. При этом определяются конкретные типы детских учреждений, предназначенных для размещения детей лишенных родительской опеки, их специфические особенности с точки зрения образования, воспитания и развития указанной категории детей.Также рассматриваются важность государственной программы по передаче (деинституционализации) детей из государственных детских учреждений в семьи и альтернативной заботе в Азербайджанской Республике (2006-2015 годы).

ГЛОБАЛИЗАЦИЯ - КАК ОСНОВА МИРОВОГО ХОЗЯЙСТВА, ИНТЕГРАЦИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЭКОНОМИКИ В МИРОВУЮ ЭКОНОМИКУ В ЭПОХУ ГЛОБАЛИЗАЦИИ

Эльмар ДАДАШЕВ
Бакинский Государственный Университет
Преподаватель кафедры «Мировая Экономика»

Отзыв: к.э.н., доцент Г.Г.АСЛАНОВ
Ключевые слова: Глобализация, интеграция, глобализация экономики, международные экономические отношения, перспективы глобализации, экономические преобразования, динамическое экономическое развитие Азербайджана.

Глобализация – это всемирная зависимость стран, предприятий и людей между собой в открытой системе политических , финансово – экономических и культурных связей, основанных на современных информационных и коммуникационных технологиях (1, с-39).

Экономическая глобализация - самая главная часть этого процесса.

Объективный аспект глобализации – это закономерный, объективно обусловленный процесс движения к единой мировой экономической целостности, качественно новая, наиболее высокая стадия интернационализации экономической жизни.

Субъективный аспект глобализации – эта форма определенной экономической политики, осуществляемой крупнейшими ТНК и ТНБ, мировыми финансовыми центрами в своих собственных интересах. Содержание процесса глобализации состоит из этапов интернационализации хозяйственной деятельности коими являются: развитие производительных сил; международное разделение труда; международное экономическое сотрудничество; международная экономическая интеграция; глобализация мировой экономики.

Глобализация и интеграция – это многоуровневые явления, затрагивающие макроуровень, мезоуровень.

Перспективами глобализаций являются:

- интенсификация интеграционных региональных процессов;
- большая открытость экономических систем государств, в настоящее время ещё не полностью осуществивших либерализацию хозяйственной деятельности;
- беспрепятственный доступ всем участникам на любые рынки;
- универсализация норм и правил осуществления торговых и финансовых операций;
- унификация регулирования и контроля за рынками;
- стандартизация требований и перемещению капитала, инвестиционному процессу и всемирной платёжно - расчетной системы (2, с-1).

Наряду с этим имеются и противоречия, являющимся неотъемлемой частью этого процесса: противоречия между странами и соответствующими международными институтами, противоречия между отдельными странами с одной стороны, и ТНК, ТНБ и мировыми финансовыми центрами – с другой, противоречия между крупнейшими ТНК, ТНБ и мировыми финансовыми центрами. Позитивное значение глобализации трудно переоценить: неизмеримо умножаются возможности человечества, более полно учитываются все стороны его жизнедеятельности. создаются условия для гармонизации. Глобализация мировой экономики создает серьезную основу решения всеобщих проблем человечества.

В качестве позитивных преимуществ глобализационных процессов можно назвать:

глобализация способствует углублению специализации и международного разделения труда;

важным преимуществом глобализационных процессов являются экономия на масштабах производства;

преимущества глобализации связаны также с выигрышем от свободной торговли;

глобализация, усиливая конкуренцию, стимулирует дальнейшее развитие новых технологий и распространение их среди стран;

глобализация дает странам возможность мобилизовать более значительный объём финансовых ресурсов;

глобализация может привести к повышению производительности труда в результате рационализации производства на глобальном уровне и распространения передовых технологий , а также конкурентного давления в пользу непрерывного внедрения инноваций в мировом масштабе;

глобализация создаёт серьезную основу для решения всеобщих проблем человечества в первую очередь, экономических, что обусловлено объединением усилий мирового сообщества, консолидаций ресурсов, координаций действий в различных сферах (3,с - 261).

Глобализационные процессы чаще всего приветствуются в развитых странах и вызывают серьезные опасения в развивающемся мире. Это связано с тем, что преимущества глобализации распределяются неравномерно. Глобализация приводит к углублению неоднородности, к возникновению новой модели мира - общества одной пятой.

80% всех ресурсов контролирует так называемой «золотой миллиард» который охватывает лишь пятую часть населения планеты. Неоднородность мира проявляется и в следующих данных : всего лишь 358 миллиардеров владеют таким же богатством , как и 2,5 миллиардов людей вместе взятые (2, с-2).

Негативные последствия от глобализационных процессов во всех странах ,можно считать :

- неравномерность распределения преимуществ от глобализации в разрезе отдельных отраслей национальной экономики;

- возможная деиндустрализация национальных экономик;
- возможность перехода контроля над экономикой отдельных стран от суверенных правительств в другие руки,в том числе к более сильным государствам;
- возможная дестабилизация финансовой среды,потенциальная региональная или глобальная нестабильность из-за взаимозависимости национальных экономик на мировом уровне.

В Азербайджане в ходе экономической реформы осуществляется комплекс мероприятий по развитию реальных секторов экономики.По мнению норвежского специалиста Питера Мелби развитие нефтяного сектора должно стать приоритетным направлением в развитии экономики Азербайджана и по прогнозам экспертов окажет весомое влияние на развитие производственных секторов страны и увеличение ассортимента конкурентоспособных товаров на экспорт (4, с-338). Процессы экономической трансформации и глобализации обуславливают важность верного выбора направлений торговых связей страны в значительной степени определяющие эффективность внешнеэкономической политики, способствуя совершенствованию структуры специализации производства,расширяя сферу международной торговли не только сырьевой ,но и промышленной продукции,создавая кредитную и инвестиционную базу для технологической модернизации национальной экономики.Как и в других странах с постсоветской переходной экономикой , в Азербайджане с самого начала независимого развития возникла необходимость рационального использования производственного потенциала посредством потенциала посредством включения страны в процесс международного разделения труда и активного участия в мирохозяйственных отношениях (5, с-125).

Международный товарообмен позволяет участвующим в нем странам повышать продуктивность своего производства ,поскольку устраняет необходимость самостоятельно производить все потребляемые ими товары и услуги. Благодаря международной торговле страна может специализироваться и в тех отраслях производства и сегментах рынка, где её фирмы относительно более конкурентоспособны ,чем иностранные,и ввозить в страну те товары и услуги ,по которым её фирмы уступают зарубежным.

Таким образом, формирование вненшнеэкономической стратегии стран с развивающейся экономикой требует максимального учёта национальных ,социально-экономических,региональных, геоэкономических факторов и особенностей рыночных трансформаций каждого государства.

Первая из этих стратегических задач предполагает не столько более рациональное перераспределение бюджетных инвестиционных фондов ,сколько обеспечение правовых , фискальных и других льгот для спасаемых и возраждаемых отраслей и вместе с тем создание максимально благоприятных условий для привлечения в эти отрасли иностранного капитала.

Вторая стратегическая задача предполагает, с одной стороны,разумную защиту

внутренного рынка от наплыва тех товаров и услуг, которые могут разорить пока ещё неконкурентоспособные,но перспективные производства в машиностроении, лёгкой, пищевой, строительной индустрии и в сельском хозяйстве. Речь идёт, разумеется не о жёстком протекционизме, ориентированном на полное импортозамещение, а о разумных мерах покровительства отечественным производителям.

Большинство топливо-энергетических и сырьевых отраслей Азербайджана вполне конкурентоспособны и в защите не нуждаются. В то же время в Азербайджане немало отраслей, которые при обеспечении им некоторой протекцией способны обрести второе «дыхание». В тех случаях, когда протекция необходимо важно соблюдать баланс между интересами местных производителей и интересами местных же потребителей по каждому конкретному товару и услуге. Следует отметить, что по возможности устранение торговых барьеров на пути экспорта азербайджанских товаров и услуг в пути к мировым рынкам имеет важное значение. Перед ним откроются широкие перспективы, выгодное участие в международном разделении труда, привлечение иностранных инвестиций, структурная перестройка своей экономики, ускорение темпов роста и жизненного уровня населения (5, с-138). Однако следует подчеркнуть , что страны ближнего зарубежья не могут в полной мере быть сферой «главных жизненных экономических интересов» Азербайджана еще и потому, что их рынки слишком узки для наших товаров и продолжают сокращаться . В более долгосрочной перспективе ее стратегическими партнерами ,несомненно является старые и новые промышленно развитые страны Запада и Востока, которые способны своими инвестициями вдохнуть новую жизнь в отстающие отрасли обрабатывающей промышленности Азербайджана и вывести через совместное предпринимательство их продукцию на мировой регион создать там плацдарм для последующей экспансии.

Определенный геополитический интерес представляют для Азербайджана еще две группы стран .На западе страны Центральной и Восточной Европы в первую очередь Венгрия ,Польша, Чехия и Словакия).Некоторые возможности стабилизации и расширения сотрудничества Азербайджана с балканскими странами и Турцией открывает созданная в 1992 организация Черноморского Экономического Сотрудничества , включая помимо Азербайджана Грузии, Молдовы, России и Украины также Албанию, Болгарию, Грецию, Румынию и Турцию.

На востоке, в Азиатско –Тихоокеанском регионе, который в наступающем столетие будет играть едва ли не решающую роль в мировой экономике в предполагаемые к 2020 году сформирование самой обширной в мире зоны свободной торговли. Ее участниками станут государства- члены организации Азиатско-Тихоокеанского экономического сотрудничества (АТЭС) в том числе Австралия, Канада, Китай, США, Тайвань, Южная Корея, Япония и вошедшая в состав в 1998 году Россия.

Анализы показывают что промышленность нефтяного оборудования являются крупным потенциальным источником экспорта. Кроме того Азербайджан имеет возможность производства конкурентоспособности на мировом рынке продукции

приборостроения, химии, нефтехимии, металлургии и других отраслей. Одной из высокоэффективных сфер определяющих экспортную направленность экономики Азербайджана может стать аграрный сектор, так как сравнительные преимущества природных условий и традиций в сельском хозяйстве создают для этого все необходимые предпосылки.

Ключевые направления в решении этой проблемы является сокращение сырьевой ориентации, увеличение выпуска конечной продукции ,прошедшей промышленную переработку на основе перехода от экстенсивного к интенсивному развитию (5,с-140).

В условиях глобализации экономических процессов и интегрирующих направлений путем перспективного развития свободных зон и возможность их формирования более эффективными способом обуславливается факторами: повышение конкуренции экспортируемых товаров, усиление конкретности среди крупных инвестиционных фирм и компаний, оказания пристального внимания ведущих стран мира на развитие свободных экономических зон и с этой целью необходимо повышение государственной поддержки в развитии предпринимательства, финансирования инвестиций, науки, технологий, образования, транспорта, коммуникаций, сотрудничества с крупными инвестиционными компаниями.

Следует отметить что с усилением процессов экономического развития Азербайджана, это приобретение ряда местной продукции статуса конкурентоспособной. Так по мнению норвежского эксперта Питера Мелби поставка газа в Турцию и через него в европейские страны будет очень конкурентоспособным по своей стоимости. П.Мелби считает что запасы Азербайджанского месторождения « Шах-Дениз» а сравнимые с запасами крупнейшего в Норвегии месторождение «Троль» (4, с-468). Трубопровод TAP (Trans Adriatik Pipeline AG)обеспечит транспортировку природного газа в рамках второй стадии разработки гигантского Азербайджанского месторождения «Шах-Дениз» в Европу. Трубопровод протяженностью приблизительно в 870 км соединится с Трансанатолийским трубопроводом (TANAP) около турецко-греческой границы в городе Капой, который в свою очередь начинается с месторождения «Шах-Дениз» по грузинско-турецкой границе до западных границ Турции далее пройдет через территорию Греции Албании и Адриатическое море к южному побережью Италии.

Таким образом Азербайджан впервые получил возможность для прямых поставок своего газа непосредственно европейским потребителям. 17 марта 2015 года проведена официальная церемония закладки фундамента Трансанатолийского газопровода (TANAP) в турецкой провинции Карс.

Вывод:

Глобализация мировой экономики и ее развитие станет причиной формирования глобальной инфраструктуры, глобализации производственных сил, углублению интернационализации капитала и производства, росту масштабов международной миграции рабочей силы и углублению интернационализации обмена.

Развитие регионов Азербайджана и усиление процессов внедрения инноваций, окажут серьезный толчок по решению вопросов с модернизацией и внедрения новшеств и технологий в отстающие по развитию от общего темпа экономического развития страны, на наш взгляд приведет к усилению престижа в мировой хозяйственной системе тем самым обеспечит активное продвижение товаров Азербайджанских марок по всему миру.

Литература:

1. Рыбалкин В.Е. Международные Экономические Отношения Москва 2009 607ст.
2. Материалы Министерства Экономики и промышленности Азербайджана (www.ekonomy.qov.az)
3. Авдокушин Е.Ф. Международные Экономические Отношения) Москва 1999 г.368ст.
4. Портер М. «Международная Конкуренция, конкурентное преимущество стран» перевод с англ. под ред. В.Д.Щеткина Москва 1993 896ст.
5. Гаджиев Ш.Г. «Азербайджан на пути к мировому сообществу: стратегия внешнеэкономического развития» Киев 2000.

Xülasə

QLOBALLAŞMA - DÜNYA İQTİSADİYYATININ ƏSASI KİMİ, QLOBALLAŞAN DÜNYADA AZƏRBAYCAN İQTİSADİYYATININ DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYASI

Elmar DADAŞOV

Bakı Dövlət Universiteti "Dünya iqtisadiyyatı" kafedrasının müəllimi

Açar sözlər: Qloballaşma, inteqrasiya, iqtisadiyyatın qloballaşması, beynəlxalq iqtisadi əlaqələr, qloballaşma perspektivləri, iqtisadi islahatlar, Azərbaycanın dinamik iqtisadi inkişafı

Məqalədə Azərbaycan iqtisadiyyatının real sektorunun rəqabətqabiliyyətliliyi, beynəlxalq və regional təşkilatlarda inteqrasiya problemi araşdırılmışdır. Dünya iqtisadi sisteminə kontekstində Azərbaycan iqtisadiyyatının potensialı araşdırılmış, onun əsas amilləri, üstünlükləri və əsas göstəriciləri təhlil edilmişdir. Həmçinin ölkənin enerji daşıyıcıları ilə təmini amilinin etibarlılığı zəminində iqtisadiyyatın inkişafının ciddi stimulları araşdırılmışdır.

Abstract

GLOBALIZATION - AS THE BASIS FOR THE WORLD ECONOMY, INTEGRATION OF AZERBAIJAN'S ECONOMY TO THE WORLD ECONOMY IN A GLOBALIZING WORLD

Elmar DADASHEV

Baku State University, Teacher of the Department "World Economy"

Key words: Globalization, integration, globalization of the economy, international eco-

nomic relations, perspectives of globalization, economic reforms, dynamic economic development of Azerbaijan

The article deals with the problem of the competitiveness of the real sector of the economy of Azerbaijan, the integration processes in international and regional organizations. In the context of the world economic system it analyzes the potential of the economy of Azerbaijan, its main factors, the advantages, especially the dominant figures. It also investigates the stimuli for the economic development in the presence of energy resources.

"AVROPA AVİASİYA TƏHLÜKƏSİZLİK AGENTLİYİ"nin (EASA) TƏLƏBLƏRİ ÇƏRÇİVƏSİNDƏ LOGİSTİKA TƏMİNAT SİSTEMİNİN ƏHƏMİYYƏTİ

Ziya Həsən oğlu ƏHMƏDOV
"Silk Wey Helicopter Services" MMC-nin Logistika şöbəsinin rəisi

Rəyçi: i.e.n. Müslümat Allahverdiyeva
Açar sözlər: Logistika, EASA, PART 145, aviasiya texnikası (təyyarə və helikopterlər nəzərdə tutulur)

Giriş. Mülki aviasiya üzrə texniki təmir təşkilatlarının Avropa Aviasiya Təhlükəsizlik Agentliyi (EASA) standartlarında texniki təmir oluna bilmə səlahiyyəti verən sənədə Part-145 deyilir. Bu sertifikatı alan təşkilatlarda mövcud olan anqar və ya texniki təmir sexi EASA standartlarına uyğun xidmət göstərməlidir [1].

Bu səbəbdən texniki təmir sexlərinin fəaliyyətinin müntəzəmliliyinin və davamlılığının saxlanılması üçün Logistika xidmətinin mühüm əhəmiyyəti vardır. Bəs Logistika PART145 tələbləri çərçivəsində özünü necə göstərir və ya necə göstərməlidir? Bu sualı cavablandırmaq üçün aşağıdakı tədqiqatın nəticələrindən istifadə etməklə müəyyən olunacaqdır. Belə ki, tədqiqatın əsas məqsədi Logistika təminat sistemi çərçivəsində Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) və EASA təşkilatlarının ümumbəşəri dəyərlərə əsaslanan standartlarının yerli şirkətlərdə milli dəyərlərə uyğun tətbiqini tapmaq və nöqsanlarını göstərməkdir. Tədqiqat zamanı PART145 standartları daxilində Logistika sistemini Azərbaycanın mövcud iqtisadi reallığına uyğunlaşdırmaq üçün nəzəri-praktik təklif və tövsiyələr irəli sürülmüşdür. Ayrıca adı gedən qurumların elmi tədqiqatlarının analizi, praktiki iş yerində və ya istehsalatda bu standartların qarşıya real çatışmamazlıqların ortaya qoyulması bu tədqiqatın orjinallığını və elmi yeniliyini daha da artırmaqdadır.

Bildiyimiz kimi, təməli 7 dekabr 1944-cü ildə "Çikaqo Konvensiyası" ilə qoyulan Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) müstəqil dövlətlərdə mövcüd olan aviasiya standart və qanunvericiliklərin harmonizasiyası üçün müvafiq normaların hazırlanması və beynəlxalq hava hüququnun məcəllələşdirilməsi işini təşkil etməkdədir. Bu norma və standartlar hər bir ölkənin Mülkü Aviasiya idarəedici orqanları tərəfindən daxili qaydaları, milli adət və ənənələri nəzərə alınmaqla mənimsənilir, müvafiq qərar və qanunlar yazılır. Müstəqil Azərbaycan Respublikası 1992-ci ildən BMT-ə üzv olduğu tarixdən ICAO-nun fəxri üzvü seçilmişdir.

Mülki aviasiya üçün texniki xidmət sahəsində də ICAO xüsusi normativ müəyyən etmiş və bunu Annex 6 (Əlavə 6) altında çapdan çıxarmışdır [2].

Şəkil 1-də göründüyü kimi AB ölkələri və AB hava məkanında istifadə edən ölkələr EASA Part 145 tələbləri, Amerika hava məkanı üçün FAR-145 və Rusiya hava məkanı üçün ФАП-145 tələbləri əsas götürülür. Hər üç hava məkanı üçün hazırlanan tələblər ICAO-nun ümu-

mibəşər standartlarına əsasən hazırlanıb və cüzi fərqlə bir birindən seçilir. Hal-hazırda aparılmış düzgün siyasət nəticəsində Azərbaycan bir çox sahələrdə olduğu kimi mülki aviasiya sahəsində ciddi irəliləyişlər olmuşdur, sözün əsl mənasında özünün pik nöqtəsinə qədəm qoymuşdur və bunun nəticəsində mülki aviasiya şirkətləri bu gün EASA Part 145 tələbləri altında tam fəaliyyət göstərir.

Şəkil – 1 [2, s. 4.].



Respublikamızda EASA Part 145 tələblərinə uyğun fəaliyyət göstərən şirkətlərdə Logistikanın sözü gedən standarta (PART-145) uyğunlaşması aşağıdakı istiqamətdə düşünülməlidir.

- ✓ İlkin sifarişlərin işlənməsi, müqavilə şərtləri;
- ✓ Tədarükçü siyahısının formalaşdırılması və tədarükçülərin qiymətləndirmə meyarları;
- ✓ Malların qəbul olunma prosesi: daxili inspeksiya;
- ✓ Sənədləşmə;
- ✓ Proqram təminatı və izlənəbilmə mexanizmi;
- ✓ Anbar idarəetmə sistemi;
- ✓ Təhlükəli yük anlayışı və müvafiq qanunvericilik.

Bazar iqtisadiyyatı şəraitində və günümüzdə yuxarıda qeyd olunanların hər biri ayrı ayrılıqda Logistikanın ayrılmaz hissəsi olub və EASA Part 145 tələblərinə uyğun yazılmış şirkətin "Texniki Xidmət üzrə Təlimatı"nda (bundan sonra xarici ədəbiyyat uyğun MOE kimi qeyd olunacaq) öz əksini tapır. Qeyd olunan 7 meyarın MOE-ə əlavə olunmasında əsas diqqət yetiriləcək nüanslar aşağıdakılardan ibarətdir:

İlkin sifarişlərin işlənməsi, müqavilə şərtləri – Hər bir aviasiya şirkətində texniki xidmətin davamlılığının təşkil olunmasında "minimum stok" anlayışına yiyələnmək lazımdır. "Minimum stok" istənilən zaman, istənilən yerdə, istənilən miqdarda və istənilən keyfiyyətdə daimi olaraq texniki sex anbarlarında lazımi mal-materialların olmasıdır [3]. Bu mexanizmin idarə olunması üçün hər bir şirkətin stok idarəetmə personalı tərəfindən periyodik olaraq yoxlamalar keçirilməli, aviasiya texnikasına planlaşdırılmış və ya saat hesabı ilə planlaşdırılan işlərə görə mal-material siyahısı tərtib etməlidir. Burada nəzər olunacaq xüsuslardan biri də stok idarəetmə sistemini yönəldən mütəxəssisin xidmət göstərdiyi texnika üzrə kifayət qədər iş təcrübəsi olub olmamasıdır. Belə bir şəraitdə mütəxəssisin xidmət göstərdiyi texnika üzrə daha çox baş verən nasazlıqları da göz önündə tutması şərtdir ki, qəfil baş verən nasazlıq vaxtı lazımi mal-material anbarlarda mövcud olsun. Bu üsul tələbin qəfil dalğalarına qarşı gözəl bir vasitədir. Burada tədarük, çatdırılma və s. xərclərdə azalır, artıq stokun olmasını sıfıra endirir ki, bu da şirkətin maliyyə fəaliyyətlərində özünə kifayət qədər dəyər qatmış olur.

Tədarükçü siyahısının formalaşdırılması və tədarükçülərin qiymətləndirmə meyarları

PART-145/FAR-145/AM-573 sənədlərinə əsasən tənzimlənir [4,s.36 hissə 2.1]. Tədarükçü siyahısının formalaşdırılması və tədarükçülərin qiymətləndirilməsinin əsas məqsədi alınan malların aviasiya keyfiyyət tələblərinə uyğun olması və bazarda fəaliyyət göstərən qeyri qanuni şirkətlərin tədarükçü siyahısına düşməsinin qarşısının alınmasıdır. Tədarükçülər siyahısı tədarükçüyə göndərilən anket forması ilə qiymətləndirilə bilər. Burada Logistika mühəndisinin əsas diqqət çəkməsi gərəkən lazımi xüsus şəhadətnamələrin/sertifikatların olması və onların düzgünlüyüdür. Sertifikatlardan düzgünlüyünü EASA və ya FAA və digər rəsmi aviasiya orqanlarının rəsmi elektron ünvanlarından yoxlamaq məqsədəuyğun sayılır. Əgər tədarükçü yüksək nüfuzlu qurumların (Əsasən EASA Part 145 və ya FAA) sertifikatlarını təqdim edə bilmədiyi halda ən azı İSO 9001 sertifikatının olması və onun Keyfiyyəti idarə edən şöbə və ya idarə tərəfindən təsdiqləndirməsi lazımdır. Azərbaycanda bu sahədə çalışan işçilərin ən böyük şikayətləri Respublikada aviasiya texnikası üçün tədarükçülərin yox səviyyəsində olması və ya olduğu təqdirdə göstərilən xidmətin EASA Part 145 şərtlərinə uyğun gəlməməsidir ki, bu da tədarükçülərin 90%-i xarici bazardan seçilməsinə zəruriyyət yaradır. Aviasiya texnikası üzrə ehtiyat hissələrinin satışı və təmiri kifayət qədər bahalı bir proses olduğu üçün bu da böyük həcmdə pul kapitalının xaricə axıdılmasına səbəb olur. Yaxşı olardı ki, Gəncə Aviatəmir zavodu kimi böyük potensiala sahib olan şirkətin Rusiya texnikası ilə yanaşı Qərb ölkələrinin texnikasının imkanlarından istifadə olunsun. Bu baxımdan ölkədə fəaliyyət göstərən Milli Aviasiya Akademiyasına kifayət qədər güclü kadr hazırlığı imkanı yaradar.

Tədarükçülərin seçilməsində "İncoterms" (çatdırılma şərtləri) qaydalarının öyrənilməsi və mənimsənilməsidə ön şərtdir. "İncoterms" beynəlxalq nəqliyyat sistemində istifadə olunur və daşıma vasitələrinin bütün növlərini əhatə edir. İştirakçılar arasında hüquqi tənzimləmə rolunu oynayır. Bu tənzimləmə: [5, s.35-36].

- Kim tərəfindən export/import gömrük rəsmiləşməsi aparılmalıdır;
- Yüklərin daşınması, konteynerlərə yüklənməsi, boşaldılma xərcləri kim tərəfindən ödəniləcək;
- Yükün yolda daşınması zamanı yükün itməsi və ya zədələnməsi halında cavabdeh tərəfin müəyyən olunması;
- Yuxarıda qeyd olunmuş riskin kim tərəfindən sığortalanması qaydalarını müəyyən edir.

Malların qəbul olunma prosesi: daxili inspeksiya – texniki təmir sexinə daxil olan hər bir mal anbara təhvil verilməzdən qabaq yararlılıq səviyyəsinin və verilən sifarişə uyğunluq dərəcəsinin yoxlanılmasıdır. Malların qəbulolunma prosesi çox mühüm bir məsələdir və şirkət rəhbərliyinin bu prosesə daha çox diqqət ayırması gərəklidir. Malların qəbulolunma prosesində kifayət qədər texniki xidmət sexində iş təcrübəsi olan kadrların (əmək pensiya dövrü çatmış işçilərə üstünlük verilə bilər) seçilməsi düzgün yol sayılır. Ümumiyyətlə EASA təşkilatında malların qəbul olunması PART 145.A.42 sənədinə istinadən aparılır [4, s.40, hissə 2.2]. Bu sənədə bir az sonra aydınlıq gətiriləcək.

Şəkil 2-də aviasiya texnikasında istifadə olunan malların anbara qəbul olunmazdan əvvəl lazımi olan sertifikatların təsnifatı yer alır. Əgər alınan mal-material birbaşa istehsalçı şirkətdən yox, üçüncü şirkətdən alınırsa mütləq qayda həmin şirkətin uyğunluq sertifikatı da tələb olunmalıdır.

Daxili inspeksiya sertifikatlarla birlikdə yükün vizual görünüşünə, hər hansı zədənin olub olmamasına və xüsusi istehsalçı təlimatlarına diqqət yetirməlidir.

Şəkil - 2 Komponent/material sertifikatları [4, s. 40 hissə 2.2.1.]

Mal-material növü	Yeni mal üçün	Təmir olunmuş mal üçün
Aviasiya texnikası üzrə ehtiyat hissəsi Məs: mühərrik, helikopter pərləri, avionik hissələr və s.	EASA Form 1 və ya ekvivalent sənədlər: - As per AMC 145.A.42(a)1 - FAA Form 8130-3 (with status "new") - TCCA Form One (with status "new")	EASA Form 1 və ya ekvivalent sənədlər: - As per AMC 145.A.42(a)1 - FAA Form 8130-3 issued by an EASA approved organization located in the USA, having the EASA dual release in the remark block - TCCA Form One issued by an EASA approved organization located in Canada, having the EASA dual release in the remark block
Məsrəf materialları (yalnız bir dəfə istifadəsi nəzərdə tutulub. Standart mallar	- Uyğunluq sertifikatı (Certificate of conformity) istehsalçı şirkət tərəfindən təqdim olunur.	Təmir olunmadığı üçün istehsalata buraxıla bilməz.

Sənədləşmə - dövrümüzün yazılı sənədləri kompüterləşdirilməsinə baxmayaraq hələ də sənədləşmənin bəzi üstünlükləri qalmaqdadır. Logistik fəaliyyətlərdə sənədləşmə növlərinin çox olmasını nəzərə alaraq hər bir sənəd növü üzrə xüsusi qovluqlardan istifadə olunmalı və tarix sırasına görə düzülmə aparılmalıdır. Yaxşı olardı ki, izləmə eyni zamanda hər hansı bir kompüter sistemində izlənilsin. Tədarükçülərdən daxil olan mal-materialların orijinal keyfiyyət şəhadətnamələri mal-materialın saxlanılma yerində, nüsxələri isə xüsusi qovluqda daxilolma tarixinə uyğun yığılmalıdır. İxtisaslı logistika işçisi həm anbar təsərrüfat fəaliyyətinin aparılmasında meydana çıxan sənədləşmə, yükün import/export əməliyyatları zamanı yaranan satış və gömrük sənədləşmə qaydalarını, həm də buna müvafiq qanunvericiliyi dərindən yiyələnməlidir.

Proqram təminatı və izlənəbilmə mexanizmi - Texniki təmir sexlərinin anbarlarında mükəmməl və nöqsansız işləməsi üçün xüsusi kompüter təminat proqramlarının olması zəruridir. Həmin proqram bütün kollektiv üçün sadə və anlaşılan olmalıdır. Şirkətdə mövcud olan müxtəlif texniki şöbələrin eyni proqram təminatından istifadəsi daha məqsədəuyğun sayılır. Məhz belə bir şəraitdə hər hansı bir ehtiyat hissəsinin ilk sifarişdən son nöqtəyə qədər olan tarixçəsini asanlıqla izləmək olur ki, bu da aviasiya sahəsində çox vacib məsələlərdən biridir. Aviasiyada mövcud olan proqramlar xüsusi lisenziyalaşdırılmış və texniki dəstəyi olan tədarükçülərdən seçilməlidir. Sənaye, qida və yüngül sənayedə, mağazalarda istifadə olunan proqram təminatını aviasiyaya aid etmək olmaz. Çünkü burda daha mürəkkəb tələblər və həmin tələblərin təyinatına görə düzgün istifadəsi nəzərdə tutulur.

Anbar idarə etmə sistemi –Bu bənd EASA sənədlərində Part 145.A.40. və PART 145.A.42 sənədinə uyğun həyata keçirilir [4, s.44]. Belə ki, bu sənədlərə istinadən texniki xidmət zamanı gərəkli olan bütün lazımi avadanlıqların, ehtiyat hissələrinin və d. materialların anbarda daimi mövcud olmasıdır. Bütün mal-materiallar istehsalçı şirkətin tələblərinə riayət etmək şərti ilə saxlanılmalıdır. Burda əsas xüsuslardan biri də sağlamlıq, ekoloji və ətraf mühit təhlükəsizliyi şərtləri və buna müvafiq anbar idarəetmə sistemidir. Bəzi materialların isti və ya soyuğa qarşı olan həsaslığını, havanın nəmlik dərəcəsi və günəş işığı ilə birbaşa təmas olunma zamanı yarana biləcək fəsadları nəzərə almaqla gündəlik temperatur və nəmişlik xüsusi hiqrometrlərlə ölçülməli və qeydlər aparılmalıdır. Anbar idarəetmə sistemində mal-materialın saxlanılma yerinə görə əsasən üç tipik anlayışdan istifadə olunur:

- İstismara yararlı zona;
- İstismara yararsız zona;
- Qarantin zona.

İstismara yararlı zona - bütün texniki və fiziki göstəriciləri, Şəkil 2-də qeyd olunmuş sertifikatları, qaydasında olan mal-materiallar bu zonaya daxil olunur. Bu zonada daxil olan mal-materialların həmçinin alətlərin son istifadə və kalibrə olunma tarixləri ciddi şəkildə qeydiyyata alınmalı və qaydalara riayət olunmalıdır. Hər bir şirkətin daxili siyasətinə uyğun olaraq metroloji xarakteristikaya malik olan alətlərin (ildə bir dəfədən az olmayaraq) kalibrə (yoxlanılma) olunması şərtdir.

İstismara yararsız zona – istismardan uzaqlaşdırılmış, aviasiya texnikasında öz uçuş saatını

başa vurmuş və texnikadan kənarlaşdırılmış mal-materiallar yerləşdirilir. İstismara yararsız zonada olan mal-materialların yenidən istifadəsi və ya yenidən istehsalata buraxılması EASA qanunvericiliyinə görə qəti qadağan olunur. Praktikada bir çox şirkətlərdə İstismara yararsız zonanın daxilində utilizasiya deyilən zonada yaradıla bilər. Bu zonaya əsasən istəkliyini başa vurmuş və artıq özündə təmir oluna bilən əlamət saxlamayan mal-materiallar yerləşdirilir və müvafiq qanunvericiliyə uyğun utilizasiya (ləğv olunma) olunur.

Qarantin zona – mal-materialların müayinə olunması zamanı hər hansı bir nasazlıq və ya şübhəli əlamətlər aşkarlandığı zaman istifadə olunan zonadır. Daha çox bu zonaya hər hansı konponentin özündə yararlılıq xüsusiyyətini biruzə verməkdə çətinlik çəkən mal-materiallar qoyulur. Bu zonada ehtiyat hissəsinin taleyi həll olunana qədər saxlamaq mümkündür və istehsalata hər hansı səbəb olmadan buraxmaq qadağandır. Əğər nasazlığı aradan qaldırmaq mümkün deyilsə o zaman Logistika üzrə mütəxəssis bu barədə informasiyanı texniki auditora bildirməli və Texniki Nasazlıq haqqında raport doldurularaq EASA təqdim etməlidir. Adı gedən raporun nüsxəsini EASA-nın rəsmi saytından (http://easa.europa.-eu/iors/reporting.html) əldə etmək mümkündür [6].

Təhlükəli yük anlayışı və müvafiq qanunvericilik – İxtisaslı Logistika mütəxəssisi təhlükəli yüklər üzrə davranış qaydalarına diqqətlə yanaşmalıdır. Əks halda ciddi fəsadlarla üzləşə bilər. Aviasiyada bir çox hallarda təhlükəli yüklər qrupuna daxil olan priotexnik katriclər, yanacaq-sürtgü materialları, xilasedici sallar, qaz balonlari və s. istifadə olunur. Bu təhlükəli yüklərin hər birinin özünə aid daşınma və saxlanılma üsulları vardır. Həmin üsullar tədarükçü şirkətdən tələb edilməli və ona uyğun davranmaq lazımdır. Bu səbəbdən hər bir Logistika mütəxəssisinin təhlükəli yüklər üzrə müvafiq təlim keçməsi zəruridir.

Hər bir Logistika üzrə mütəxəssis bilməlidir ki, Azərbaycan Respublikasında təhlükəli yüklər üzrə idarəolunma və tövsiyələr AR Fövqəladə Hallar Nazirliyinin "Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi" tərəfindən aparılır və həmin agentin əməkdaşları ilə sıx münasibətdə olmaq lazımdır. Ölkəyə gətiriləcək priotexnik katriclər üzrə xüsusi icazələrin alınması və saxlanılması adı gedən agentlik tərəfindən həyata keçirilir.

Nəticə. Yeni yaranan bir çox şirkətlər və ya Sovet hakimiyyəti dağıldıqdan sonra MDB ölkələrinin aviasiya şirkətləri EASA tələbləri ilə yenicə tanış olduğu üçün çox vaxt digər şirkətlərin və ya EASA-nın öz standartlarını mənimsəyir və MOE-ni həmin standartları dəyişmədən yazdırırlar. Bu da öz növbəsində həmin şirkətin və şirkətdə çalışan personalın bu qəfil dəyişməyə hazır olmamasına görə ciddi fəsadlar yaradır. Bu isə daha çox aviasiya sahəsində "Module 9" İnsan Faktoru təlimində sıx rastlanan nöqsanlardan biridir. Belə ki, hər hansı bir təlimin nəticəsində (hazırlayıcı mexanizm olmadan) birbaşa olaraq bir işlək mexanizim ləğv edilib digər mexanizmə keçilirsə işçi heyətin prosedurları tam mənimsəməməsi, xarici dil zəifliyi, yeni texnika üzrə məlumat çatışmazlığı və iş praktikasının azlığı kimi səbəblərdən istehsalatda mühüm arzuolunmaz nöqsanlar yaranır.

Tədqiqat zamanı müəyyən olunmuşdur ki, hələ də bir çox şirkət və ya şirkət rəhbərləri Logistika təminat sisteminə dar mənada yanaşırlar və onun sadəcə nəqliyyatın-daşınmanın

bir hissəsi olduğunu düşünürlər. Aparılmış tədqiqatın mövzusu bu kimi fikirlərlə yaşayan şirkətlərin Logistikanın mahiyyətinin dərk olunmasında və nəticədə düzgün nəticələrin çıxarılmasına kömək edəcəkdir. Diğər bir tərəfdən Texniki Xidmət üzrə Təlimatın (MOE) yazılması və prosedurun işləməsi (xarici şirkətlərin praktikasına əsasən yazılmaqla yox, daha çox şirkətin daxili siyasəti ilə EASA tələblərindəki riski qiymətləndirmə faktorlarını nəzərə almaqla) də faydalı olacaqdır.

Ədəbiyyat:

1) http://www.airporthaber.com/habom-haberleri/habom-sonunda-muradina-erdi.html

2) Logistics in Part -145 AMOAmikon Aviation traning;

3) http://www.kalite.saglik.gov.tr/content/files/duyurular_2011/2009/21_Agustos_2009/adem_ozturk.pdf

4) SWHS company "Maintenance Organization Exposition" MOE

5) The Chartered Institute of Purchasing & Supply, Workbook Module 9, International Logistics;

6) https://www.easa.europa.eu/ EASA | European Aviation Safety Agency.

Abstract

THE IMPORTENCE OF LOGISTICS PROVISION SYSTEM WITHIN THE FRAMEWORK OF "EUROPEAN AVIATION SAFETY AGENCY" (EASA)

Ziya AHMADOV

Head of logistics department in "Silkway Helicopter Services"

Key words: Logitics, EASA, Part 145, Air transport (in from of planes and helicopters)

Part 145 is a document that gives the right to carry out technical work on civil aviation standards of the European Aviation Safety Agency (EASA). Hangar and maintenance companies must have such a certificate comply with EASA [1].

For this reason, logistics has a great impact on maintaining the level of work performed. The main goal of the research is the best projection of the standards of the International Civil Aviation Organization (ICAO) and EASA on local companies, given their value as part of the logistics department. The authers provides theoretical and practical recommendations for the adjustment of part 145 standarts to Azerbaijans economic realites.

Резюме

СУЩЕСТВЕННОЕ ЗНАЧЕНИЕ, СИСТЕМЫ ЛОГИСТИЧЕСКОГО ОБЕСПЕЧЕНИЯ В РАМКАХ ТРЕБОВАНИИ ЕВРОПЕЙСКОГО АГЕНСТВА ПО АВИАЦИОННОЙ БЕЗОПАСНОСТИ (EASA)

Зия Гасан оглы АХМЕДОВ

"Silkway Helicopter Services" ММС, директор отдела Логистики

Ключевые слова: Логистика, EASA, Part 145, авиатехника (самолеты и вертолеты)

Part 145 это документ, который даёт право на проведение технических работ гражданской авиационной техники по стандартам Европейского Агентства Авиационной Безопасности (EASA). Ангар и техническое обслуживание в компаниях, обладающих таким сертификатом должны соответствовать стандартам EASA [1].

По этой причине Логистика оказывает большое влияние на поддержание уровня выполняемых работ. А какое влияние оказывает Логистика к соответствию требованиям PART 145? Для того чтобы ответить на этот вопрос потребуются результаты исследований представленных ниже. Основной целью исследования является наилучшее проецирование стандартов Международного Общества Гражданской Авиации (ICAO) и EASA на местные компании, учитывая их ценности, в рамках отдела логистики. Во время исследований, для соблюдения стандартов PART 145 в сфере логистики для реалий Азербайджанской экономики были выдвинуты теоритические и практические рекомендации. Помимо этого, анализ научных исследований упомянутых учреждений показывает возможность данных стандартов выявлять недостатки и погрешности выполненных работ, что увеличивает оригинальность и научный подход данных стандартов.

ГОСУДАРСТВЕННАЯ ПОДДЕРЖКА АЗЕРБАЙДЖАНСКИХ ТНК НА МИРОВОМ РЫНКЕ КАК ФАКТОР ЭКОНОМИЧЕСКОГО РОСТА СТРАНЫ

Назрин АЛЕКБЕРОВА
докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики

Отзыв: д.ф.н.э.н Юсиф Зейналов
Ключевые слова: ТНК, мировой рынок,имидж, конкурентоспособность государств, устойчивое развитие, экономический прогресс

Транснационализация бизнеса непосредственно для современного Азербайджана, однозначно важная задача, притом на государственном уровне. Значение местных ТНК обуславливается некоторыми нюансами, например, являясь большим экономическим агентом, они способствуют увеличению конкуренции, как на внутреннем, так и на международном рынке, это для развития экономики полезно, так как повышается конкуренция, служащая позитивным стимулом. Не считая всего сказанного, выход отечественной корпорации прямо на мировой рынок способствует ускорению научно-технического прогресса, появляются новые товары и технологии.

Если есть приличный финансовый капитал, у транснациональной фирмы появляется шанс вложиться в крупномасштабный проект исследовательского института, параллельно удастся поглощать научно-исследовательские фирмы, либо же организовывать собственный центр исследований и разработок. Азербайджанские фирмы неоднократно выходили на мировой рынок, это интегрирует местную экономику, влияет на мировые показатели и повышает имидж страны и национального бизнеса в целом. Таким образом, крупный и средний бизнес сможет совершенно легко привлекать иностранные кредиты и вложения, размещать собственные акции за границей, а также повышать доверие иностранных партнеров. Большой плюс в том, что увеличится активность взаимодействия с разными фирмами Азербайджана.

Масштабы данного процесса колоссальные, но транснационализация Азербайджана, по большому счету зависит не просто от активности сформировавшихся достоинств крупных предприятий в базовых и сырьевых отраслях экономики, но и от роста динамики зарождения плюс укрепления такого типа фирм в иных (независимых и влиятельных) секторах отечественной экономической отрасли. Некоторое влияние на этот процесс наверняка окажут разные внешние факторы, что препятствуют прохождению национального капитала в заграничные материальные активы.

Как и прежде, все актуальнее становится вопрос определения роли, а также места государства по ходу осуществления транснациональной деятельности азербайджанских предприятий в реальном секторе зарубежной экономики (1).

Нужно отметить, что с учетом современных условий, с целью эффективного противостояния Азербайджана новым глобальным вызовам, а еще угрозам со стороны, важно

партнерское взаимодействие страны с бизнесом. Дополнительно формируется государственная идеология в пределах вывоза частного капитала. Значимое место отводится созданию концептуальной и институциональной базы поддержки транснациональной деятельности фирм Азербайджана в заграничном материальном секторе, такое решение должно быть одним из магистральных путей устойчивого развития государства. Одновременно с этим важно анализировать нормативные базовые документы, которые формулируют государственные приоритеты в определенной сфере, соответственно, свидетельствуют о хронической недооценке важности интеграции Азербайджана в пределах мирохозяйственных связей, с учетом прямого инвестирования, роста объема зарубежных активов. Обратите внимание на следующие нюансы.

Если рассмотреть внимательно Концепцию «Азербайджан 2020: взгляд в будущее», с учетом разносторонних международных отношений экономического характера, сразу очевидно развитие национальной экономики в пределах глобализации. Чтобы достичь конкретной цели, страна предположительно должна добиваться определенной выгоды, а также сводить к минимуму риски в будущей интеграции Азербайджана в мировую экономику. Профессионалы обязаны создавать достойные политические условия, чтобы проводить диверсификацию присутствия Азербайджана на мировом рынке, благодаря расширению номенклатуры экспорта, плюс географии связей внешнеэкономического и инвестиционного типа.

Следует принять меры в торговой политике, с целью защитить интересы Азербайджанской республики, соответственно международным правилам, а также противостоять торгово-политическим мерам других стран, которые ущемляют права Азербайджана и его национальных фирм. Хорошо, когда страна сможет оказать содействие национальным организациям в освоении новых классических рынков, будет противостоять дискриминации национальных инвесторов, а также экспортеров, в частности, на рынке наукоемкой продукции и товаров с максимальной степенью обработки.

Подчеркнём тот факт, что доныне, довольно редко используются меры инвестиционного протекционизма. Иногда зарубежные инвесторы получают максимальные возможности, страна почти лишает себя маневренности, особенно в достижении баланса интересов междунациональными и иностранными фирмами. На данный момент ведется тщательная работа по формированию положительного имиджа страны на мировом рынке, главным образом, со стороны Фонда имени Г. Алиева.

В принципе, политика Фонда берет начало с основ нефтяной стратегии общенационального лидера Г. Алиева. Следует отметить, что 17 апреля 1999 года, в истории независимой страны Азербайджан, состоялось важное событие. При участии Гейдара Алиева, тогдашнего руководителя государства, президента Грузии Эдуарда Шеварднадзе, а еще президента Украины Леонида Кучмы, состоялась церемония ввода в эксплуатацию специального нефтепровода, который протянулся от Баку до Супса, терминал последней точки располагается на Черноморском побережье Грузии. Именно

так стартовал экспорт на мировые рынки нефти, которую добывали в месторождении «Чыраг», сначала поток направился на север, затем на запад. Реальная ситуация подтвердила обоснованность экспортной стратегии, которая располагает несколькими вариациями. Она выстроена на долгосрочных стратегических интересах Азербайджана, и сделал это дальновидный общенациональный лидер Гейдар Алиев, он замечательно знал, как справиться с экономическими, коммерческими и многими другими рисками.

Основное направление нефтяной стратегии экс-президента заключалось в транспортировке нефти на мировые рынки. Идея себя оправдала, большая работа завершена, провод тянется от Баку через Тбилиси и заканчивается в Джейхане, он обеспечивает долгосрочную защиту прав Азербайджана, это способствует активному развитию экономического сотрудничества, доставке товаров на мировые рынки, а также растущему количеству нефти. Исключительно за счет высокого авторитета бывшего президента, а также благодаря диалогам глав государств и правительства, постоянным встречам в деловых кругах, нефтяникам удалось подписать межгосударственное соглашение непосредственно о транспортировке азербайджанской нефти напрямую в Турцию.

Имидж Азербайджана начал формироваться, когда во главе стоял Г. Алиев, на данный момент это дело продолжено, с учетом усилий фонда экс-президента, а также с помощью самой ГНКАР. Используя PR-акции доступно достичь высокой эффективности, такому вопросу уделяется особенное значение, даже на мировом уровне. Отметим, что когда Польша вступала в ЕС, на корректировку имиджа пришлось истратить практически 10 миллионов долларов. После крупного кризиса в Азии, состоявшегося в 1990-х годах, Министерство финансов и экономики южной части Кореи наняло крупное PR-агентство, с мировым именем – Burson Marsteller, после чего началось реформирование личной финансовой и инвестиционной политики.

Как бы ни было, целенаправленная информационная компания, параллельно с дипломатическим сопровождением инвестиционного проекта за границей, со стороны государства должна поддерживаться активными действиями высшего руководства фирмы (2). По большому счету, по части проведения точных структурных реформ, а еще вкрапления международных стандартов в разных областях, начиная с некой прозрачности, а заканчивая этикой на деловом уровне, экологией, а еще безопасностью. Одновременно с этим, по поводу ТНК, которые зарождаются в Азербайджане, притом в небольшом размере, с учетом минимального финансового потенциала и опытности, плюс информированности на внешнем рынке, было бы целесообразно осуществлять инвестиционные вложения в зарубежную сферу, применяя широкий инструментарий государственной поддержки (рис. 1).

Если затронуть тему наиболее действенного инструмента, который продвигает инвестиции, это однозначно финансовая поддержка, с учетом международного опыта, приоритет в данной области лучше всего отдавать (3,4):

- проектам, которые гарантируют обеспеченность национальной экономики разными природными ресурсами;
- проектам, положительно сказывающимся на экспорте национальных технологий,

услуг и товаров;

- активам, дающим возможность опираться на результаты зарубежных исследований, на технологические разработки, опыт управления и мнения заграничных специалистов;
- методу слияния и поглощения, что дает возможность конкурировать среди местных предприятий и ускоряет их выход на зарубежный рынок.



Рисунок 1– Схема взаимодействия транснациональных компаний и государства в процессе позиционирования местных ТНК за рубежом (разработана автором)

При государственной идеологии содействия, национальный капитал легко найдет лазейку в зарубежных производственных активах, такой факт предусматривает более серьезное использование зарубежного потенциала правительства Азербайджана. Наиболее важно отладить взаимодействие страны со многими транснациональными потоками определенных международных предприятий. В их числе находится Всемирный банк, Международный валютный фонд, куда собственно входит Азербайджан, а также

Международный центр по урегулированию споров инвестиционного характера (МЦУИС), где наша страна готовится стать полноправным членом.

Не менее важная роль в содействии внедрения азербайджанского капитала, в зарубежный сектор отведена деятельность страны по извлечению колоссальной выгоды от членства в интеграционных объединениях стран, что подразумевают возможность выхода на предельно высокий уровень интеграции, при этом доступно создание свободного рынка, на котором реализуются свободные товарные и капитальные потоки. Ведется активная работа по росту практики эксплуатации механизма по регулированию задолженности государств перед Азербайджаном, благодаря конверсии их долгов в собственности и инвестиции. Таким образом, это должен быть важный аспект государственной политики, что даст возможность продвигать частный и государственный капитал в зарубежный материальный сектор (5).

В принципе, следует сделать вывод, что важно четко координировать любую деятельность, распределяя ее по позициям, отдельно идут отечественные национальные фирмы, а также государства. Стратегический подход ценится давно, особенно в современных условиях, при масштабной трансформации мировой системы экономики, таким образом, повышается влияние азербайджанских ТНК, а также общая конкурентоспособность Азербайджана.

Естественно, отношения между странами и правительством, а также ТНК могут быть конфликтными, нейтральными или кооперативными. Существуют вопросы, которые, как и прежде являются источниками политических и экономических, а еще социальных и юридических конфликтов, в большинстве случаев способны сказаться на межгосударственных отношениях. Есть направления, в пределах которых ценно учитывать общие интересы, а также линии для сотрудничества. Либерализация торговли, а также иностранных вкладов, усилия по продвижению принципа максимального благоприятствования на заграничные фирмы, а также установка идентичного режима для национальных корпораций, все больше нейтрализуют некоторые аспекты отношений между странами и ТНК. Международная региональная интеграция выражает эффект, полученный на основе ведения единой политики вступления на рынок, конкуренции и государственных поставок, требований к предприятиям, функционирующих в регионе, и т.д.

В личной деятельности правительство ставит определенные цели, которые либо совпадают, либо конфликтуют с задачами ТНК, то есть бывает по-разному. По большому счету, разрабатывается глобальная стратегия, создаются центры по принятию серьезных решений. Государство состоит из главных политических элементов международной системы, любая фирма обязана функционировать в конкретных рамках, юридического и институционального характера (6). С учетом такого факта, приходится следовать корпоративной стратегии в разной культурной среде, сразу в нескольких системах, например, юридической и политической, одновременно.

С поставленной задачей справиться не так легко, поскольку для этого важно разра-

батывать тщательную стратегию, с гибкой системой управления, а также наличием конкретных ресурсов. Частично позиции из длинного списка подразумевают адаптацию продуктов и услуг, знакомство менеджеров с предложенными условиями, соблюдение национального законодательства, склонность к участию в общих предприятиях, готовность чтить национальную специфику и придерживаться экспортных квот. Эти нюансы выполнимы, достаточно прийти к соглашению между ними и правительством конкретного государства.

С учетом долгосрочных целей, стратегия местных ТНК должна сопоставляться с ролью страны, как субъекта международной конкуренции. При простых, адекватных рыночных отношениях, с конкурентоспособностью не будет проблем, станет возможным легко закупать товары с мирового рынка, а также поставлять свою продукцию. За счет развития экспорта будет расти благосостояние граждан, ведь поднимается доход и расширяются возможности, параллельно с этим выполняются международные обязательства. Необходимо подчеркнуть, что такой факт обусловлен национальной конкурентоспособностью, он активно стимулируется, а еще торпедируется правительственной политикой. Проще говоря, страны конкурируют только по качеству управления и политической стабильности, развитию экономики, возможности улучшения социально-экономических условий для человека и общего инновационного потенциала государства.

Литература:

1. Материалы конференции серии "Дискурс: Запад - Восток" на тему "Government Relations: анализ политических возможностей для бизнеса и общества". 28-29 января 2008 г. Москва. URL : http://w\vw.stratagema.org/lobbizmpressclip.php?nws=gr-35p6588389785

2. Миронов А..А. Концепции развития транснациональных корпораций. - М: Мысль, 1981.-287 с

3. Михеев В. Логика глобализации и интересы России // Pro et Contra. - 1999. - Т. 4.-№4

4. Мицек С. Следует ли России опасаться глобализации? // Вопросы экономики. - 2002. - № 8

5. Мовсумов О. Глобализация и политика нефтегазовых ТНК // Инвестиции в России. - 2002. - № 7

6. Некипелов А. Д. Процесс глобализации и выбор странами СНГ сценариев социально-экономического развития // Общество и экономика. - 2002.- №2.

Xülasə

DÜNYA BAZARINDA MİLLİ TMK-ların DƏSTƏKLƏNMƏSİ İQTİSADİ YÜKSƏLİŞİN AMİLİ KİMİ

Nəzrin ƏLƏKBƏROVA

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı

Açar sözlər: TMK, dünya bazarı, imic, ölkələrin rəqabət bacarığı, dayanıqlı inkişaf,iqtisadi yüksəliş

Məqalədə yerli şirkətlərin transmilliləşməsi prosesi, onların TMK-lara taransformasiya olunmasının xüsusiyyətləri təhlil edilir. İnvestisiya himayəçiliyi və dünya bazarında ölkənin müsbət imici məsələlərinə xüsusi diqqət yetirilir.

Azərbaycan firmalarının transmilli fəaliyyətinin dövlət tərəfindən konseptual və institusional dəstəklənməsinin önəmliliyi əsaslandırılır.

Abstract

SUPPORT TO THE NATIONAL TNC ON INTERNATIONAL MARKET AS A FACTOR OF ECONOMIC GROWTH

Nazrin ALAKBAROVA

Ph.D student of Academy of Public Administration at the President of the Azerbaijan Republic

Key words: TNC, international market, image, competitiveness of the country, steady development, economic growth

The process of transnationalization of local companies and specifics of their transformation to the TNC are analyzed in this article. Special attention is given to the issues of investment protectionism and positive image of the country on the international market. The importance of conceptual and institutional support from the side of government to transnational activity of Azerbaijan's companies is explained.

MÜASİR İQTİSADİ TƏHLÜKƏSİZLİK PROBLEMLƏRİ

Toğrul ƏLİYEV
AMEA-nın İqtisadiyyat İnstitutu, doktorant

Rəyçi: f.ü.i.d., dos. E.E. Məmmədzadə
Açar sözlər: iqtisadi təhlükəsizlik, milli təhlükəsizlik, iqtisadi böhran, təhdidlər, milli maraqlar

Giriş. Bəlkə də bütün canlıların, o cümlədən insanların əhəmiyyət verdikləri əsas məsələ onların təhlükəsizliyidir. Bütün canlılar onlara məxsus instinktlə, insan isə həm də şüurla öz təhlükəsizliyini daim qorumağa cəhd göstərir. Elə insanların əcdadlarının əvvəl sürü şəklində, sonralar isə qəbilə və tayfa şəklində yaşamaları, daha sonralar isə dövlətin formalaşması da insanların təhlükəsizliyinin daha yaxşı təminatı ilə bağlı olub. Elə bu mənada iddia etmək olar ki, həm instinkt kimi, həm də şüurlu akt kimi «təhlükəsizlik» insan həyatının əsas məqsədlərindən biri olub. Yəni «təhlükəsizlik» anlayışı çox qədim olmasa da bütün digər elmi anlayışlardan ən qədim təbii kökə malikdir.

İlk dəfə elmi ədəbiyyatda «təhlükəsizlik» anlayışına ingilis filosofu Roberin 1190-cı ildə tərtib etdiyi lüğətdə rast gəlinir. Rober «təhlükəsizliyi» istənilən təhlükədən özünü müdafiə edilmiş hesab edən insanın ruhi sakit vəziyyəti kimi qiymətləndirir. Sonrakı dövrlərdə «təhlükəsizlik» ayrıca götürülmüş insan miqyasından daha geniş miqyasa, yəni dövlət miqyasına müncər edilir. Beləliklə, elmi ədəbiyyata «dövlətin təhlükəsizliyi» anlayışı daxil olur [1]. Artıq XVII-XVIII əsrlərdən başlayaraq «təhlükəsizlik» anlayışı elmi ədəbiyyatlarda geniş yayılıb. Bu dövrlərdən başlayaraq insanların rifahının və təhlükəsizliyinin təmin edilməsi dövlətin əsas məqsədi kimi müəyyən edilib. Rusiyada da XIX əsrin axırlarından başlayaraq «dövlət təhlükəsizliyi» anlayışı istifadə edilib [2].

XX əsrdə təhlükəsizlik haqqında təssəvürlər bir qədər də genişləndi. 1904-cü ildə ABŞ prezidenti T. Ruzveltin Konqresə müraciətində «milli təhlükəsizlik» anlayışı işlədilir. Artıq bu dövrlərdən başlayaraq «milli təhlükəsizlik» həm dövlətin ərazisinin qorunmasını, həm də bu ərazilərdən kənarda dövlətin maraqlarının müdafiəsini özündə əks etdirməyə başlayır. Geniş mənada ifadə edilən «milli təhlükəsizlik» anlayışının daxilində «iqtisadi təhlükəsizlik» problemləri getdikcə daha qabarıq şəkildə özünü göstərir. 1985-ci ildə BMT-nin 40-cı sessiyasında beynəlxalq iqtisadi təhlükəsizliklə bağlı qətnamənin qəbulundan sonra «iqtisadi təhlükəsizlik» anlayışı dünya iqtisadi və siyasi ədəbiyyatlarında geniş yayılmağa başladı.

"İqtisadi təhlükəsizlik" anlayışına nəzəri yanaşmalar

Son 30 ildə elmi ədəbiyyatda geniş yayılmasına baxmayaraq, «milli təhlükəsizlik» və «iqtisadi təhlükəsizlik» anlayışlarına hələ də müxtəlif yanaşmalar var. Bəzi müəlliflər «milli təhlükəsizlik» deyəndə şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqlarının daxili və xarici təhlükələrdən qorunmasını nəzərdə tuturlar. «Həyati vacib maraqlar» deyəndə isə şəxsiyyətin, cəmiyyətin və dövlətin varlığını və inkişafını təmin edən

ehtiyaclar toplusu nəzərdə tutulur. «Milli təhlükəsizliyə təhdid» deyiləndə isə adətən elə hadisələr və proseslər nəzərdə tutulur ki, şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqlarının reallaşmasına maneələr yaradır. Lakin «həyati vacib maraqların» müəyyən edilməsi daha çox subyektiv yanaşma ilə müəyyən edildiyindən çox hallarda elmi əsaslandırmadan kənarda qalır.

«Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası» nda Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusu kimi xarakterizə edilir [3].

Şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqları daha çox iqtisadi münasibətlərlə bağlı olduğundan milli təhlükəsizliyin də əsasında iqtisadi təhlükəsizliyin təmin olunması dayanır. «İqtisadi təhlükəsizlik» anlayışına da «milli təhlükəsizlik» anlayışı kimi elmi ədəbiyyatlarda ınüxtəlif' yanaşmalar var. Qeyd edək ki, bəzi alimlər «iqtisadi təhlükəsizlik» anlayışını təkcə dövlətin iqtisadi təhlükəsizliyinə deyil, həm də ayrıca götürülən ailə təsərrüfatına, ınüəssisəyə, regiona və sair aid edirlər. Bəzi iqtisadçılar «iqtisadi təhlükəsizlik» anlayışının mahiyyətinə iqtisadiyyatın qeyri-bərabər inkişafını, dövlət borclarının artmasını, aclığın yayılmasını və sair aspektləri daxil edirlər. Odur ki, onlar iqtisadi təhlükəsizliyin mahiyyətinə milli iqtisadiyyatın müstəqilliyini təmin edən şərtlər və amilləri daxil edirlər. Milli iqtisadiyyatın müstəqilliyi isə dövlətin öz milli ehtiyatları üzərində, həmçinin istehsalın effektivliyinin və məhsulun keyfiyyətinin artırılması üzərində nəzarətinin zəruriliyini nəzərdə tutaraq ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin təmin edilməsi ilə bağlıdır.

Bəzi alimlər iqtisadi təhlükəsizliyin əsas amili kimi rəqabətqabiliyyətli milli iqtisadiyyatın səmərəli inkişafı üçün münbit şəraitin yaranmasını nəzərdə tuturlar. Bu, həm də elə şəraitdir ki, ölkənin həyati vacib maraqları qorunmuş olur. Belə şərait ölkə iqtisadiyyatının və institutlarının elə bir vəziyyəti ilə xarakterizə olunur ki, hətta daxili və xarici qeyri-münasib vəziyyətlərdə milli maraqlar, sosialyönümlü siyasət və müdafiə potensialı təmin edilmiş olsun. İqtisadi təhlükəsizliyin bu amili də xeyli abstraktdır və daha çox subyektiv yanaşma xarakteri daşıyır.

Arxipov A., Qorodetskiy A. və bəzi digər alimlərin fikrincə, iqtisadi təhlükəsizlik millətlərarası və beynəlxalq səviyyədə ictimai ehtiyacların səmərəli təminatın yerinə yetirmək üçün ölkə iqtisadiyyatının «bacarığıdır» [2,4]. Məsələn, Veçkanov Q.S. [3] və başqaları qeyd edirlər ki, iqtisadi təhlükəsizlik miqyasca dəyişərək, müxtəlif sosial səviyyələrdə özünü göstərir. Beləliklə, müxtəlif səviyyələrdə iqtisadi təhlükəsizlikdən söhbət açmaq olar, məsələn, beynəlxalq iqtisadi təhlükəsizlik, milli iqtisadi təhlükəsizlik, hər hansı müəssisənin və ya kollektivin iqtisadi təhlükəsizliyi, ailə təsərrüfatının və fərqin iqtisadi təhlükəsizliyi. Beləliklə, bəzi alimlər iqtisadi təhlükəsizliyə şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqlarına mümkün mənfi təsirləri aradan qaldırılması üçün şəraitin yaradılması prosesi kimi baxırlar. Bu proses qarşılıqlı əlaqədə olan müxtəlif səviyyələrin, məsələn, beynəlxalq, milli, regional, sahəvi, ayrıca götürülmüş təsərrüfat subyekti və şəxsiyyəti əhatə edən səviyyələrin yaratdığı tam sistemdir. İstehsal, sosial və ekoloji sferalar isə bu sistemin mühüm tərkib hissələridir.

İqtisadi təhlükəsizliklə bağlı yuxarıda sadaladığımız bütün tərifl ərdə ümumi cəhət ondan ibarətdir ki, «iqtisadi təhlükəsizlik» hər hansı zaman kəsiyində ölkə iqtisadiyyatının müəyyən vəziyyətidir. Bu «müəyyən» vəziyyət imkan verir ki, ölkənin həyati vacib maraqları qorunsun. Digər tərəfdən, belə «müəyyən» vəziyyətdə ölkənin iqtisadi müvazinətini nə xarici, nə də daxili təhdidlərlə pozmaq mümkün olmur. Lakin «iqtisadi təhlükəsizliyə» verilən belə tərifdə bir neçə anlayışın dəqiqləşməsinə ehtiyac var. Birincisi, qeyd etdiyimiz «müəyyən vəziyyətin» iqtisadi göstəriciləri necə müəyyən edilməlidir. Hansı göstəricilər və bu göstəricilərin hansı qiymətində ölkə iqtisadiyyatının «təhlükəsizlik» səviyyəsinə çatmasını iddia etmək olar? İkincisi, şəxsiyyətin, cəmiyyətin və dövlətin hansı maraqları «həyati vacib iqtisadi maraqlar» hesab edilə bilər? Üçüncüsü, daxili və xarici təhdidlərin miqyası və xarakteri hansı səviyyədə olmalıdır ki, ölkə iqtisadiyyatının «müəyyən vəziyyəti» bu təhdidlərə müqavimət göstərə bilsin? Sonuncu qeyd etdiyimiz məsələ kifayət qədər ciddi məsələdir. Çünki həm daxili, həm də xarici təhdidlərin miqyası müxtəlif ola bilər. Bu müxtəlifliyə uyğun olaraq ölkə iqtisadiyyatının da təhlükəsizlik «immuniteti» müxtəlif ola bilər. Zənnimizcə, milli təhlükəsizlik anlayışı konkret-tarixi mahiyyət daşıyır. Onun tərkib hissələrinin müəyyən şərait xaricində strukturlaşdırılması və öyrənilməsi mənasızdır. Burada «konkret situasiyanın konkret analizi» tələb olunur. Məhz bu, müəyyən edir ki, ölkə üçün hansı sahələrdə hansı şəraitdə təhlükə yaranır, bu təhlükənin dərəcəsi nə qədərdir və nə dərəcədə kəskindir, eləcə də bu təhlükələr arasında əlaqə nə dərəcədədir və sair.

Əlbəttə, bəzi alimlər iqtisadi təhlükəsizliyə daha konkret yanaşaraq ona iqtisadi böhranlar zamanı milli iqtisadiyyatın dözümlülüyü kimi və dünya iqtisadi arenasında rəqabətqabiliyyətliliyinin təmin olunması kimi baxırlar. Burada da «dözümlülük» dərəcəsi xeyli sual doğurur. Çünki ölkə iqtisadiyyatı dünya iqtisadiyyatına nə qədər çox inteqrasiya olunursa, qlobal iqtisadi böhranların təsirinə də bir o qədər məruz qalmaq şansı yaranır. Odur ki, iqtisadi təhlükəsizlik tələbi bəzi ölkələrin iqtisadiyyatı qarşısında dilemma yaradır: birincisi, dünya təsərrüfat sisteminə inteqrasiya, ikincisi, öz təhlükəsizliyini təmin etmək gücündə olan iqtisadi sistemini formalaşdırmaq.

Dövlətin iqtisadi təhlükəsizliyinin struktur elementlərinə texnoloji, istehsal, xammal, valyuta-kredit, enerji, informasiya, ərzaq və ekoloji təhlükəsizlik kimi elmentlər daxildir. Dövlətin iqtisadi təhlükəsizliyinin təminatı üçün elementlərin hər biri üzrə həyati vacib maraqların qorunması vacibdir.

Nəzərə almaq lazımdır ki, iqtisadi təhlükəsizliyin müxtəlif aspektləri, yəni fərdin, kollektivin, cəmiyyətin və dövlətin iqtisadi təhlükəsizliyi bir-biri ilə qarşılıqlı əlaqədədir. Bu aspektləri iqtisadi təhlükəsizliyin subyektləri hesab etsək, onların iqtisadi təhlükəsizliyini daha aydın dərk etmək və təmin etmək üçün hər şeydən əvvəl onlara qarşı mümkün təhdidləri və təhlükələri müəyyən etmək və aradan qaldırmaq yolları düşünülməlidir. Başqa sözlə desək, təhlükəsizliyin təmin edilməsi mümkün təhlükələrin vaxtında aşkarlanmasından və aradan qaldırılmasından keçir.

İqtisadi təhlükəsizlik milli təhlükəsizliyin tərkib hissəsi olduğundan milli təhlükəsizliyə istənilən təhdid elə iqtisadi təhlükəsizliyə də təhdiddir. Bununla yanaşı iqtisadi təhlükə-

sizliyin öz xarakterik xüsusiyyətləri olduğundan onun öyrənilməsi və təmin edilməsi üçün zəruri olan metodoloji addım mümkün iqtisadi təhlükələrin müəyyən edilməsidir. Odur ki, «təhlükə» anlayışının da düzgün müəyyənləşməsi «təhlükəsizlik» anlayışı qədər vacibdir. «Təhlükə» anlayışı ümumi halda şübhəsiz ki, iqtisadi sistemin normal fəaliyyətinə və inkişafına dağıdıcı təsir göstərə bilən bütün amillərin məcmusu kimi xarakterizə edilə bilər. Dövlətin iqtisadi təhlükəsizliyinə yaranan təhdidlər konkret halda onun struktur elementlərinə, o cümlədən texnoloji, istehsal, xammal, valyuta-kredit, enerji, informasiya, ərzaq və ekoloji sahələrə yaranan təhdidlərdən ibarət olur.

Hər hansı bir ölkə üçün xarakterik olan təhlükələri daxili və xarici təhlükələr kimi iki qrupa bölmək olar. Həmçinin, başvermə ehtimalından asılı olaraq təhlükələri «real» və «potensial» təhlükələr kimi iki qrupa bölmək olar.

L. Abalkinə görə iqtisadi təhlükəsizliyin daxili göstəricilərini belə qruplaşdırmaq olar [1]:

Sxem 1. İqtisadi təhlükəsizliyin daxili göstəriciləri

Sxem 1-dən göründüyü kimi, iqtisadi təhlükəsizliyin daxili göstəricilərinə: a) milli iqtisadiyyatın prinsipial xüsusiyyətlərini və inkişaf meylini əks etdirən makroiqtisadi göstəricilər; b) xüsusi sosial-iqtisadi göstəricilər; c) funksional və sahə səviyyəli göstəricilər daxildir. Bu göstəricilərin hər biri onların tərkib hissəsi olan digər göstəricilərin qrupudur. Belə ki, məsələn, makroiqtisadi göstəricilərə ÜDM-in həcmi, hərbi xərclərin ÜDM-in xərcində payı, daxili və xarici borcların miqdarı və sair daxildir. İkinci qrup göstəricilərə isə buğda yığımının ümumi həcmi, əsas kapitala investisiyaların miqdarı və elmi xərclərin ÜDM -da həcmi və sair daxildir. Üçüncü, qrupa isə monetarlaşma səviyyəsi, inflyasiya səviyyəsi, valyuta ehtiyatların həcmi və sair daxildir. İqtisadi təhlükəsizliyin daxili göstəricilərinin belə qruplaşdırılması geniş informasiya versə də müəyyən suallar doğurur. Məsələn, hərbi xərclərin həcmi və ya dinamikası necə olanda ölkə iqtisadiyyatı təhlükəsiz olur? SSRİ-nin hərbi xərcləri ilə müqayisədə Braziliyanın hərbi xərci xeyli az olsa da SSRİ iqtisadiyyatı asanlıqla çökdü. L. Abalkinin qeyd etdiyi bütün göstəricilər üzrə SSRİ regionun ən güclü ölkəsi olsa da öz təhlükəsizliyini qoruya bilmədi. L. Abalkin iqtisadi təhlükəsizliyin xarici göstəricilərini belə qruplaşdırmağı təklif edir [1]:

Sxem 2. İqtisadi təhlükəsizliyin xarici göstəriciləri

Sxem 2-də iqtisadi təhlükəsizliyin xarici göstəricilər kimi: a) dövlət borcunun yol verilə bilən həcmi; b) dünya bazarında ölkənin mövqeyinin saxlanması və ya itirilməsi; c) milli iqtisadiyyatın idxal olunan xammaldan, texnikadan və ehtiyat hissələrindən asıllığı əsas götürülür. Bu göstəricilərin də hər biri çoxlu sayda alt göstəricilərin qrupları kimi xarakterizə oluna bilər. İqtisadi təhlükəsizliyin yol verilə bilən «hədlərinin» müəyyən edilməsi üçün L.Abalkinin təklif etdiyi daxili və xarici göstəricilər sistemi bütün ölkələr üçün universal olmasa da iqtisadi təhlükəsizlik problemlərinin daha çox əhatə etdiyi sahələri özündə ehtiva edir.

Hər bir tarixi dövrdə hər hansı bir ölkənin iqtisadiyyatı üçün müxtəlif xarakterli təhlükələr ola bilər. Yəni elə bir universal «təhlükələr məcmusu» göstərmək olmaz ki, hər bir ölkə üçün xarakterik olsun. Lakin elə əsas iqtisadi təhlükələr var ki, əksər ölkələrin iqtisadiyyatı üçün onlar ciddi təhlükələr yarada bilər. Məsələn, terrorizm, elmi-texniki potensialın dağılması, valyuta ehtiyatlarının ölkədən sürətlə və böyük həcmdə çıxarılması, idxaldan asılılığın kəskin artması, cəmiyyətdə maddi cəhətdən təbəqələşmənin dərinləşməsi, xarici borcların artması, iqtisadi münasibətlərin kriminallaşması və sair. Sadaladığımız bu təhlükələr bu və ya digər dərəcədə hər bir ölkədə mövcud ola bilər. Lakin ölkə iqtisadiyyatı üçün bu hadisələr o zaman «təhlükə» olur ki, onlar o ölkə üçün «müəyyən edilən həddi» keçmiş olsun. Odur ki, hər hansı bir ölkə üçün iqtisadi təhlükəsizliyin təminatı mümkün təhlükənin həddinin dəqiq müəyyən edilməsi ilə bağlı olur. Potensial təhlükə kimi qiymətləndirilən hər hansı hadisə və ya proses müəyyən edilən həddi aşanda real təhlükəyə çevrilir. Qeyd etmək lazımdır ki, belə hədlər hər bir ölkə üçün özünəməxsusdur. Məsələn, ABŞ üçün ölkənin xarici borc həddi, Türkiyə üçün və ya Rusiya üçün olan hədlə eyni deyil və ola da bilməz. Çünki hər bir ölkənin öz iqtisadi özəlliyi var.

Nəticə. Beləliklə, iqtisadi təhlükəsizliyin təmin edilməsi üçün öyrənilməsi vacib olan potensial və real təhlükələrin klassifikasiyasının aparılması və hər bir potensial təhlükə üçün yol verilə bilən hədd qiymətlərinin müəyyən edilməsi vacibdir. Belə hədd qiymətlərinin müəyyən edilməsi isə müxtəlif metodologiya ilə reallaşır. Hədd göstəriciləri ilə müvafiq iqtisadi göstəricilərin müqayisəsi iqtisadi təhlükəsizliyin dərəcəsini müəyyən etməyə imkan verə bilər.

Ədəbiyyat:

1. Абалкин Л. Экономическая безопасность России: угрозы и их отражение // Вопр. Экономики, 1994, №12, 5.18

2. Архипов А. Экономическая безопасность: оценки, проблемы, способы обеспечения / А.Архипов, А.Городецкий. Михайлов // Вопросы экономики. 1994, №12.

3. Вечканов Г.С. Концептуалъные аспекты экономической безопасности России // Социальные технологии и современное общество. СПб., 2003, № 5, с.16.

4. Гугман Г.В., Лапыгин Ю.Н., Прилепский А.И. Экономическая безопасность региона. М.: Наука, 1996,- 121 с.

5. Моисеенко Е.Г. Экономическая безопасность государства Мн.: ИНБ РБ, 2001, - 130 с.

Abstract

MODERN PROBLEMS OF ECONOMIC SECURITY

Togrul ALIYEV

Ph.D student of Institute of Economy of ANAS

Key words: economic security, national security, economic crisis, threats, national interests

In article various problems of economic security are investigated. The author studies the aspects of national security connected with the economic relations in the sphere of important interests of the personality, society and the state. The differences between the concepts "economic security" and "national security" is analyzede too. The assessment of such structural elements of economic security of the state as technological, production, currency and credit, energy, information security is carried out. The author provides the scientifically generalized conclusions in the end.

Резюме

СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

Тогрул АЛИЕВ

Докторант Института Экономики НАН Азербайджана

Ключевые слова: экономическая безопасность, национальная безопасность, экономический кризис, угрозы, национальные интересы

В статье исследуются различные проблемы экономической безопасности. Автор изучает аспекты национальной безопасности, связанные с экономическими отношениями в сфере важных интересов личности, общества и государства. Здесь также анализируется различие между понятиями «экономическая безопасность» и «национальная безопасность». Проводится оценка таких структурных элементов экономической безопасности государства как технологическая, производственная, сырьевая, валютно-кредитная, энергетическая, информационная безопасность. В заключении автор приводит свои научно обобщённые выводы.

YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNİN RƏQABƏTQABİLİYYƏTLİLİYİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

Ceyhun VƏLİYEV
Sumqayıt Dövlət Universiteti, doktorant

Rəyçi: i.e.n., dos. Müslümat Allahverdiyeva
Açar sözlər: rəqabətqabiliyyətlilik, innovasiya, səmərə, infrastruktur, rəqabət potensialı, mənfəət

Dünya təsərrüfat əlaqələrinin müasir səviyyəsi və qloballaşma prosesi iqtisadiyyatın bütün sferalarında yeni təzahürlər doğurmaqla dərin struktur dəyişikliklərinə səbəb olmaqdadır. Yeni texnologiyaların istehsalata cəlb edilməsi fonunda milli və beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsi böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Təsadüfi deyil ki, qarşılıqlı iqtisadi əlaqələrin inkişaf meyili və istiqaməti ölkələrin dünya bazarında möhkəmlənməsinə zəmin yaratmışdır. Təsərrüfat əlaqələrinin transmilliləşdirilməsi və bazarların qloballaşması ölkələr və iqtisadiyyatın müxtəlif sferaları arasında bazarlar uğrunda rəqabət mübarizəsinin kəskinləşməsinə, bu mübarizənin yeni forma və metodlarının meydana çıxmasına gətirib çıxarmışdır. Hazırda beynəlxalq rəqabət demək olar ki, qlobal xarakter almışdır. Belə ki, rəqabət dünya təsərrüfatı sistemində yer tutmaq üçün milli iqtisadiyyatın səmərəliliyinin yüksəldilməsi mexanizminin formalaşdırılmasına istiqamətlənir [1]. Rəqabətqabiliyyətlilik isə dünya təsərrüfat sistemində konkret müəssisənin, sahənin və məhsulun vəziyyətini müəyyən edən mühüm göstəricisi kimi çıxış edir.

Ümumi şəkildə rəqabət iqtisadi artımın, məhsulun keyfiyyətinin yaxşılaşdırılmasının, elmi-texniki tərəqqinin sürətlənməsinin, istehsal xərclərinin azaldılmasının və mənfəətin artırılmasının, eləcə də istehsal və emal müəssisələri arasında qarşılıqlı iqtisadi münasibətlərin inkişafının stimullaşdırıcı amillərindəndir. Rəqabət strategiyaları əsasında bazar şəraitinə uyğunlaşdırılan tədbirlərin müəyyənləşdirilməsində tələbin təmin edilməsi, innovasiyaların tətbiqi, sosial və iqtisadi şəraitin dəyişməsi və s. əsas məsələlərdən hesab edilir. Bu baxımdan rəqabət strategiyalarının hazırlanması uzunmüddətli və səmərəli nəticələrə hesablanan vacib tədbirlərdəndir.

İqtisadi ədəbiyyatlarda rəqabət strategiyasında əsas obyekt kimi məhsul, kapital, mənfəətin maksimallaşdırılması, bazarda davranış, texnologiya, bazar təsərrüfatçılıq sistemi və s. qəbul edilir. Rəqabət strategiyasının seçilməsində isə aşağıdakı amillər əsas kimi göstərilir: təhlil əsasında müəyyən edilmiş strateji inkişaf məqsədləri üçün müəssisələrin zəif rəqabət mövqelərinin aradan qaldırılması və güclü mövqelərinin möhkəmləndirilməsi ilə bağlı fəaliyyət; strateji potensialın tərkib hissələri bütün resurs növləri ilə bağlı olduğundan, bu və ya digər resursun digərləri ilə qarşılıqlı əlaqədə genişləndirilməsi üçün müəyyən olunmuş strateji məqsədlərin gerçəkləşdirilməsi ilə bağlı tədbirlər.

Rəqabət strategiyasının hazırlanması zamanı müəssisələrin güclü və zəif tərəfləri, sahənin

özünün və milli iqtisadiyyatın həmin sahədə və bütövlükdə ölkədə rəqabəti müəyyənləşdirən strukturları haqqında mümkün qədər tam təsəvvürə malik olmaq lazım gəlir. Rəqabət strategiyası baxımından formalaşmış mühitin müəssisələrin rəqabət üstünlüyünün yaranmasına hansı şəkildə təsir göstərə biləcəyini dəqiq bilmək xüsusilə vacibdir.

Hər bir müəssisə üçün rəqabət strategiyasının hazırlanması zamanı rəqabət qabiliyyətinin yüksəldilməsi istiqamətindəki tədbirlər iqtisadi ədəbiyyatlarda aşağıdakı kimi təsnifləşdirilir: milli iqtisadiyyat və onun dünya təsərrüfat sistemində mövqelərinin möhkəmləndirilməsinə yönəldilmiş, məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsini şərtləndirən ümumi xarakterli tədbirlər; istehsalçıların ixrac fəaliyyətinin həyata keçirməsinə və genişləndirilməsinə birbaşa yardımlar; xarici bazarlarda milli istehsalçıların məhsullarına tələbin formalaşmasına yönəldilmiş tədbirlər.

Elmi-texniki tərəqqinin inkişafı, iqtisadi proseslərə qloballaşmanın təsiri iqtisadiyyatın digər sferalarında olduğu kimi yüngül sənayedə də rəqabətqabiliyyətli məhsul istehsalını şərtləndirməkdədir. Bu məqsədlə innovasiyaların tətbiqinin stimullaşdırılması vacib məsələlərdən hesab edilir. Araşdırmalar göstərir ki, yüngül sənaye müəssisələrində rəqabətqabiliyyətliliyə çoxsaylı amillər təsir edir. Müəssisələr səviyyəsində rəqabətqabiliyyətlilik konsepsiyasının əsaslandığı başlıca istiqamət resurslardan səmərəli istifadəyə söykənir. İnsan resursları, təbii resurslar, elmi və informasiya potensialı, maliyyə resursları, infrastruktur sahələri də yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətlilik konsepsiyasının tərkib hissəsidir. Bu şərtlər daxilində rəqabət üstünlüyünün əldə edilməsi müəssisələrin onlardan istifadəsinin səmərəliliyindən, amillərin məhsulların dəyərini dəyişməyə qabil olan texnologiyaların tətbiqi yolu ilə rəqabətqabiliyyətlilik amillərinin inkişafından bilavasitə asılıdır.

İnsan resursları və təbii resurslar yüngül sənaye müəssisələrinin fəaliyyəti ilə bağlı olmasa da digər amillər - maliyyə resursları və infrastruktur sahələrinin inkişafı məhz müəssisələrin təsərrüfat fəaliyyətinin nəticələrinə söykənir. Elmi-texniki və informasiya potensialı isə müəssisələrin rəqabət strategiyasının tərkib hissəsi kimi innovasiyaların cəlb edilməsi ilə şərtlənir [2]. İnnovasiyaların yüngül sənaye müəssisələrinin inkişafında əhəmiyyətli cəhətlərindən biri keyfiyyətli məhsul istehsalı hesabına rəqabət üstünlüyü əldə edilməsinə zəmin yaratmasıdır.

Yüngül sənaye müəssisələrinin rəqabətqabiliyyətlilik konsepsiyasında əsas yerlərdən birini də xammal istehsalçıları ilə qarşılıqlı iqtisadi əlaqələr tutur. Xammal istehsalını həyata keçirən həmin sahələrin bir qismi bir-birinə yardım və xidmət edən qarışıq sahələri özündə birləşdirir. Onlar emal müəssisələrinə satacaqları xammalın qiymətini əvvəlcədən sövdələşmə əsasında inhisarlaşdırma mövqeyindən çıxış edə bilir. Təbii ki, belə şəraitdə həm xammalın əldə edilməsində, həm də istehsal edilən məhsulların satışında yüngül sənaye müəssisələrinin rəqabət imkanları məhdudlaşır. Bəzi hallarda bunun əksini, yəni emal müəssisələrinin xammalın əldə edilməsində inhisarçı mövqedən çıxış etməsini də müşahidə etmək mümkündür. Ona görə də müəssisələrin rəqabət strategiyasında xammal istehsalı və emalı müəssisələri arasında inteqrasiya münasibətlərinə xüsusi önəm verilməlidir.

Rəqabətqabiliyyətlilik amilləri sistemində xarici amillər də iştirak edir və özünəməxsus

yer tutur - dövlətin iqtisadi siyasəti, müxtəlif iqtisadi-siyasi hadisələr, resursların qiymətlərinin kəskin dəyişməsi, sosial vəziyyət və s. Bu baxımdan rəqabətqabiliyyətlilik məsələlərində iqtisadiyyatın strukturu, əmək bazarının çevikliyi, xammal bazarının səmərəliliyi, daxili və regional bazarlarda yerdəyişmə kimi amilləri nəzərə almaq lazımdır [3]. Bundan başqa, ölkənin müasir texnologiyalara uyğunlaşma və ondan istifadə potensialını, innovasiya və investisiya cəlbediciliyinin səviyyəsini və s. bilmək vacibdir. Bu zaman institusional inkişaf, infrastrukturun inkişaf səviyyəsi, makroiqtisadi mühit, mütəxəssis hazırlığı, bazar mexanizmlərinin səmərəliliyi, texnoloji hazırlıq, innovativ inkişaf və s. əsas məsələlər kimi önə çəkilməlidir.

Yüngül sənaye müəssisələrinin inkişaf strategiyasında rəqabətqabiliyyətliliyin səviyyəsini, rəqabətin inkişafını, mərhələlərdən hər birinin hərəkətverici qüvvəsini müəyyən edən daxili amillərin təhlilinə xüsusi önəm verilir. Bu baxımdan daxili rəqabət xüsusi əhəmiyyət kəsb edir. Daxili rəqabət bütün rəqabətqabiliyyətlilik sisteminin əsas amillərindən biri kimi onun fəaliyyətinin bütövlüyünü təmin edir və istehsal prosesinin şaxələndirilməsinin əsaslandırılmasında da mühüm əhəmiyyət kəsb edir. Son illər müvəffəqiyyətli daxili rəqabət üçün innovasiyalar əsasında, konkret olaraq innovasiya siyasəti istiqamətində kompleks tədbirlər hazırlanmaqla istifadə edilir. İnnovasiya siyasətinin köməyi ilə həll edilən məsələlərə intellektual kapitalın müəyyənləşdirilməsi üçün ölkənin seçilməsi, yeni texnologiyaların əldə edilməsi, innovasiya proqramları üçün maliyyə resurslarının, güzəştlərin, eləcə də zəruri resursların alınmasını və s. aid etmək olar. Bütün hallarda innovasiyalar əsasında sağlam rəqabət mühitinin formalaşdırılmasının son məqsədi maksimum gəlirin əldə edilməsi olduğundan məsələlərə kompleks yanaşılması zərurəti yaranır.

İnnovasiyaların tətbiqi yüngül sənaye müəssisələrinin ixrac siyasətində rəqabətqabiliyyətlilik üçün mühüm istiqamətlərdən hesab edilir. Lakin ixrac yönümlü məhsul istehsalının həyata keçirilməsində innovasiyaların cəlb edilməsi zamanı ilk növbədə yerli şərait nəzərə alınmaqla daxili resurslardan səmərəli istifadəyə üstünlük verilməlidir. Çünki yüngül sənaye müəssisələrinin əsas xammalı daxili resurslar hesabına formalaşır. Eyni zamanda ixrac prosesinin reallaşdırılmasından əvvəl daxili tələbatın ödənilməsinə xüsusi önəm verilməlidir.

Ümumiyyətlə innovasiyaların istehsalata cəlb edilməsi hesabına ölkənin elmi-texniki potensialının genişlənməsinə, mövcud olan rəqabətqabiliyyətlilik amillərindən istifadənin səmərəliliyinin yüksəlməsinə, innovasiya prosesinin intensivləşməsinə və son nəticə olaraq müəssisələrin rəqabət qabiliyyətinin yüksəlməsinə səbəb ola bilər.

Ədəbiyyat:

1. Портер М. Международная конкуренция / Пер. с англ., под ред. В.Д. Щетинина. - М.; Международные отношения, 1993. - 896 с.

2. Дынкин А.А. Инновационная экономика / А.А. Дынкин, М.В. Грачев, Н.И. Иванова; Под ред. А.А. Дынкина. - М.; Наука, 2001. - 293 с.

3. Структурная перестройка и конкурентоспособность экономики РБ: проблемы и

пути их решения / Александрович Л.М. и др. – Мн.: ГНУ «НИЭИ Минэкономики РБ», 2004. – 168 с.

Abstract

FACTORS CONTRIBUTING TO THE COMPETITIVENESS OF LIGHT INDUSTRY ENTERPRISES

Jeyhun VALIYEV

Ph.D. student of Sumgait State University

Key words: competitiveness, innovation, efficiency, infrastructure, competition, potential profits

One of the key indicators defining various spheres of the economy, including the prospects for the development of light industry enterprises is competitiveness. Being multi-branched, factors that affect competitiveness consist of numerous parameters, areas that help each other and operate mutually, their structure, strategy and competitive potential of the enterprises.

Резюме

ФАКТОРЫ, ОБУСЛАВЛИВАЮЩИЕ КОНКУРЕНТОСПОСОБНОСТЬ ПРЕДПРИЯТИЙ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ

Джейхун ВЕЛИЕВ

докторант Сумгаитского Государственного Университета

Ключевые слова: конкурентоспособность, инновации, эффективность, инфраструктура, потенциал для конкуренции, прибыль

Конкурентоспособность является одним из основных показателей, определяющих перспективы развития различных отраслей экономики, в том числе и предприятий легкой промышленности. Факторы, влияющие на конкурентоспособность, разнообразны и состоят из многочисленных параметров, взаимосвязанных и взаимодействующих отраслей, их структуры, стратегии предприятий и их потенциал для конкуренции.

AZƏRBAYCANIN STATİSTİK VERİLƏNLƏRİNƏ ƏSASƏN GƏLİRİN XALİS İXRACATA TƏSİRİNİN EKONOMETRİK ANALİZİ

Turac MUSAYEV
Azərbaycan MEA İdarəetmə sistemləri İnstitutu, doktorant

Rəyçi: İnzibati idarəetmə kafedrasının baş müəllimi İlhamə Aslanova
Açar sözlər: Mal və xidmətlərin xalis ixracı, dolların manata məzənnəsi, neftin dünya bazarındakı qiyməti

Giriş. Azərbaycana çox böyük əminliklə kiçik iqtisadiyyat kimi nəzər yetirmək olar. Belə ki, Azərbaycan kapitalı dünya fonunda nəzərə çarpacaq deyil və beynəlxalq faiz dərəcəsinə nəzərə çarpacaq təsir göstərə bilmir. Anoloji olaraq bu fakt da şübhə doğurmur ki, Azərbaycan açıq iqtisadiyyatdır. Ancaq Azərbaycan iqtisadiyyatını kapitalın mütləq mobilliyi olan iqtisadiyyat kimi qəbul etmək olmaz. Bu verifikasiya (uyğunluğun yoxlanması) 1992-2013–cü illərin iqtisadi modellərin məlumatlarına əsasən aparılmışdır. Modelin verifikasiyasına keçməzdən qabaq o fikri yoxlamaq lazımdır ki, ideal olmayan kapital hərəkətli kiçik açıq iqtisadiyyatın əsas funksionallığı daxili faiz dərəcələrinin beynəlxalq faiz dərəcələrindən fərqlənməsidir. Azərbaycanın daxili real faiz dərəcələrinin beynəlxalq faiz dərəcələri ilə müqayisəsi aparılmışdır, beynəlxalq olaraq Amerika iqtisadiyyatındakı faiz dərəcəsi istifadə olunmuşdur.

1. Xalis ixracatın ümumi daxili məhsuldan, mübadilə kursundan və neftin dünya bazarındakı qiymətindən asılılığının qiymətləndirilməsi

Xalis ixracatın xalis gəlirdən, xalis mübadilə kursundan və beynəlxalq neft qiymətindən asılılığı qiymətləndirilmişdir. Axırıncı göstəricilərin salınması onunla izah olunur ki, son illər xalis ixracatın dinamikası neftin qiymətinin dinamikasından çox asılı olmuşdur. Qeyd edilən hər bir göstəricilərə görə aylıq verilənlər istifadə olunmuşdur. Aşağıdakı halın asılılığı araşdırılmışdır:

$$LOG(MXXI) = C(1)*LOG(DMM) + C(2)*LOG(ÜDM) + C(3)*LOG(NDBQ(-1)), \quad (1)$$

Burada, MXXI- mal və xidmətlərin xalis ixracı, DMM – dolların manata nəzərən dəyişmə məzənnəsini göstərir (1 ABŞ dolları = ... AZN), ÜDM – Ümumi daxili məhsul, NDBQ – neftin dünya bazarında qiyməti (1 barell=...ABŞ dolları). C(1), C(2), C(3) reqresiyya əmsallarıdır və müvafiq olaraq MXXI-in, DMM, ÜDM və NDBQ göstəricilərinə nəzərən elastiklik əmsallarıdır və aşağıdakı kimi ifadə olunurlar:

$$C(1)=\frac{\partial(MXXI)}{\partial(DMM)}\frac{DMM}{MXXI},\ C(2)=\frac{\partial(MXXI)}{\partial(ÜDM)}\frac{ÜDM}{MXXİ},\ C(3)=\frac{\partial(MXXİ)}{\partial NDBQ}\frac{NDBQ}{MXXI}.$$

NDBQ, DMM və ÜDM –in illər üzrə dəyişməsi Qrafik 1-dəki kimidir:



Qrafik1. Neftin dünya bazarında qiyməti



Qrafik 2. Dolların manata nəzərən dəyişmə məzənnəsi



Qrafik 3. Ümumi daxili məhsul

(1) reqresiya tənliyini Azərbaycanın 1992-2013-cü illəri əhatə edən statistik verilənləri ilə Eviews sistemində realizasiyasından aşağıdakı ekonometrik model alınmışdır:

LOG(MXXI) = 0.3916070415*LOG(DMM) + 0.3490655686*LOG(UDM) + 2.916292034*LOG(NDBQ(-1))

(2)

(s.s)	(0.187649)	(0.179468)	(0.790598)
t-statistika	2.086913	1.945000	3.688717
p-ehtimal	0.0704	0.0877	0.0061

R-squared=0.947039, Adjusted R-squared=0.933799, Durbin-Watson stat=1.515467

Mötərizələrdə orta kvadratik kənarlaşmalar və ya standart səhvləri, R-squared- Determinasiya əmsalı, Adjusted R-squared- Dəqiqləşmiş determinasiya əmsalını, Durbin-Watson stat - Darbin Vatson statistikasını göstərir.

Reqressiya tənliyinin parametrlərinin tapılmış qiymətlərinin standart səhvləri müvafiq qiymətlərə nəzərən kiçik, t-statistikanın böyük və p-ehtimalın kiçik olması göstərir ki, DMM, ÜDM və NDBQ faktorları Mal və xidmətlərin xalis ixracına əhəmiyyətli təsir edir. Determinasiya əmsalının 0.947039 ədədinə bərabər olması göstərir ki, bu faktorların dəyişməsi xalis ixracın dəyişməsinin təxminən 94.7 faizini izah edir. Dəqiqləşdirilmiş determinasiya əmsalının qiymətinin determinasiya əmsalının qiymətinə yaxın olması bu nəticənin təsadüfi olmadığını göstərir. Darbin-Vatson statistikası 0 və 4 qiymətləri arasında dəyişə bilir, 2 ətrafında olması arzu edilən haldır və qalıqların birinci tərtib avtokorelyasiyasının mövcud olmamasını göstərir. Bu modeldə də 1.5 -ə bərabərdir ki, bu da ideal olmasa da qəbul ediləndir. Beləliklə alınmış ekonometrik model adekvatdır və təhlil üçün əhəmiyyətlidir.

Nəticə. Nəticə olaraq deyə bilərik ki, (1) modeli göstərir ki, xalis ixrac (MXXİ)DMM, ÜDM və NDBQ ilə düz mütənasib asılıdır. Başqa sözlə dolların manata nəzərən məzənnəsinin (DMM) bir faiz artması xalis ixracı 0.3916070415 faiz artırır. Yəni manat dollara nəzərən bahalaşdıqca xalis ixrac da artır. Bu nəticə nəzəri müddəalara zidd olsa da neftlə zəngin ölkələr üçün qəbul ediləndir. Belə ki, xalis ixrac əsasən neft ixracı hesabına olduğundan beynəlxalq rəqabətə məruz qalmır. ÜDM-in bir faiz artması xalis ixracı 0.3490655686 faiz artırır. Neftin dünya bazarında qiymətinin bir faiz artması isə xalis ixracı daha çox (2.916292034 faiz) artırır. Lakin bu, bir il gecikmə ilə baş verir. Yəni neftin əvvəlki ildə qiymətinin artması növbəti ildə ixracı artırır.

Ədəbiyyat:

1. Агапова Т.А., Серегина С.Ф Макроэкономика: Учебник/ Под общей ред. д.э.н., проф. А.В.Сидировича; МГУ им. М.В.Ломоносова. – 6- е изд., стереотип. – М.: Издательство “Дело и Сервис”, 2004. - 448 с. – (“Учебники МГУ им. М. В. Ломоносова”).

2. Y.H. Həsənli, R.T. Həsənov. İqtisadi tədqiqatlarda riyazi üsulların tətbiqi / Nafta –

Press nəşriyyatı, Bakı 2002. -300 s.
3. N.Q. Mənkyu. Ekonomiksin əsasları (İngilis dilindən tərcümə) Bakı -2010. -836 s

Abstract

ECONOMETRIC ANALYSIS OF THE IMPACT OF INCOME TO THE BASIS OF STATISTICAL DATA IN AZERBAIJAN

Turac MUSAYEV
Institute of Management Systems, ANAS

Key words: Net exports of goods and services, the dollar exchange rate of manat, world oil prices

Net export was estimated in Azerbaijan for 1992-2013 in the research. So, econometric models of the dependence of net export on GDP, world oil prices and USD to AZN rate have been evaluated.

Резюме

ЭКОНОМЕТРИЧЕСКИЙ АНАЛИЗ ВЛИЯНИЯ ДОХОДА НА ЧИСТЫЙ ЭКСПОРТ НА ОСНОВЕ СТАТИСТИЧЕСКИХ ДАННЫХ АЗЕРБАЙДЖАНА

Турадж МУСАЕВ
докторант Института систем управления,
Национальная академия наук Азербайджана

Ключевые слова: Чистый экспорт товаров и услуг, Курс доллара к манату, Цена нефти на мировом рынке

В данном тексте описывается чистый экспорт с 1992- по 2013 годы. По этой причине отношение доллара к манату чистого экспорта, валовой продукт и зависимость нефти от цен на мировом рынке, эконометрические модели были оценены.

ƏBÜLHƏSƏN RACİ

Zaman ƏSGƏRLİ
f.e.d, prof.

Açar sözlər: klassik poeziya, qəzəl, qəsidə, poetik üslub

Giriş. Həyat və yaradıcılığı çox az öyrənilən istedadlı şair Əbülhəsən Raci XIX əsrin ortalarında Cənubi Azərbaycan ədəbi-mədəni mühitində yetişən mahir bir söz ustadıdır. Onun klassik poeziya üslubunda yazılmış "lətif qəzəlləri və cigərsuz növhələri" (F.Köçərli) təkcə Azərbaycanda deyil, həmçinin İran, Zaqafqaziya və Dağıstan türkləri arasında geniş yayılaraq muğam və təziyə məclislərində oxunmuş, müəllifinə dərin hörmət və məhəbbət qazandırmışdır. Raci klassik şeirin qəsidə janrını, xüsusilə mərsiyə və növhəni XIX əsrdə yeni bir inkişaf pilləsinə yüksəltmiş, Azərbaycan lirikasını məzmunca xeyli zənginləşdirmişdir.

Hacı Əbülhəsən Racinin ömür yolu, tərcümeyi-halı haqqında ətraflı məlumat yoxdur. Hələ XX əsrin əvvəllərində Firidun bəy Köçərli böyük təəssüf və heyrətlə yazırdı ki, şeirləri dəfələrlə çap olunub, "böyükdən kiçiyə kimi cümlə əhli-savadın dilində cari olan" Racinin "tərcümeyi-halına dair lazım olan məlumatı cəm etməkdə aciz olduq. Divani-qəzəliyyat, qəsaid və növhəcatına rücu etdik də şairin öz halü şəninə və filcümlə seyr-sülukuna məxsus bir işarə də bulmadıq".

Sonrakı tədqiqatçılar da şairin ömür yolu və yaşayışına dair geniş məlumat əldə edə bilməmişlər. Mövcud elmi mənbələrin çoxunda qeyd edildiyinə görə Raci 1831-ci ildə Təbriz şəhərində Xiyaban məhəlləsində tacir ailəsində anadan olmuşdur. Onun atasının Təbriz bazarında kiçik bir ərzaq dükanı vardı. Düyü və xüşkbar alıb-satır, ailəsini dükandan gələn qazancla dolandırırdı.

Racinin uşaqlığı və gəncliyi doğma şəhərində keçmişdir. O burada mədrəsə təhsili almış, ərəb-fars dillərini və Qurani-Kərimi öyrənmişdir. Seyid Əzim Şirvaninin yazdığına görə çox ağıllı, bilikli, şirinkəlam və sinədəftər bir insan imiş. Şeirlərini əzbərdən söyləyərmiş. Dostlarının yanında böyük hörmət və nüfuzu varmış. Gənc yaşlarında ticarətə qoşulmuş, atasının dükanında çalışmışdır. Peşəsi ilə əlaqədar Azərbaycanın Xoy, Səlmas, Həmədan, İrəvan, İranın Qəzvin, Şiraz şəhərlərini, Xorasan, Tehran vilayətlərini gəzmiş, bu yerlərin mədəni-iqtisadi həyatı, əhalinin yaşayışı, maddi durumu, məşhur ziyalıları, sənət adamları və tacirləri ilə tanış olmuş, yaxınlıq etmişdir. Şübhəsiz, bu səfərlər gənc şairin ictimai həyatı yaxından öyrənməsinə, onun bədii dünyagörüşünün formalaşmasına, yaradıcılığının püxtələşməsinə faydalı təsir göstərmiş, ədəbi mühitdə tanınmasını və şöhrətlənməsini sürətləndirmişdir. Mövcud həyatı yaxşı öyrənməsi və sənət, peşə adamları ilə qarşılıqlı münasibətləri nəticəsində bu qənaətə gəlmişdir ki, artıq "fünuni-şeirdə həddə, kəmalə yetib... indi kitab vəqtidir".

Ahıl çağlarında səyahətə çıxaraq Yaxın Şərqin görməli şəhərlərinə getmiş, müqəddəs yer-

ləri ziyarət etmişdir. Seyid Əzim onun Kərbəlada olduğunu bildirir. 1876-cı ilin sonlarında isə Məkkəyə getmiş, oradan Cəddəyə gəlib su yolu ilə vətənə qayıdarkən mindiyi buxar gəmisi Qırmızı dənizdə tufana düşmüş, başqa sərnişinlərlə birlikdə Raci də suya qərq olmuşdur. Bu hadisə hicri tarixlə 1292-ci il (miladi: 1876) məhərrəm ayının 10-da (Aşura günü) baş vermişdir. Şairin ölümü onu tanıyanları kədərləndirmiş, müasirlərindən "Səbur" təxəllüslü şair Racinin "belə qəfil, vətəndən kənarda vaxtsız vəfatı" (F.Köçərli) münasibətilə növhə yazaraq mərhumu vəsf etmiş, kədər və təəssüf hisslərini bildirmişdir. M.Tərbiyət yazır ki, Racinin Əbdül Məcid adlı oğlu olmuş, "Naci" təxəllüsü ilə şeirlər yazmışdır. Onun lirik şeirlər divanı vardır.

Raci bədii yaradıcılığa erkən yaşlarında – yeniyetməlik dövründə başlamış, əsərlərini Şərq klassik şeir ənənələri ruhunda və üslubunda, doğma Azərbaycan türkcəsində və fars dilində yazmışdır. O, Füzuli ədəbi məktəbinin istedadlı davamçısı olub, XIX əsr divan ədəbiyyatının sayılıb-seçilən nəhəng nümayəndəsidir. Onun şeirlər divanı Təbrizdə dəfələrlə, Bakıda isə bir dəfə (1992-ci ildə) nəşr olunmuşdur. Şairin həm Təbrizdə, həm də Bakıda nəşr edilən divanında yer alan əsərlərinin, demək olarki, hamısı lirik şeirlərdir. Onların içərisində yalnız bir mənzum hekayət vardır ki, epik üslubdadır. Divanın ilk nəşrində (Təbriz, hicri 1293/1876) şeirlər bu ardıcıllıqla düzülüb: farsca qəzəllər, beyt və rübailər, türkcə qəsidələr, qəzəllər, mərsiyə və sinəzənlər, rübailər və mütəfərriqələr. Qəzəllərin arasında bir təcnis, bir hekayət, bir mürəbbe vardır. Kitabın sonunda əlavə olaraq Molla Hüseyn Dəxilin şeirləri verilmişdir.

Şairin Bakıda çapdan çıxmış "Seçilmiş əsərləri" kitabı (Tərtibçi – Hafiz Abıyev, "Sabah" nəşriyyatı, 1992) "Divan"ın Təbriz nəşrləri əsasında tərtib edilmiş və oraya şairin yalnız Azərbaycan türkcəsində olan əsərləri daxil edilmişdir. Kitabdakı nümunələr bu qayda ilə düzülmüşdür: qəzəllər, növhə və sinəzənlər, qəsidələr, müxtəlif şeirlər. Tərtibçi müasir mətnşünaslıq prinsiplərinə uyğun olaraq kitaba Racinin həyat və yaradıcılığından bəhs edən "Ön söz", kitabın sonunda isə bəzi çətin beytləri, ayrı-ayrı misralarda işlənmiş ifadələri aydınlaşdıran "İzahlar", habelə çağdaş oxucuya məlum olmayan ərəb-fars mənşəli sözləri asanlıqla başa düşmək üçün "Lüğət" vermişdir.

Raci lirik şairdir. Onun əsərlərində hiss, duyğu və düşüncələrin təqdimi çox canlı və təsirlidir. Qəzəl və qəsidələrində ənənəvi lirik ovqat, klassik poeziyadan gələn və bir çox cəhətdən dəyişməyən, sabit fəlsəfi mündəricə, romantik qəhrəman, təsvir və ifadə sistemi, təşbeh və metafora aydın görünsə də, "bu qəzəllərdə oxucuya çırpıntı və həyəcan, iztirab və nəşə, təmiz əxlaq, ovqat və əhval aşılayan emosional enerji, nəfəs və can var. Və o öz auditoriyasına dərindən təsir edə, onu müvafiq əhval-ruhiyyəyə səfərbər edə bilir" (Y.Qarayev). Raci lirikasının əsas və aparıcı mövzusu məhəbbətdir. Onun lirik qəhrəmanı eşqin sabitqədəm yolçusu – vəfalı Aşiqdir. Eşq yolunda çəkdiyi əzabları, qarşılaşdığı bəlaları səadət sayır, xalq arasında rüsvay olmağı, dəli-divanə (Məcnun) adlanmağı, Leyli dərdi ilə pərişan gəzməyi şərəf bilir:

Eşq əhli bu afaqda rüsva gərək olsun,
Məcnun kimi sərgəşteyi-səhra gərək olsun.
Bu rəsmdir, aşiqlərə divanə deyəllər

Bu taifədə hövsələ dərya gərək olsun.
Başdan ayağa yarsala tiğ ilə gər aşiq
Məşuq ilə məmlüvv sərapa gərək olsun.

Klassik poeziya üslubunda yazan şairlərin çoxu kimi Ə.Racinin də tərənnüm etdiyi eşq ikili səciyyədədir. Onun qəzəllərinin bir qismində təbii həyat gözəllikləri, real insani yaşantılar: sevinc, kədər, iztirab, həyəcan, məcazi məhəbbət hissləri tərənnüm edilir. Şair sevən insanın könül dünyasını, qəlb çırpıntılarını, onun keçirdiyi narahatlığı və həyəcanları olduqca təbii və görümlü canlandırır. Belə şeirlərində Raci mövcud insandan, Təbrizdə, Həmədanda, Şirazda gördüyü, tanıdığı gözəldən söhbət açır. Aşiq bu yer gözəlinin hüsnünə: qara xalına, nərgiz gözlərinə, tuba boyuna, ay kimi parlaq camalına vurulur. Onun həsrətini çəkir, vüsalını arzulayır. Bu şeirlərdə sevgi duyğuları, hicran dərdləri, ayrılıqdan doğan ah-fəqan, ümid, vüsal nəşəsi, məmnunluq təbii və canlı verilir:

Nə qədər sən kimi bir qönçədəhanım yox idi,
Ey pərivəş, bu qədər ahü fəğanım yox idi.
Tutiyayi-xəti can nəqdinə alseydim əgər,
Ey gözüm, bil ki, bu sevdada ziyanım yox idi.
Səri-kuyin mənə dünyadə əta eylədi Həqq,
Çünki üqbadə mənim meyli-cinanım yox idi.
Neməti-vəslüvə, səd şükr yetişdim birənc,
Mənim öz taleyimə heç gümanım yox idi.
Raci, yazdım qala məndən bu qəzəl namü nişan,
Çünki aləmdə mənim namü nişanım yox idi.

Möhkəm, dözümlü, səbirli və eşq yolunda sabitqədəm olması da Racinin təsvir etdiyi Aşiqin səciyyəvi keyfiyyətləridir. O özünü məşhur məhəbbət qəhrəmanları (Məcnun, Fərhad, Vamiq) ilə müqayisə edərək, onlardan daha sadiq və iradəli aşiq olduğunu bildirir: "Əgərçi eşq binasını əzəl qoyub Məcnun, Onun binasını möhkəm edib mənim eşqim". "Bənzəməz bir dağı-xüşk ilə mənə Fərhad, mən Sinəmün yüz dəfə dağı-zəxmdarın görmüşəm". "Yazublar" rədifli qəzəlində isə şair lirik qəhrəmanın da, məşuqun da məkanını konkretləşdirərək, dəqiq ünvanları ilə təqdim edir:

Gülçöhrələri müntəxəb eylüblə sərasər,
Təbrizdə səni, Yusifi Kənanda yazublar.
Məcnuni yazublar ərəb içrə ola rüsva,
Bu Racini də səfheyi-İranda yazublar .

Racinin qəzəllərindəki Aşiq gözəlliyi dərk edən, qiymətləndirən incə bir zövq əhlidir. Onu bəyənməyən, eşqi inkar edən vaizlər və zahidlər isə cahil, nadan adamlar kimi təsvir olunur. Şairə görə aşiqlik xüsusi vergidir. Eşq mənəvi nemətdir. Yalnız daxilən saf, kamil olanlar eşq yoluna gedə bilərlər. Naqis adamlar eşqin mənasını başa düşməz, onun əzabına dözməkdən qorxarlar:

Naqislərə təklif eləmün eşq rümuzin
Əbcəd degü, hər tifli bu irşadə gətürməz.

Aşiq maddi baxımdan nə qədər yoxsuldursa, mənəviyyatca bir o qədər zəngindir; vəfalı, etibarlı, sədaqətli və səxavətlidir. Sevgilisindən ala biləcəyi bir busə üçün bütün varını: dinini, imanını, hətta canını belə verməyə hazırdır. Bütün bunlar göstərir ki, Raci şeirlərinin bir qismində dünyəvi məhəbbət duyğuları – insanın mürəkkəb daxili aləmi: sevinc və kədəri, arzu və xəyalları, təlaş və iztirabları, sevib-sevilmək haqqı və duyğuları tərənnüm olunur. Şair bu bəşəri mövzunu dərindən-dərinə, incədən-incəyə işləyib daha da cilalandıraraq, əsrlərdən bəri Azərbaycan lirikasının mərkəzində dayanan Aşiq və Məşuq obrazlarının yeni tarixi şəraitdə də yaşamağa və insanları daxili saflığa, yüksək mənəvi-əxlaqi təmizliyə, həyatdan zövq almağa, onun nemətlərindən faydalanmağa çağırmaq, bu işə səfərbər etmək missiyasına qadir olduğunu əsaslandırır ("Görəmmirəm", "Yeri", "Saxlasun", "Vurar", "Özgədür", "Çəkirəm", "Əgləşüb" və s. rədifli qəzəllər).

Lakin Raci yaradıcılığında tərənnüm olunan eşqin ilahi mahiyyəti və səciyyəsi daha böyükdür. Ayrı-ayrı qəzəllərindən başqa qəsidələri növhə və sinəzənləri də Yaradana – Tanrıya, Onun elçisinə, yaxud Əmir-əlmöminə ülvi məhəbbətdən bəhs edir. "Minnətün" rədifli qəzəlinin sonunda şair öz daxili düşüncələrini ümumiləşdirərək yazır: "Yüz igirmi dörd min adəm minnətün çəkincə, gəl, Raci, get çək bir Əmirəlmöminin münnətün".

"Gərək olsun" rədifli qəsidəsinin məqtə beytində isə o, inam və etiqadını, həyat və sənət amalını daha da konkretləşdirir:

Yaz mədhini, Raci, nə qədər olsa müyəssər,
Ovsafi-Əli aləmə ifşa gərək olsun.

Beləliklə, XIX əsrdə klassik poeziya üslubunu, Füzulinin sənət yolunu davam etdirən başqa şairlər kimi Racinin də lirikasında tərənnüm olunan məhəbbət həm həyati və dünyəvi, həm də ilahi səciyyə daşıyır. Onun lirik qəhrəmanı həyat gözəlliklərinə, real insana biganə olmadığı kimi, ruhi-mənəvi aləmə, ilahi sevgiyə də həssasdır. Özü də bunlardan ikincisinə – ilahi sevgiyə meyil daha qüvvətlidir. Şair Dünyanın fani, müvəqqəti, Axirətin isə daimi, əbədi olmağına, ruhun ölməzliyinə, məhşər gününə ürəkdən inanır. Buna görə "Kərbəla şəhidlərinin müsibətinə şüru etməzdən qabaq Həqq dərgahına minacat edib, Ondan tovfiqü mərhəmət diləyir və səhni-çəməni-Neynəvada pərvaz etmək üçün balü pər istəyir və nəfsi-şumun əlindən xilas olub, həqiqi aşiqlər məsləkinə daxil olmağa və vadiyi-heyrətdən qurtarıb nicat bulmağa lütf kimi bir dadrəsü rəhbər tələb edir" (F.Köçərli).

İmdad elə, yarəb, sən özün, bimədəduğ biz,
Başdan əyağa büxlü riyavü həsəduğ biz.
Hər qədr təsəvvür edax, ondan da bəduğ biz
Əmma ki əzadari-şəhi-Kərbübəlayüx.

Ya rəb, dəxiluğ bu qətiül vərdi Hüseynə,
Peyğəmbərü Zəhravü Əliyyu həsəneynə
Meylün bilirux çoxdu sənün çün bu Hüseynə
Hər sali sərasər odu kim, növhəsərayux.

Orta əsr Azərbaycan divan ədəbiyyatında, xüsusilə sufi və hürufi poeziyasında tərənnüm olunan ilahi eşqin bir ünvanı var idi – Tanrı! Sufi və hürufi şairlər Haqqı kamil insanın simasında görür və belə insan kimi, məsələn, Həllac Mənsuru, yaxud Fəzlullahı tanıyır, onların eşqini və ya onlara ünvanlanmış məhəbbəti həqiqi məhəbbət (ilahi eşq) sayırdılar. Sufilik və hürufilik ideyaları yayan şairlərin əsərlərində "Ənəlhəq" kəlməsinə tez-tez təsadüf edilir. Onlar Fəzlullaha bəslədikləri sevgini elə Allaha məhəbbət sayırdılar. Nəsimi yazırdı:

Bulmuşam Həqqi, "Ənəlhəq" söylərəm,
Həq mənəm, Həqq məndədir, Həq söylərəm.
Gör bu əsrarı nə müğləq söylərəm
Sadiqəm qövlümdə səddəq söylərəm.

***

Bir əcaib şahə verdim könlümü,
Bədr üzlü mahə verdim könlümü,
Ta ki, Fəzlullahə verdim könlümü,
Bigüman Allahə verdim könlümü.

XIX əsrdə yaşayıb-yaratmış mərsiyə şairlərinin, o cümlədən Racinin əsərlərində "Ənəlhəq" sözü yoxdur. Onlar Allahı – xaliq, bütün kainatı və insanı xilqət sayırlar. Başqa mərsiyə şairləri kimi Racinin də lirik qəhrəmanı Allahın və Əmir-əl Möminin aşiqidir. Racinin növhə və sinəzənlərində bu aşiq Şahi-mərdan, Sərdari-şühəda adı ilə təqdim olunur. Şahi-mərdan, yaxud Sərdari-şühəda obrazının tarixi prototipi Məhəmməd Əleyhüssalamın nəvəsi İmam Hüseyndir. Racinin mərsiyə və növhələrində o, Haqq aşiqi, ədalətli cəmiyyət, demokratik hakimiyyət uğrunda mübarizə aparan və əqidəsi, "cananı yolunda can verməyin əyani nümunəsini göstərən", şəhidlik zirvəsinə yüksələn bir qəhrəman kimi təqdim olunur. Şahi-mərdan başına gətiriləcək müsibətləri, əziz adamlarının vəhşicəsinə qətlə yetiriləcəyini, əhli-əyalının əsir götürülüb qürbətə aparılacağını əvvəldən bilir. Lakin öz yolundan – əqidəsindən çəkilmir. O, torpağından ölüm qoxusu gələn isti çölü – qətlgahı "rəhi-canan", "meydani-eşq", "gülüstan" adlandırır, bu yeri İbrahimxəlil peyğəmbərin İsmayılı qurban kəsmək istədiyi müqəddəs məkana (Mina dağına) oxşadır. Bacısı onu Kərbəla yolundan saxlamaq istərkən deyir:

Ey bacı, məni eşq çəkib Kərbübəlayə,
Başım keçə bu çöldə gərək növki-cidayə,
Bu Kərbübəla oxşarı ol kuhi-Minayə,
Bu dəştdə yetmiş iki qurban gərək olsun.

İmamın oğlunu, qardaşını, kürəkənini, bütün yaxın adamlarını və tərəfdarlarını qılıncdan, oxdan, nizədən keçirib öldürür, qızını, bacısını, xanımını qorxudur, susuz saxlayır, zülm edirlər. İmam Hüseyn bu məşəqqətləri, əzabları könüllü qəbul edərək Yezidin hakimiyyətinə baş əymir. O özündən qat-qat güclü olan və başdan ayağa qədər silahlanmış düşmənin vəhşi ordusu ilə tək-tənha vuruşaraq, onlarca qılınc, ox, nizə yarası alır. Huşunu itirib atdan yıxılır. Ayılanda özünü isti qum üstündə və düşmən əhatəsində görür. Susuzluqdan ciyəri, boğazı, dili, dodaqları yanır. Bir qurtum su istəyir. Lakin Sümrün dəstəsi onun istəyinə istehza edir,

vəziyyətinə baxıb məmnun olur. Sümr imamın susuzluqdan çat-çat olmuş "təşnələb" dodaqlarına baxdıqca həzz alır və ağlasığmaz bir qəddarlıqla imamın başını kəsir.

Səfheyi-ovraqə xamən xeyli atəşrizdür,
Çox təəccübdür, səlamət əldə bu dəftər qalub.

Racinin növhə və sinəzənlərində lirik əksini tapan hadisələrin ikinci qütbündə Yezid və Şümr obrazları dayanır. Şair onları son dərəcə zülmkar, qəddar və qaniçən adamlar kimi təqdim edir. Yezidin əmri ilə onun adamları İmam Hüseynin və əhli-əyalın yolunu kəsib onları göylərindən od yağan bir çöldə, qızmar qumların üstündə saxlayır, təkcə böyüklərə – kişilərə deyil, uşaqlara və qadınlara, xəstələrə və şikəstlərə də su vermir, onların ah-vayından həzz alırlar. Yezidin tərəfdarları toy gərdəyindən yenicə çıxmış Qasimi, yeniyetmə və gözəl Əliəkbəri öldürürlər. Həzrət Abbasın qollarını kəsirlər. Bununla da ürəyi soyumayan Şümr İmam Hüseynin başını kəsir. Sonra onun nəşini isti çölə tullayıb, başını nizəyə keçirir, xeymələrə od vurur, əhli-beytin zinətini soyur, uşaqları, xəstələri yandırılmış xeymələrdə hisin içində yatırdır. Əhli-əyalı əsir götürüb gah piyada, gah da üryan dəvə üstündə Şama gətirir. Yolda qadınları, uşaqları incidir, İmam Hüseynin nizəyə keçirilmiş başına, əsirlərin əl-ayağına, kürəyinə çubuq vurur, boyunlarına ağır zəncir keçirir, əllərini sarıtdırır, Şama çatdıqda isə viranə bir məsciddə yerləşdirir.

Şair Şümrü "həyasız", "sitəmkar", "əhli-zələmə", "bədəxtər", "əhli-kin" kimi epitetlərlə səciyyələndirərək lənətləyir. Onun vəhşiliyi, nadanlığı və qəddarlığı Üsəra ilə (əsirlərlə) rəftarında görünür. Raci şeirlərində Üsəra XIX əsr Azərbaycan poeziyasını həm tematika-məzmun, həm də surətlər aləmi baxımından zənginləşdirən xüsusi obrazdır. Üsəra toplu surətdir və onun da tarixi prototipi vardır. Bu surətlər sırasına şairin mərsiyələrində, növhə və sinəzənlərində adları tez-tez çəkilən Zeynəb, Səkinə, Leyla, Gülsüm, Bimar Zeynalabdin və başqaları daxildir. Şümr onları əsir götürdükdən sonra Şama gətirib quru, viranə və qaranlıq yerdə saxlayır. Səkinənin başına taziyanə vurur, Bimar Zeynalabdini şəhər içində dolandırıb təhqir edir. Leylanı, Gülsümü incidir, onlara əzab-əziyyət verir.

İztirablarının ağırlığına, qayğılarının çoxluğuna, dərdlərinin dözülməzliyinə görə üsəra içərisində Zeynəb surəti seçilir. O, İmam Hüseynin bacısıdır. Yurdu dağıdılmış, qardaşları və başqa əziz adamları gözünün qabağında qətlə yetirilmişdir. Hələ qardaşlarının və başqa əziz adamlarının nəşi soyumamış, onlar dəfn olunmamış əsir alınmış, Şama aparılmışdır. Şahimərdanın qətlindən sonra nəslin ağbirçəyi – başçısı Zeynəbdir. O, təkcə özünün deyil, bütün əsirlərin, hətta nəslinin, tayfasının qeyrətini (təəssübünü) çəkir. Atası, qardaşı öldürülmüş əsir xanımlar ən çətin anlarda, ürəklərinin sızıldadığı, yaralarının qövr elədiyi məqamlarda Zeynəbə sığınır, dərdlərini ona söyləyirlər. Zeynəb əsirlərə ana qayğısı göstərir, öz təsəlli və məsləhətləri ilə onların qövr eləyən mənəvi yaralarına su səpir, qəlblərində inam və ümid işığı yandırır. Amma "bədəxtər" Şümr, bəsirət gözü bağlanmış Yezid başqa əsirlər kimi Zeynəblə də amansız rəftar edir; ona möhnət, iztirab çəkdirir, şəhərin küçələrində niqabsız gəzdirib camaatın gözündə aşağılamaq, kəniz kimi göstərmək istəyir. Raci Şümrün bu hərəkətini nifrətlə lənətləyir:

Üryan dəvədə əsir kimi Abidi-zari,
Şam içrə dolandırdılar hər rəhgüzari,

Bir çarsuya çəkdilər axır o qətari,
Müxtəss idi bazar kənizilə qulamə.

İstərdi çəkə zülmətə baş mehri-fələkdən,
Bir tirə yer eylüb olara Şümr müəyyən.
Gül üzlülərə verdi o viranədə məskən,
Yetdi o lain mətləbü məqsudu məramə.

Üsəra içərisində öz taleyi ilə oxucunu riqqətə gətirən surət İmam Hüseynin qızı Səkinədir. Onun nişanlısı toy gecəsinin səhəri şəhid olmuşdur. Hələ bu faciənin dəhşətindən ayılmamış qardaşı, daha sonra atası qətlə yetirilmişdir; ömür büsatı pozulmuş, əsir düşmüşdür. O, hər dəqiqə əzizlərini xatırlayır, gözlərini yuman kimi atasının xəyalını görür, sevinir, şikayətlənir, ayılanda isə ah-nalə qoparır, fəryad edir. Əhli-beytin başqa üzvləri kimi Səkinə də başına gələnləri haqqın yazısı, taleyin hökmü kimi qiymətləndirir, mövcud vəziyyətinə, əsir düşməsinə görə nə qədər kədərlənib göz yaşı axıtsa da, məhşər günü haqqın – ədalətin qələbə çalacağına ümid bəsləyir.

Racinin növhə və sinəzənləri nə qədər qəmli, kədərli olsa da, onların ümumi pafosu bədbin deyil. Onun şeirlərində tərənnüm olunan insanların taleyi oxucunu, dinləyicini təəssüfləndirsə də, xoşbəxt gələcəyə inamını qırmır, əksinə, ümid verir. Şair insanı kədərləndirməklə onda qorxu, təəssüf, iztirab duyğuları oyatmaqla onu daxilən saflaşdırır, qəlbini yersiz nəfsdən, vəhşi ehtiraslardan təmizləyərək (katarsis), əxlaqi saflığa, mənəvi ucalığa çağırır. Bu keyfiyyəti F.Köçərli böyük həssaslıqla duymuşdur. O yazır: "Mərhum Haci Əbülhəsən Racinin qönçeyi-təbi-lətifi, xüsusən facieyi-Kərbəlanı zikr etdikdə gül kimi açılıb, hər tərəfə hüznü ələm gətirici ətirlər saçıb və cümlənin ürəklərini qəmü qüssə ilə və gözlərini yaş ilə doldurur. Və lakin bu qəmü ələm və göz yaşı insanı məyusü məqşuşü təzyiq etmir, bəlkə onun qəlbini saflaşdırıb, gözünə işıq gətirir".

Raci yaradıcılığında ilahi məhəbbətdən bəhs edərkən bir məsələni nəzərə almaq vacibdir: onun lirik qəhrəmanı ilə lirik "mən"i ayrı-ayrı subyektlərdir. Şairin növhə və sinəzənlərinin mərkəzində dayanan lirik qəhrəman İmam Hüseyn və onun əshabəsidir. Onların hamısı Haqq aşiqidir və Allah eşqi yolunda şəhid olurlar. Bunlardan başqa Racinin növhə və sinəzənlərində bir lirik "mən" də var ki, həmişə İmam Hüseyn üçün ağlayaraq göz yaşı axıdır və çağdaşlarını da İmam Hüseyn müsibətini yad edib göz yaşı axıtmağa çağırır. Bu çağırış əslində haqsızlığa, ədalətsizliyə, zülmə qarşı səfərbərlikdir.

Şairin məhəbbət mövzusunda yazılmış və çox yayılmış əsəri "Nə eşq olaydı, nə aşiq, nə hüsni-dilbər olaydı" misrası ilə başlanan qəsidəsidir. Həmişə eşqi yüksək qiymətləndirən, onu bəşər oğlunun mənəvi neməti, insanlığın əsas atributu hesab edən şair bu şeirində, demək olar, bütün yaradıcılığında təbliğ etdiyi fikrin əksini söyləyir:

Nə eşq olaydı, nə aşiq, nə hüsni-dilbər olaydı.
Nə ayinə, nə səfa, ey könül, nə cövhər olaydı.
Nə nazü qəmzə, nə rəncü dəlalü nə işvə,
Nə əczü labe, nə xunabi-dideyi-tər olaydı.

Nə zülf olaydı, nə ariz, nə xətt olaydı, nə xal,
Nə müşk olaydı, nə məcmər, nə udü ənbər olaydı [18, s. 465].

Göründüyü kimi şair əslində "olaydı" yox, "olmayaydı" deyir. Yəni eşq və aşiq də, hüsnü-dilbər və cövhər də, nazü-qəmzə də, zülf və yanaq da olmayaydı. Nə üçün? Yaradıcılığa başladığı vaxtdan həmişə sədaqətli bir aşiq olan Raci əhvalının hansı vaxtında və nəyə görə bu qənaətə gəlir? Bunun səbəbini izah etmək istərkən F.Köçərli yazır: "Raci insanın başına eşqdən gələn bəlaları bir-bir tedad edib, onların olmağını, filcümlə dünyada insanın zövq-səfası və eyş-işrəti üçün xəlq olunmuş əsbabü əlamətlərin yoxluğunu və hüzn-ələmin, qəm-qüssənin nəfyini arzu edib əsl mətləb və təmənnası nə olduğunu məxfi saxlayır. Rus şairi Lermontov kimi bizim Racimiz də nə ölmək istəyir və nə sağ qalmaq, nə şirinliyə meyl edir və nə acılığa, nə hicrin zəhri-həlahilini və nə vəslin şəkəri-safını tələb edir".

M.İbrahimov bu şeiri Racinin dünya işlərindən, həyatın gedişindən, mövcud ziddiyyətlərdən baş açа bilməməsi ilə əlaqələndirmişdir: "Nakam eşqin iztirablarından, əhdü-peymanını pozan gözəllərdən, amansız hökm edən şahlardan və onların qan axıtmağa hazır olan qoşunlarından, iti qılıncdan və baş kəsən cəlladlardan, ürəklə ruhun təzadlarından yorulmuş, onların nə səfasından, nə də cəfa və əzablarından baş açа bilməyən şair məşhur "Nə eşq olaydı, nə aşiq" şeirini yazmışdır".

